FEYRUZ BAĞIROV

NAXÇIVAN · 2009

İSLAM · FƏLSƏFƏ · ƏXLAQ

DÜNYA HƏYATI

Kitab İslam mənəviyyatı, tarixi və fəlsəfəsi ilə maraqlanan oxucular üçündür.

NAXÇIVAN — 2009

Naxçıvan Muxtar Respublikasının 85 illiyinə töhfə

FEYRUZ BAĞIROV

Dünya Həyatı

Kitab İslam mənəviyyatı, tarixi və fəlsəfəsi ilə maraqlanan oxucular üçündür.

Naxçıvan Muxtar Respublikasının 85 illiyinə töhfə

Məsləhətçilər	**İ. Abbasov – filologiya elmləri namizədi**
Ön söz	**D. Məmmədov – filologiya elmləri namizədi**
Redaktor	**V. Vəliyev**
Korrektor	**Dr. T. Əliyev**

Naxçıvan — 2009

** Üz qabığındakı Foto şəkil Harun Yəhya kitabından götürülmüşdür.*

“Baxdım ki, dünya həyatı bir oyun və əyləncədir. Gördüm ki, gələn gedir, gedən gəlmir. Günlərimsə payız yarpaqları kimi tökülür. Külək kimi əsib gedən ömrümə yandım da, bir fərahlıq axtardım. Anladım ki, ruhumun ayrılıq dərdinə ancaq Allah sevgisi dərman ola bilər. Ürəyim Onunla yanan, Onsuz qalınca sönən bir şamdır. Ona gedən bir qısa yol axtardım, “Allaha məhəbbətiniz varsa, Onun həbibinə tabe olmalısınız!” əmrini eşitdim. Və sonunda sevimli Peyğəmbərimin yolunu tapdım, kədərdən xilas oldum.”

“Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər!” (Quran, “Ənkəbut” surəsi, ayə 64)

“Milli mənəvi-əxlaqi dəyərlərimiz ata-babamızdan bizə miras qalmış ən qiymətli əmanətdir. Dünya həyatında uğur qazanmaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır. Bu mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib, müasir həyat tərzi keçirmək lazımdır.”

HEYDƏR ƏLİYEV

Qısaltmalar

Kitabdakı ixtisarla yazılmış sözlər və mənaları:

(c.c.)

(c.c.) - cəllə cəlalühü: Onun şanı nə ucadır - Ancaq Allahın adından sonra deyilər,

(s.ə.s.)- sallallahu əleyhi və səlləm: Peyğəmbərimizə rəhmət və salam olsun

(s.ə.s.)- sallallahu əleyhi və səlləm: Peyğəmbərimizə rəhmət və salam olsun - Salavatı ancaq Məhəmməd Peyğəmbərə demək olar, başqa birinə və ya cismə demək olmaz,

(ə.s.)

(ə.s.) - əleyhis salam: Salam onun üzərinə olsun - Peyğəmbərlərə məxsusdur,

(r.ə.)

(r.ə.) - radiyallahu ənh: Allah ondan razı olsun - səhabələr və bəzi böyük şəxslər üçün deyilər,

(k.s.)

(k.s.) – kuddisə sirruhu: Allah onun sirrini müqəddəs etsin. vəlilər üçün istifadə edilər,

(r.h.)

(r.h.) - rahmətullahi əleyhi: Allah ona rəhmət etsin. mömin ölülərə deyilir,

(Hz.)

(Hz.) - Həzrətii: Həzrəti sözü ucaltma mənasında istifadə edilən bir sözdür. Bu səbəblə hörmət edilən hər kəs üçün istifadə edilə bilər. Peyğəmbərlər, səhabələr, mələklər, vəli insanlar üçün istifadə edilir.

Mündəricat

01 Müəllif haqqında 006

02 Ön söz 008

03 Giriş 012

04 Kainat, insan və Varlıq 016

05 Ruh və fizioloji ömür 023

06 Müvəqqəti və əbədi dünya 030

07 İlahi möcüzə 038

08 Dünya həyatı 044

09 Cənnət və Cəhənnəm 055

10 Bütpərəst hökmdarların aqibəti 065

11 İslamda elmlə təbiət maarifçiliyi 076

12 Nəticə 081

13 Əlavələr 095

14 Ən böyük günah 115

15 İnsanları günaha çəkən əməllər 119

16 “Şəhidlər şahı” – Seyid Əli İmadəddin Nəsimi 122

17 İnsan, irq, qan qrupu və dillərin yaranması 126

18 Həzrəti Mehdi (r.ə.)-nin Dünyaya gəlişi 130

19 Qiyamətin əlamətləri 136

20 Ədəbiyyat 144

FƏSİL

Müəllif haqqında

Feyruz Abdulla oğlu Bağırov 1946-cı ildə Naxçıvan şəhərində andan olmuşdur. Şəhərdəki 5 saylı orta məktəbi bitirmiş və Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda orta ixtisas təhsili almışdır.

Daha sonra Moskvadakı Qiyabi Xalq İncəsənət Universitetinin Təsviri incəsənət fakültəsini bitirmişdir.

Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda fəaliyyət göstərən F. Bağırov, sonradan Akademik Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirmiş və orta məktəblərdə müəllimlik etmişdir.

Yaradıcı rəssam kimi o, Muxtar Respublikanın təbii gözəlliklərini tablolara çəkərək, bir sıra yaradıcılıq sərgilərində iştirak etmişdir. Gənclik illərində kino, foto və rəsm həvəskarı kimi tanınmışdır. Şəhər Mədəniyyət Evindəki "Gənclik" həvəskar kino-foto studiyasına ictimai əsaslarla rəhbərlik etmişdir. Kinostudiyada çəkilmiş "Naxçıvan Toyu" adlı folklor filminə görə Bakı və Moskvadakı həvəskar kino kollektivlərinin baxış müsabiqəsində qalib kimi diplomla təltif olunmuşdur.

Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyevin rəhbərliyi illərində Naxçıvana etdiyi səfərlər zamanı alınmış bir çox tarixi və sənədli foto şəkillərin müəllifi də Feyruz müəllim olmuşdur. O, Hüseyn Cavidin cənazəsinin İrkutskdan Naxçıvana gətirilməsi tədbirinin iştirakçısı kimi çəkdiyi foto şəkillərin də müəllifidir. Tarixə xatirə kimi qalacaq həmən foto şəkillər dəstini o, neqativlə bərabər şairin Bakı və Naxçıvandakı ev muzeylərinə hədiyyə etmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Estetik Tərbiyə Mərkəzində işləyən F. Bağırov uşaq sərgilərinin təşkilatçısı kimi dəfələrlə Təhsil Nazirliyinin Fəxri Fərmanları ilə təltif olunmuşdur. Bundan əlavə o, bədii yaradıcılıqla da məşğul olmuş və realist rəssam B. Kəngərlinin həyatından bəhs edən "Əzablı günlər" adlı tarixi pyes yazmışdır. Pyes, Estetik Tərbiyə Mərkəzinin dram kollektivi tərəfindən səhnələşdirilmişdir.

Bununla bərabər, F. Bağırov “Ziyarətnamə”, “Nuh Yurdu-Naxçıvan”, “Naxçıvanın Təbii Sərvətləri”, “Nuh Yurduna Ziyarət” və başqa kitabların da müəllifidir. Həmin elmi-publisistik əsərlər oxucuların böyük ehtiram və rəğbətini qazanmışdır.

Haliyədə müəllifin məqalələri, kitab və tədqiqartları internet vasitəsi ilə dünya ictimaiyyətinə çatdırılır. Kitablarının nüsxələri Bakıdakı “Kitab Klubu” vasitəsilə Azərbaycan diasporasının beynəlxalq kitabxanalarına qoyulmuşdur.

F. Bağırov böyük xeyirxahlıqla kitablarını elmi idarə, təhsil müəssisələri, kitabxana və muzeylərə və habelə maraqlanan çoxsaylı ziyalı oxucularına da hədiyyə edir.

O, Naxçıvan MR Tarixi və Arxeoloji Abidələri Muhafizə Cəmiyyətinin fəal üzvü kimi Naxçıvan MR Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzdə işləyir və Muxtar Respublikadakı tarixi-arxeoloji və təbiət abidələrini təbliğ edir.

Müəllifin veb saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com

FƏSİL 2

Ön söz



Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra oxucuların tarixi, mənəvi və fəlsəfi kitablara həvəsi artmışdır.

Son illərdə vətəndaşlarımız Sovetlər dövründəki itirdikləri mənəvi-fəlsəfi bilikləri indi bərpa etmişlər. Rus yazıçısı M. Qorkinin sözü ilə desək; “Kitab inkişaf etməkdə olan bir cəmiyyətin mənəvi bilik mənbəyidir”.

Məhəmməd peyğəmbər (s.ə.s.) bilikli insanları qiymətləndirərək “Qiyamətdə cahillə aqilin sorğuları eyni olmayacaq” demişdir.

Feyruz Bağırov uzun illərdir ki, təhsil və mədəniyyət müəssisələrində işləməklə mənəvi bilgilərlə də maraqlanır. O, mətbuatda mənəvi məqalələri ilə çıxış edərək oxucular tərəfindən tanınmışdır.

F. Bağırov tarixi, mənəvi və fəlsəfi kitablar yazmaqla xalqımızın mədəni irsini təbliğ edir. Son illər onun yazdığı “Ziyarətnamə”, “Nuh yurdu-Naxçıvan”, “Naxçıvanın Təbii Sərvətləri” və “Nuh Yurduna ziyarət” kitabları oxucuların marağına səbəb olmuşdur.

Müasir dövrdə informasiya texnologiyaları inkişaf etdiyindən, müəllif kitab və elmi məqalələrini internet vasitəsilə də yayaraq geniş oxucu kütləsinə çatdırır. Bunun sayəsində o, Muxtar Respublikanın mədəni quruculuq sahəsindəki nailiyyətlərini, xalqın sosial firəvanlığını və diyarın təbii, tarixi və mənəvi zənginliklərini dünya ictimaiyyətinə çatdırmaqda böyük fəxr və qürur duyur.

F. Bağırov yeni yazdığı “Dünya həyatı” adlı kitabını Hz. Əlinin (r.ə.) “Elm öyrənib kitab yazmağın savabı Allah (c.c.) yolunda ona çəkilən əziyyət qədərdir” kəlamı ilə başlamışdır.

Müəllif Azərbaycanın Ümummilli lideri H. Ə. Əliyevin dediyi: “Milli mənəvi-əxlaqi dəyərlərimiz ata-babalaramızdan bizə miras qalmış ən qiymətli əmanətdir...” sözləri ilə oxucuları vətənpərvərliyə, əcdada ehtirama, hər kəsi öz keçmişinə dəyərlə yanaşmağa çağırır.

“Dünya həyatı” kitabı tarix, milli, mənəvi və əxlaqi dəyərlər baxımından olduqca zəngin bir vəsaitdir. Oxucu kitabdakı mənəviyyat aləminin zənginliklərini yalnız yerli-yerində işlədilmiş Quran kəlamları ilə öyrənir. Təsadüfi deyil ki, bölmələrin əvvəlində zəmanəmizin İslam təbliğatçısı və müasir Türk dünyasının gerçək filosofu Adnan Oktarın (Harun Yəhyanın) mənəvi kəlamlarından sitatlar və M. Əhvədinin fəlsəfi şerlərdən də nümunələr vermişdir.

F. Bağırov “Dünya həyatı”nın giriş hissəsində oxucuları Allah (c.c.)-ın adı ilə mənəvi paklığa səsləyir.

Kitabdakı “Kainat, İnsan və varlıq” bölməsi oxucuları Allah (c.c.)-ın varlığı, kainatın yaradılması, insanın digər canlılardan üstünlüyü və başqa məsələlərlə tanış edir.

“Ruh və fizioloji ömür” adlı bölmədə Allah (c.c.) tərəfindən insana verilmiş Ruh və Şüurdan, insanın bəzi fizioloji problemlərindən, ömrün qısa olmasından və bir sıra zərərli vərdişlərdən çəkinmək barədə danışılır.

Kitabda maraqla oxunan bölmələrdən biri də Nuh tufanı haqqındakı fəsildir. “İlahi möcüzə” adlanan bu fəsildə müəllif elmi dəlillərə, özünün zəngin elmi biliklərinə və mövcud tarixi toponomik göstəricilərə əsaslanaraq su daşqını zamanı Nuh (ə.s.) peyğəmbərin öz gəmisi ilə Naxçıvan ərazilərinə gəliməsi ehtimalını irəli sürür.

“Dünya həyatı” bölməsində min illərlə formalaşaraq milli dəyərlər qazanmış bir çox həyati gerçəkliklərə istinad edilərək ulularımızın da hər zaman təsdiq etdikləri fəlsəfi və həyati bir gerçəklik öz inikasını tapır: Savab qazanmaq istəyirsənsə, səmərəli və faydalı işlər gör.

İnsan cəmiyyətdə səmərəli işlərlə yanaşı, elmi və maddi-mənəvi zənginliyini də inkişaf etdirməyə borcludur. Bölmənin təlqin etdiyi əsas qayə bunlar.

Müəllif yerli-yerində Quran ayələrindən nümunələr gətirməklə kainatın və dünyanın yaradılması, ulduzların bir-birindən uzaqlaşması, yeni ulduzların doğması, bir sözlə kainatın genişlənməsi və enerjisinin tükənməsinin də elmi və dini əsaslarını açıqlayır.

Fəsildə insanın axirətə inamsızlığının səbəbləri, qiyamətin yaxınlaşması, ölmək, yenidən dirilmək, mizan-tərəzi, cənnətlə-cəhənnəm və s. barədə də maraqlı məlumatlar var.

Müəllif "Cənnət və Cəhənnəm" və "Bütpərəst hökmdarların aqibəti" bölmələrində Qurana əsaslanaraq, Allah (c.c.)-ın vəd etdiyi qiyamət günündə insanların bu dünyada törətdikləri əməllərinə görə əbədi həyata qovuşacaqlarını (cənnət və ya cəhənnəm) da izah edir. Bundan başqa, kitabda Cənnətlə Cəhənnəmin mərtəbələri (təbəqələri) də geniş şəkildə təsvir olunmuşdur.

F. Bağırov bu bölmədə həm də qədim zamanlarda yaşamış bütpərəst və zalim, allahsız hökmdarların aqibətlərindən bəzi epizodları xülasə şəklində göstərərək, oxucuda onlara qarşı həqiqi qəzəb, kin və nifrət hissini yarada bilir.

"İslamda elm və təbiət maarifçiliyi" bölməsində müəllif maraqlı bir işdən söhbət açır. Cəmiyyətdə olan ekoloji problemlərin həlli məsələsi orta əsrlərdən kollektiv ictimai əməklə (iməciliklə) görülməsinin mənfəəti göstərilir. Bölmədə təbiəti sevən oxucular Hz. Məhəmməd (s.ə.s.)-in təbiət və onun qorunması haqqındakı kəlamları ilə tanış olacaqlar.

Peyğəmbərimiz cəmiyyət insanın savadlı, elmli, bilkili olması üçün nəsihətamiz kəlamlarınının birində belə deyir;- "Bilikli adam cahil dindardan üstündür".

Müəllif kitabın Nəticəsində dünyadakı İslama qarşı terrorçuluğu pisləyərək, İslam dininin dünyada bərabərlik, humanistlik və sülhsevərliyindən danışır, onu bir çox dəlillərlə sübut edir. O, azğınlaşmış ermənilərin Azərbaycan torpaqlarını qəddarcasıına işğal etmələrini, onun üzərində törətdikləri vandalizmi, vəhşilik, zülüm və qəddarlıqlarını kəskinliklə pisləyir.

Kitabdakı əlavələr hissəsində müəllif İslam dinindəki bir sıra mənbələrə istinad etmiş və ziyalı möminlərə elmi-fəlsəfi məlumatlar verərək oxucuları Dünya həyatına aludəçilikdən çəkindirməyə səy göstərmişdir.

Kitab Naxçıvan MR-ın 85 illiyinə layiqli töhfə olaraq inkişif etməkdə olan Muxtar Respublikanın tarixi, onun sosial və mənəvi həyat sahələri ilə maraqlananlar üçün əhəmiyyətlidir.

D. Məmmədov–filologiya elmləri namizədi,

Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti.

Kitab yazmağın savabı

Allah yolunda ona çəkilən əziyyət qədərdir.

(Hz. Əli (r.ə.))

FƏSİL 3

Giriş



"Bu kitab övliya kitabıdır, bax,

Yaramaz söhrətçin onu aparmaq.

Bu əlvan naxışlı kitabda olar,

Cənnət, cəhənnəmin yolu aşikar."

(M. Əhvədi "Cami-cəm")

"İnsan yer üzünün əşrəfidir!" Bu sözlərdə böyük həqiqət vardır.

Bəs nə üçün belədir? Məgər insandan gözəl bir məxluqat yoxdurmu? Yoxdur!

İnsanla digər məxluqatın arasındakı fərq nədən ibarətdir?

Fərq, yalnız zahiri və daxili gözəlliyi özündə birləşdirən Ruhdadır.

Ruh elə varlıqdır ki, nə çəkisi, nə ölçüsü və nə də həcmi ilə görünüşü vardır.

Bəs bunu – İnsan Ruhunu ona kim bəxş etmişdir?

Yalnız Allah (c.c.)! Aləmlərin yaradıcısı ulu Xaliq!

Bəs O, kimdir?

> *Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər; Taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da sanki işıq saçır. O, nur üstündə nurdur. Allahın dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!".*
>
> QURAN, "NUR" SURƏSİ, AYƏ 35

O, elə varlıqdır ki, sonsuz kainatı idarə edir, bütün məxluqatları yaradır, öldürür və yenidən dirildir. Görür, eşidir, nizamlayır, yedirir, içdirir, çoxaldır, məhv edir. O, bütün işləri asanlıqla səhmana salır, dünyada zaman və məkan yaradır. Bir sözlə hər şeyə qadirdir, qüdrətlidir!

Allah (c.c.), nə cisimdir, nə maddə. Pak və mehriban bir varlıqdır O!

"De ki, O Allahdır, onun sözüdür,

Alqışa, sənaya layiq özüdür.

O, təkdir, qeyrisi tək ola bilməz,

Həmişə mövcuddur, doğmaz-törəməz."

(M. Əhvədi "Cami-cəm")

İmanla Ruh bir-birlərindən ayrılmayan vəhdətdir.

Ruhsuz canlı yalnız quru ağaca bənzər.

Allah (c.c.)-ın var olduğunu, tək olduğunu qəti şəkildə bilmək və buna ürəkdən inanmaq gərəkdir.

Ucalığa və kamilliyə aid bütün sifətlər Allah (c.c.)-da vardır. O, kamil sifətlərlə dolğun, nöqsan sifətlərdən xalidir.

İlahiyyatçı alimlər Allah (c.c.)-ın sifətlərini on dörd əsasa ayırmışlar ki;

- Var olmaq
- Əzəli olmaq
- Əbədi olmaq
- Tək olmaq
- Heç nəyə bənzəməmək
- Özlüyündə var olmaq
- Diri olmaq
- Bilikli olmaq
- Hər şeyi eşidən
- Hər şeyi görən

Yaratdıqlarını sevən | Güclü olan | Danışa bilən | Hər şeyi yaradan

Bunlardan altısı (1-6) Allah (c.c.)-ın zatı, Səkkizi isə (7-14) Allah (c.c.)-ın varlığı ilə bağlı olan sifətləridir. (İ. Abbasov. "Dini-elmi-əxlaqi söhbətlər", Naxçıvan-2008, s. 22)

> *"... Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan kəs, şübhəsiz ki, çox azmışdır."*
>
> QURAN," NİSA" SURƏSİ, AYƏ 136

Hər duanın başlanğıcı "Bismillahir rəhmanir rəhim"dır. Bu möcüzəvi on doqquz hərfli sözdə (Ərəb əlifbası ilə) hikmət vardır.

> *"Onun üstündə on doqquz vardır".*
>
> QURAN," MÜDƏSSİR" SURƏSİ, AYƏ 30

19 (on doqquz) sayı Quran kitabında möcüzəvi şifrədir. Belə ki ərəbcə "Bismillahir rəhmanir rəhim" kəlməsi 19 hərfdən ibarətdir.

Quran cəmi 114 surədən (19x6=114) ibarətdir ki, ilk gəlmiş "Ələq" (96) surəsi axırdan 19-cu yerdədir. Maraqlıdır ki, beş ayədən "Ələq" (laxtalanmış qan) surəsindəki kəlmələrin sayı da 19-dur. Surədə 285 hərf (19x15=285) vardır.

Quranda 114 sayda (19x6=114) "Bismillah" sözü olduğu kimi "Nəml" (19) surəsində iki yerdə (əvvəldə və 30-cu ayədə) işlənilir.

"Bismillah" sözü olmayan "Tövbə" (9) surəsindən başlamaqla "Nəml" (19) surəsi 19-cu sıradadır.

Quranda "Nəsr" (110) surəsində 19 hərf vardır. Qurandakı "Allah" kəliməsi 133 (19x7=133) dəfə deyilir. "Rəhman" kəliməsi isə 57 (19x3=57) dəfə işlədilmişdir.

"Quran" kitabındakı ərəbcə "ətiu" (itaət edirəm) ilə "vahid" (tək) sözləri 19 dəfə işlədilmişdir.

Maraqlıdır ki, dünyadakı Günəş, Ay və Yer hər 19 ildən bir yan-yana bir cərgəyə düzülürlər.

Normal insanın əl skletində 19 sayda sümük vardır. Fövqəl-möcüzəvi 19 rəqəmi ilə əlaqədar nə qədər misallar çəkmək mümkündür. (bax; H.Yəhya, "Quran möcüzələri", Ankara-1999, s. 214)

Hər duanın başlanğıcı "Bismillah" olduğu kimi sonu isə "Amin!" dir. Tərcüməsi Elə olsun, Duamızı qəbul et mənasındadır. Bu söz namazda və dualardan sonra deyilsə də Quranda yoxdur. Hz.Məhəmməd (s.ə.s.) namazda Fatihə Surəsindən sonra "Amin" deyilməsini xüsusilə bildirmişdir. Dörd hərfdən ibarət olan "Amin" sözünün açıqlaması belə olabilər: "A" hərfi – Hz. Adəm (ə.s.), "M" hərfi – Hz.Məhəmməd (s.ə.s.), "İ" hərfi – Hz. İsa (ə.s.) və "N" hərfi isə Hz. Nuh (ə.s.) dur. Doğrusunu Allah (c.c.) bilir! Ona salam olsun! Amin!

> *"... Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən, Sən, hikmət sahibi Sənsən..."*
>
> QURAN," BƏQƏRƏ" SURƏSİ, AYƏ 32

> *"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur! O hər şeyi biləndir!"*
>
> QURAN, "BƏQƏRƏ" SURƏSİ, AYƏ 29

> *"Orada ayı bir nur, günəşi də çıraq etdi".*
>
> QURAN, "NUH" SURƏSİ, AYƏ 16

Kainatda 200 milyard qalaktika,

hər qalaktikada isə 200 milyard ulduz vardır.

(Harun Yəhya)

FƏSİL 4

Kainat, insan, varlıq



> *“And olsun ki, Biz göyləri, yeri və onlar arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq da üz vermədi”.*
>
> QURAN,“ QAF“ SURƏSU, AYƏ 38

Allah (c.c.) kainatı 15 milyard il əvvəl bir nöqtənin partlayışından (yoxdan) Var etmişdir. Müasir elmdə həmin hadisəyə “Böyük Partlayış” (ing. Big Bang) da deyirlər. (bax; H.Yahya. “Quran möcüzələri”, Ankara-1999, s. 14)

Sonsuz kainatı nizamlayan ilahi qüvvə Allah-təala, bizim yaşadığımız yer kürəsində təmiz hava, su, torpaq, od (istilik), nəbatətlə birgə, heyvanat aləmini də yaratmışdır.

Quran kitabından məlum olur ki, Allah-təala altı günə Günəşi və onun dövrəsində fırlanan ulduzları (kəhkəşanı) yaratmışdır. Bütün bunlar Allah (c.c.)-ın istəyi ilə yaradılaraq özlərinə məxsus formalı hərəkətdədirlər.

“Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların hər biri (özünəməxsus) bir göydə üzür”. (Quran,” Ənbiya” surəsu, ayə 33).

Bizə gözlə görünən kəhkəşandan başqa digər Günəşlər və onun ətrafında fırlanan ulduzlar da mövcuddur. Bütün bunlar yalnız Allah (c.c.)-ın möcüzələrindəndir.

Bizim Yer kürəmiz özünün xəyali oxu üzərində və Günəş ətrafındakı orbitində (fəzada) fırlanır. Bu barədə Quranda yazılmışdır;

> *Dağlara baxıb onları donmuş zənn edirsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedirlər. Bu, hər şeyi bacarıqla edən Allahın gördüyü işdir....”*
>
> QURAN,“ NƏML“ SURƏSU, AYƏ 88

Yer il ərzində Günəş ətrafında fırlandıqca yuxarı (şimal) və aşağı (cənub) tərəfləri Günəşə meyllənir. Bu da Yer üzərindəki fəsilləri yaratmaqla canlı aləmə təsirini göstərir.

Yerin belə hərəkəti, üzərindəki (səthindəki) iqlim qurşaqlarının yaranmasına səbəb olur. Onun fırlanma oxu orbit müstəvisinə 66 dərəcə, 33 dəqiqə və 15 saniyəyə meyllidir.

Yerin Günəş ətrafındakı tam dövrəsi 365 gün 6 saat 30 dəqiqə və 30 saniyəyə başa çatır.

Yerin Günəş ətrafındakı fırlanması bir ulduz ili öz xəyali oxu üzərində fırlanma vaxtı isə bir sutkadan ibarətdir.

Günəşdən gələn enerjinin bir hissəsi Yer səthində yayılsa da, qalanı (55 faizi) atmosferdə paylanaraq səpələnir.

Günəşdən gələn ultra bənövşəyi şüalar Yerə öz təsirini göstərərək, nəticədə horizontda “qütb parıltısı” kimi görünür.

Allah-təala Yerin və digər planetlərin ətrafında peyk-ulduzlar yaratmışdır. Yerin ətrafındakı kütlə Aydır.

Ay Günəşlə Yer arasında olanda onun işıqlı görünüşü hilal şəklini alır. Ayın yalnız bir tərəfi daimi olaraq Yer istiqamətində fırlanır.

Ayın Yerdən görünən hilal şəkilli ilk görünüşü (Ayın çıxması) şərq ölkələrində geniş yayılmış ay (qəməri) təqviminin başlandığını bildirir. Qəməri təqvimi hər ildə 10 gün irəliləyərək Miladi təqvimindən fərqlənir.

> *Biz ay üçün də mənzillər müəyyən etdik. Nəhayət o, dönüb xurma ağacının quru və əyri budağı kimi olar".*
>
> QURAN,“ YASİN“ SURƏSU, AYƏ 39

Yerə ən yaxın və yeganə peyk maddi, quru, bərk səthə malik Aydır ki, orada su, hava və maqnit sahəsi olmadığından, canlı aləm də yoxdur.

Allah-təala canlı aləmi Yerdə yaratmışdır. O, canlı aləmə özlərinə məxsus rəng, tərzi-hərəkət və həyati qanunauyğunluq vermişdir. Belə ki havada, torpaqda, suda və suda-quruda (amfibilər) yaşayanları xəlq etmişdir O.

Bütün bu deyinlərlə yanaşı, Allah-təala, ən gözəl təmiz havası, iqlimi, zərif ali bitkiləri və gözəl, yaraşıqlı (ismətli) insanları saf və şirin suyu olan bir aləmdə yaratmışdır.

Həmin aləm Quranda adı çəkilən Cənnətdir. Quranda Cənnət adları ilə “Ət-Tur” surəsində onların təsviri də göstərilir.

Allah-təala Yer torpağından insan yaratmış öz Ruhu ilə canlandırıb, ona Adəm (Yerdən çıxmış varlıq) deyərək, Cənnətə qoymuşdur. Bu barədə Quranda belə bildirilir:

> *“Biz həqiqətən insanı süzülmüş palçıqdan (torpaqdan) yaratdıq.”*
>
> QURAN, “MUMİNİN“ SURƏSU, AYƏ 12

Alimlər müəyyən etmişlər ki, insan bədənindəki toxumalarda karbon, hidrogen, oksigen, azot, fosfor, kükürd, xlor, natrium, maqnezium, kalium, kalsium, silisium elementləri və o cümlədən, dəmir, sink, mis, kobalt, yod, manqan, molibden, xrom və başqa mikroelementlər də vardır.

Allah-təala Adəm (ə.s.) peyğəmbərin Cənnətdə təklikdən darıxdığını görüb, onun üçün ona bənzər yoldaş da yaradaraq, adına Həvva demişdir.

Adəm (ə.s.) peyğəmbərlə Həvva xoşbəxt insanlar kimi Cənnətdə yaşayırdılar. Onların yedikləri qida və içdikləri su bədənlərində nur olduqca şükür edirdilər...

Dini kitabların məlumatına görə, Allah-təala Adəm (ə.s.) peyğəmbərlə Həvvadan əvvəl, itaətkar mələkləri və cinləri yaratmışdır. Bütün məxluqat Allahın şanına ehtiram əlaməti kimi Ona səcdə edirdilər. Quranın 14-cü surəsində Səcdə ayələri vardır ki, onun ən vacibləri, "Səcdə" surəsi ayə 15, "Fusillət" surəsi ayə 37-38, "Ən-Nəcm" surəsi ayə 62 və "Əl-Ələq" surəsi ayə 19-dur.

Cənnətdə olan müxtəlif nəbatət növləri ilə birlikdə buğda (yaxud alma) ağacı da var idi.

Allah-təala Adəm (ə.s.) peyğəmbərlə Həvvaya həmin bitkidən yeməklərini qadağan etmişdir. Mələklərə, cinlərə və Cənnətin digər canlılarına əmr olunur ki, Adəm (ə.s.) lə Həvvə ya da səcdə edilsin. Lakin İblis (Cann) Allah (c.c.)-ın əmrini pozaraq, özünün tüstüsüz oddan, Adəm (ə.s.) peyğəmbəri isə torpaqdan yaradıldıqlarına səbəb göstərərək təkəbbürlə onlara səcdə etmir. Daha sonra isə o, Həvvanın qəlbinə girməklə onu yoldan çıxarır. Tezliklə Adəm (ə.s.) peyğəmbər Həvvanın təkidi ilə qadağan olunmuş meyvələrdən yeyirlər.

Onların bədənlərindəki Cənnət paltarları tökülür. Damarlarındakı soyuq qan istinir. Üzlərindəki tər damlaları axıb yerə düşdükcə, torpaqda tikanlı qızıl güllər göyərir.

Onlar çılpaq bədənlərini Cənnətdəki bitki yarpaqları ilə örtərək, Allah (c.c.)-a günahlarının bağışlanması üçün səcdə edirlər.

Allah-təala günahkar bəndələrini Cənnətdən Yerə qovur. (bax; A.Axundzadə,"Müqəddəs peyğəmbərlər tarixi", Bakı-1993, s. 12)

Adəm (ə.s.) peyğəmbər mələklər vasitəsilə indiki Hindistanın Sərəndib (Seylon) adasına, Həvva isə indiki Ərəbistanın Ciddə ərazisinə salınırlar.

Bundan sonra Adəm (ə.s.) peyğəmbər elədiyi günahlarına görə, Həvva isə təklikdən darıxdığına görə, illərlə Allah (c.c.)-a yalvarırlar.

Mehriban və bağışlayan Allah onların tövbələrini qəbul edərək, hər ikisini bağışlayıb, onları bir-birlərinə qovuşdurur.

Allah-təala təkəbbürlü İblisi (Şeytanı) də Cənnətdən Yerə qovur. İblis, Allahdan, qiyamətədək yaşayıb, Allah (c.c.)-ı inkar edən və Ona səcdə etməyən insanları yollarından azdıraraq, özü ilə bərabər Cəhənnəmə aparmağa möhlət aldı...

Yer üzərində Allah (c.c.)-ın qanunlarına əməl etmək üçün bəşər tarixində peyğəmbərlər (Nəbilər) meydana gəlir ki, onların sayı 124 min nəfər olmuşdur.

Allah (c.c.) elçiləri olan peyğəmbərlər İslam dininin təlimlərini təbliğ etməklə ömür sürmüşlər. Əvvəlinci Adəm (ə.s.), sonuncusu isə Məhəmməd (s.ə.s.) peyğəmbərdir (Onlara həmd və salam olsun! Amin!).

Allah (c.c.)-ın icazəsi ilə Adəmlə Həvvadan uşaqlar törədi və bəşər övladı artıb çoxaldı. Zaman-zaman yerdə, suda və havada yaşayan nəhəng heyvanlar insanları kütləvi surətdə məhv etdi.

Allah-təalanın hökmü ilə mələklərə əmr olundu ki, Yerdəki insanlara əmin-amanlıq məqsədi ilə nəhəng canlıları məhv etsinlər. Yer üzərində güclü zəlzələlər, yeraltı və yerüstü çatlamalar, vulkan püskürmələri, iqlim sərtliyi və bu kimi hadisələrlə nəhəng yırtıcılar məhv oldular.

Materialist təbiətşünaslar Yer üzündəki təkamülü əsassız olaraq, öz-özünə (yəni zaman keçdikcə bir hüceyrəlilərdən çox hüceyrəlilərin) yaranmasını iddia etmişlər. Lakin səmavi kitabların sonuncusu olan Quranda isə, bütün bunların Allah (c.c.) tərəfindən yarandıgı göstərilir.

Yer üzündə müəyyən dövrlər keçdikdən sonra, insanlar çoxalaraq artmağa başladılar. İbtidai insanlar əlverişli iqlim şəraiti hesabına mağaralarda təbii sığınacaq taparaq ovçuluqla (sonrakı dövrlərdə isə əkinçilik, heyvandarlıq və sənətkarlıqla) məşgul oldular.

Yer üzərində İblis (Şeytan), yalnız imansız insanları düz yoldan azdıraraq nahaq qanların tökülməsinə sövq etdi. Əfsus ki, bu cür günah əməllər Allah (c.c.)-ın yaratdığı Bəşər övladının var gününə kimi, yəni ta qiyamət gününədək işlədiləcəkdir.

Qiyamətdən azca əvvəl, Allah-təala, qeybə çəkdiyi kitablarla (“Tövrat”, “Zəbur” və “İncil”) qeybdəki mömin bəndələri Dünyaya göndərəcək. Onların içərisində Hz.Məryəm oğlu İsa (ə.s.) peyğəmbərlə Hz. Mehdi (r.ə.) də olacaq.

Hz. Mehdi (r.ə.)-nin gəlişi ilə “Qızıl dövr” başlayacaq, aradan bir müddət (təxminən 40 il) keçəcək. “Qızıl dövr” bitdikdən sonra isə, Dünyadakı insanlar azğınlaşacaq, qiyamətin başlanğıcı olacaq...

Əuzu billahi-minəş-şəytanir-rəcim!

(Şeytanın şərrindən Allaha sığınıram!)

Şeytan hər an çalışır ki, imanı zəif insanları düz yoldan çıxarsın. Lakin o, Allah (c.c.)-dan qorxan bəndələrə yaxın düşə bilmir. Çünki imanlı şəxsləri qoruyan mələklər vardır.

Adəm (ə.s.) peyğəmbər, övladlarına vəsiyyət etmişdir ki, Allah (c.c.)-a itaət, Ona şükr-səna etməklə və dünyada yaxşı işlər görməklə savab qazansınlar.

Lakin əvvəlinci peyğəmbərin vəsiyyətlərini unudan insanlar tezliklə yollarını azırlar. Həmin azğın tayfalara Allah (c.c.) tərəfindən yeni-yeni peyğəmbərlər göndərilir.

Allah-təala insanları düz yol seçmək üçün, onlara Hz. Musa vasitəsilə "Tövrat", Hz.Davud vasitəsilə "Zəbur", Hz.İsa vasitəsilə "İncil" və Hz.Məhəmməd(s.ə.s.) vasitəsilə "Quran" kimi müqəddəs kitablar göndərmişdir. Həmin kitablarda Allah (c.c.) günahkar insanlara tövbə qapılarını açaraq, onlara şeytandan uzaqlaşmağı tövsiyə, yaxşı əməl sahiblərinə isə əbədi Cənnəti vəd edir.

Dəfələrlə insanlar azğınlaşaraq peyğəmbərlərə zərər vermiş, onları incitmiş və hətta öldürərək şəhid etmişlər. Bütün bunlara görə də müqəddəs Qurandan başqa, digər səmavi kitablar qeybə çəkilmişlər. Axır zamanda qeybə çəkilən bu kitablar Yerə göndəriləcəklər. Quran isə Qiyamətdən bir müddət əvvəl (təxminən 45 il əvvəl) qeybə çəkiləcəkdir.

> *"O, göyləri və yeri (yoxdan) var edəndir..."*
>
> QURAN, "ƏNAM" SURƏSİ, AYƏ 101

> *"Biz göylə yeri və onların arasında olanları boş bir əyləncə üçün yaratmadıq"*
>
> QURAN, "ƏMBİYA" SURƏSİ, AYƏ 16

"Çərx dövrə başladı olaraq heyran,

Yer nura boyandı, yarandı zaman.

Həm də dörd fəsilə bölündü aləm,

Yeddi xətt çəkildi yerdə də bu dəm.

... Bu üç, dörd ünsürə tabesə əgər,

Ona da hakimdir yeddi qat göylər “

(M. Əhvədi, “Cami-cəm”, Bakı-1970, s. 45)

> *“Məğər görmürsünüz ki, Allah yeddi qat göyü necə yaratdı?!”*
>
> QURAN, “NUH“ SURƏSİ, AYƏ 15

> *“Biz sizi (yoxdan) yaratdıq. Məgər təsdiq etmirsiniz?”*
>
> QURAN, “VAQİƏ“ SURƏSİ, AYƏ 57

> *“Kim İslamdan başqa bir din ardınca gedərsə, heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olar!”*
>
> QURAN, “ALİ-İMRAN“ SURƏSİ, AYƏ 85

Təmiz və səliqəli olanları Allah həmişə sevər.

(Harun Yəhya)

FƏSİL 3

Ruh və fizioloji ömür



Allah-təala insanı gözəl biçimdə (formada) mürəkkəb quruluşda bir varlıq kimi xəlq etmişdir.

Belə ki, O, insan orqanizmini (bədənini) hərəkətə gətirən və ən müxtəlif mürəkkəb funksiyaları yerinə yetirə bilən "canlı cihaz" (bax: H.Yəhya, "Quran möcüzələri", Ankara-1990, s. 66) şəklində yaradaraq, onun Ruhunu beynində yerləşdirmişdir (Bütün canlı məxluqatların Ruhu vardır).

İnsan beyni sağ və sol yarımkürəciklərdən və onurğa (düz) beynindən ibarətdir.

Ruha insanın bədənindəki gözlərindən, qulaqlarından, ağzından (dilindən), burnundan və sair orqanlarından əzələ daxili limfa damarlar vasitəsilə "elektirik siqnalları" ötürülür.

Şüur normal inkişaf etmiş insanlardan başqa, digər canlılarda yoxdur. Ruh isə insanla bərabər bütün canlılarda mövcuddur.

Ruhun ətraf aləmi seyr etmək üçün gözə, kənar səsləri eşitmək üçün qulağa ehtiyacı yoxdur.

Bundan başqa, Ruh, insanın fikirləşməsində onun beyninə də ehtiyac duymur.

Bütün bu möcüzəvi işləri Allah (c.c.) öz qüdrəti ilə yaratmışdır.

> *O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər...”*
>
> QURAN, “QƏDR“ SURƏSİ, AYƏ 4

Baş beyin qırışlardan, onu örtən nazik pərdədən (qişadan) və qırışlarda yerləşən neyronlardan (beyin hüceyrələrindən) ibarətdir. Həmin neyronlar Ruhun icraedici mexanizmidir. Orqanizmidə yerləşən hüceyrələrin daxilində nəhəng “zavodu” xatırladan (robot mexanizmli) istehsaledici (proqramlaşdırılmış konveyer) “cihazlar” mövcuddur.

Mikroskopik nöqtələr əksəriyyəti insan doğulub ölənədək “işləməyərək” fəaliyyətsiz qalır.

Normal və yetkin insandakı beyin yarımkürələrinin hər birinin üçdə bir hissəsi işləyir, qalan hissələri isə passiv qalırlar. İnsan ahıllaşdıqca beyin neyronları məhv olur.

Əgər hər hansı bir təsadüfi qəza nəticəsində beyin nöqtələrinə güclü zərbə dəyərsə, işləyən (aktiv) nöqtələr öz fəaliyyətini dayandarır.

Sükunətdə (passiv) qalmış nöqtələrdəki hüceyrələr “hərəkətə gələrək”, insanda qeyri-normal və möcüzəvi fizioloji sağlıq durumu yaranır.

Məlumdur ki, hava ilə su həyatın təməlidir; bunlardan hər hansı biri olmasa heç bir canlı yaşaya bilməz. Nəfəs aldığımız havanın kimyəvi tərkibi əsasən ən çoxu Azot (N2) və Oksigendən (O2) ibarət qazlar qarışığıdır. Hava əsasən Yerin Atmosfer təbəqəsindədir. Quru havada Azot (78,09 %), Oksigen (20,95 %), Arqon (Ar) (0,93 %), Karbon qazı (CO2) (0,03 %), azacıq da və bir sıra diğər yüngül qazlardan ibarətdir. Bunlara, hidrogen, ozon və azot oksidləri, karbon oksidi və bəzi mexaniki qarışıqlar daxildir. Havanın hər kub metrində bir neçə milyon toz hissəcikləri olur ki, bunlar da dumanlıq yaradır. Havanın normal təzyiqi 1,01325 n/m2 (760 mm civə sütunu), 1 l-nin kütləsi 1,2928 q-dır. Havanın son (böhran) təzyiqi 37,2 atmosferdir, son temperaturu isə -140,70 C-dir. O, sudan 400 dəfə yüngüldür. İnsan 3 gün müddətində torpaq altında qalsa da, 3 dəqiqə su altında qala biiməz.

> *Sonra Allah tüstü halında olan göyə üz tutdu... Allah onları yeddi göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi...”*
>
> QURAN, “FUSSİLƏT“ SURƏSİ, AYƏ 11-12

Allah-təala Yer üzərindəki hava təbəqəsini 7 qat yaratmışdır: Troposfer, Stratosfer, Mezosfer, Termosfer, Ekzosfer, İonosfer və Manyetosfer. Allah (c.c.) havanın qatlarını Yerdəki canlılara qarşı mühafizə məqsədi ilə yaratmışdır. Belə ki, yağışın əmələ gəlməsindən zərərli şüaların qarşısının alınmasına, radio dalğalarının ötürülməsindən meteoritlərin zərərsiz hala gətirilməsinə qədər hər təbəqənin özünəməxsus funksiyası vardır. (bax, H.Yəhya “Quran möcüzələri”, Ankara-1990, səh. 35)

> *“Məgər görmürsünüz ki, Allah yeddi göyü qat-qat necə yaratdı?”*
>
> QURAN, “NUH“ SURƏSİ, AYƏ 15

Yerin su ehtiyatları 1454,3 mln. km3-dir. Bunun 1370 mln. km3-i Dünya okeanı, 60 mln. km3-i yeraltı sular, 24 mln. km3-i buzlaqlar, 230 min km3-i göllər, 82 min km3-i torpaqdakı rütubət, 1,2 min km3-i çay suları, 14 min km3-i atmosferdəki su buxarıdır. Dünyadanın su ehtiyatının cəmi-cümltanı 2 % -ə qədəri içməli şirin sulardır. Suyun kimyəvi tərkibi H2O-dur. Suda 11,9 % hidrogen, 88,81 % oksigen vardır. Suyun sıxlığı 3,98 0 C-də, 1,000 q/sm3-dir. İnsan bədəninin 70 %-i sudur. İnsan gün ərzində 3-6 litr su içir. Onun 3 gün ərzində qəti su içməməsi xəstəliyə və hətta ölümə səbəb ola bilər. Allah-təala bütün canlıları sudan yaratmışdır.

> *“Allah hər canlını bir sudan yaratmışdır...”*
>
> QURAN, “NUR“ SURƏSİ, AYƏ 45

> *“İnsanları sudan yaradan, onları əsl qohum və sonradan qohum edən Odur. Rəbbin qadirdir!”*
>
> QURAN, “FURQAN“ SURƏSİ, AYƏ 54

Hər bir hüceyrənin tərkib hissəsinin 80 %-i sudan ibarətdir. İnsanın qocalması bilavasitə su ilə əlaqədardır ki, adi içməli sudan az istifadə etdikdə, orqanizm hüceyrələrində baş verən su qıtlığı özünü büruzə verməyə bilmir. Bu, əsasən dəridə özünü daha tez göstərir, belə ki, dəri qırışıb qocalır.

“Küləkləri rəhmətinin qarşısında müjdəçi olaraq göndərən və göydən tərtəmiz bir su endirən Odur. Ki biz (o suyla) ölü torpağa can verək, yaratdığımız nə qədər heyvanlara və insanlara su təmin edək, deyə.!” (Quran, Furqan” surəsi, ayə 48-49).

Suyun kimyəvi tərkibi Hidrogen (H) və Oksigen (O2) atomlarından ibarətdir. Hidrogen yanan, Oksigen isə yanmaya kömək edən kimyəvi elementdir. Buna baxmayaraq sudan söndürmək məqsədi ilə istifadə olunur. Oranizmdən tər kimi çıxan su isə daxili temperaturu nizamlayır Bütün bu xüsusiyyətlərinə görə suyu həyat mənbəyi adlandırırlar. Alimlər də hər hansı bir planetdə həyatın mövcud olub-olmadığını müəyyən edərkən, ilk növbədə orada suyun olub-olmadığını araşdırır. Allah (c.c.) hər şeyi hikmətlə yaradır...

Fransız yazıçısı Antyan Sent-Ekzuperi Allahın canlılara bəxş etdiyi əvəzolunmaz su adlı neməti haqqında belə demişdir:-“Su! Səni təsvir etmək qeyri-mümkündür. Çünki sən həyatın özüsən... Sən dünyanın ən böyük sərvətisən və Allahın nemətisən.”

İnsanın beynində 10 milyarddan çox hüceyrə (neyron) və 10 trilyon sinir lifləri vardır. 1 dəqiqədə beyindən 740-750 ml. qan keçir. Beynin səthinin sahəsi 1468-1670 cm2-dir.

Dünyada uzun ömürlü insanlar olmuşdur ki onlara, Hz.Nuh (ə.s.) peyğəmbər - 950 il, Hz.Adəm (ə.s.) peyğəmbər- 930 il, Hz.Şiys (ə.s.) peyğəmbər-300 il, İngilis Tomas Korne-207 il, pakistanlı Məhəmməd Əfzəl-180 il, talış Şirəli baba-168 il, macarıstanlı Con - 145 il, nehrəmli Salman baba-106 il, fransız akademik Genno-104 il, qazax şairi Cambul-100 il və başqaları aiddirlər. Maraqlıdır ki, lerikli Şirəli babanın atası 120 il, anası isə 110 il ömür sürmüşlər (Bax: “Maraqlı faktlar”, Bakı-1970, s. 18).

“Həyatın sirrini bilsəydi ürək,

Bilərdi ölümün sirri nə demək.

Bu gün sağlığında bir şey bilməyən,

Ölüb getsə sabah nə dərk edəcək?“

(Ömər Xəyyam)

Lakin insan həyatı boyunca düzgün qidalanmaya və gigiyenik tibbi qaydalara əməl etmədikdə, özünü "məhv etmiş" olur. İnsanın uzun ömürlü olmasına valideynlərin saglamlıgı, gen faktoru, ana bətnində normal inkişaf (sağlam mühit, sağlam qidalanma), şən və xoşbəxt uşaqlıq illəri, bədən tərbiyəsi və idman, oruc tutub namaz qılmaq və bu kimi müsbət xarakterli amillər təsir edir.

"Olsan bu dünyada siqar düşgünü,

Qocalar ömrünün bəxtiyar günü.

Düşün neyləyirsən, kimsən, nəçisən,

Hara gedəcəksən ömrün son günü."

Çox vaxt insanı ailədə və ya digər mikromühitdə mövcud pis ənənələr, bir sıra vərdişlər, məsələn, spirtli icgilər, xroniki siqaret və ya qəlyan çəkmək, narkotik maddələrdən uzun zaman istifadə və s. organizmi haldan salır, onun xəstəliklər nişangahına çevrilməsində mühüm rol oynayırlar. Elə buna görə də Allah-təala uzunömürlü olması üçün insana gənc yaşlarından namazla orucu (pəhrizi) vacib hesab etmişdir.

Amma unutmamaq lazımdır ki, İnsanın ölümü onun taleyidir. Biz sağlam yaşamağa meyl etməliyik, ölüm sadəcə Allahın iradəsi ilədir.

> *"Sizə qulaq, göz və ürək verən Odur, siz çox az şükür edirsiniz".*
>
> QURAN, "MUMİNİN" SURƏSİ, AYƏ78

İnsan sutkada 28-33 min litr hava, 500-700 litr oksigen və 2 kq-a qədər də qida qəbul etməlidir. İnsanın uzun müddət (mütamadi) ət məhsullarından, xüsusilə heyvani yaglardan istifadə etməsi onda bəzi fizioloji proseslərin pozulmasına gətirib çıxarır. Alimlər isbat etmişlər ki, əsasən ət məhsullarından insana keçən hüceyrələrin genetik kodları insan organizmindən öz təsirini göstərir və zamanla insan gen kodlarına özünü mutasiya edir. Əgər bu keçiş çoxalarsa onda insanın genetik xasiyyətində o genə uyğun xüsusiyyətlər ortaya çıxır. Buna görə də, heyvani

məhsullardan çox istifadə etməməyi tövsiyyə edirlər. Misal üçün, əgər heyvanda hansısa xəstəlik yəni virus mövcuddursa o yeyinti yolu ilə insana keçir, tez müddətdə fəaliyyətə başlamasa belə bir müddət sonra hətta qan yolu (genetik kod) ilə uşaqlara da keçir. Sağlam yaşamaq və xəstəliklərdən uzaqlaşmaq üçün heyvani məhsullardan (ət və süt məhsulları) deyil meyvə-tərəvəzlərdən daha çox istifadə etmək lazımdır.

Düzgün qidalanma pozulduqda və yaxud olmadıqda, dişlər erkən tökülür, tük ağarır, görmə zəifləyir, yaddaş pozulur. İnsanda ümüdsizlik, inamsızlıq yaranır. O, tək olmaq istəyir, üzündəki təbəssüm itir və dərisindəki qırışlar dərinləşir. Gündəlik qidasında göyərti və bitki yağlarından istifadə etmədikdə vaxtından əvvəl qocalır.

Təbii arı balında sinir sisteminin fəaliyyətini tənzimləyən B1, B2, B3, B5, B6 və həyati vacib C vitaminləri vardır. Bal orqanizmdə asanlıqla həzm edilərək, sürətlə qana keçir. Bal enerji mənbəi kimi də orqanizmdə qan yaratmaya kömək edir. O, insandakı zərərli maddələri məhv edərək, güclü antioksidant rolunu oynayır.

Baldan ən qədim zamanlardan Azərbaycan xalq təbabətində geniş istifadə olunur. Onu ən müxtəlif yaraların müalicəsində istifadə etdikdə yaxşı nəticələr alınır.

Quranda bal arıları haqqında deyilir:

> *“Rəbbin bal arısına belə vəhy etdi: “Dağlarda, ağaclarda və onların qurduğu çardaqlarda özünə evlər tik. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə asanlaşdırdığı yollarla get!*
> *Onların qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət vardır!”*
>
> QURAN, “NƏHL“ SURƏSİ, AYƏ 67-69

> *Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər; Taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da sanki işıq saçır. O, nur üstündə nurdur. Allahın dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!".*
>
> QURAN, "NUR" SURƏSİ, AYƏ 35

Ölüm dünya nemətləri ilə insan

arasında mütləq bir ayrılıq deməkdir.

(Harun Yəhya)

FƏSİL 2

Müvəqqəti və əbədi dünya



İnsan həyatda daimi qalmır. Onun əməlləri dünyanın yaddaş dəftərində qiyamətədək qalacaqdır.

İnsanın əsas həyatı axirətdən sonra başlayacaq. O biri dünya daimi ölməzlik aləmidir. Ölməzlik-əbədiyyat dünyası iki dünyadan Cənnətlə-Cəhənnəmdən ibarətdir.

İnsan ölərkən Allah (c.c.)-ın ona bəxş etdiyi Ruh bədəndən çıxır. Ruh bədəndə olanda insan canlı, gözəl, təravətli və təmiz görünür. Ruhu tərk edilmiş insan murdar sayılır.

> *"Bəlkə, zay etdiyim ömrün müqabilində yaxşı bir iş görüm! Xeyr, bu onun dediyi boş bir sözdür. Onların önündə dirilib duracaqları günə (qiyamət gününə) qədər maneə (bərzəx-qəbir həyatı) vardır".*
>
> QURAN, "MUMİNİN" SURƏSİ, AYƏ 100

"Ölüm-yaxşılıq etmiş adamı dünyanın əzabından xilas edir və onun Ruhunu Bərzəxə aparır.

Pis iş görən adamı isə, pis əməllərindən xilas edir. Ona görə də ölümdən qorxmaq lazım deyil." (Abbasquluağa Bakıxanov)

İnsan öləndən sonra qəbirdə çürüyüb torpağa dönür. Ruh isə qiyamət gününədək diri qalır. Möminlərin ruhları Bərzəxdə diri halda olsalar da, həftənin cümə axşamı ilə

bayram günlərində Dünyaya gələrlər. Möminlərin ruhları sərbəst olduğu halda, kafirlərin ruhları qiyamətədək əzab içində qalarlar.

> *"...Allahın nemət verdiyi nəbilər, siddiqlər, şəhidlər və saleh (möminlərin Ruhları) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşdırlar!"*
>
> QURAN, "NİSƏ" SURƏSİ, AYƏ 69

Ölənlərin ruhları bu dünya ilə əlaqə saxlaya bilərmi?

Ruhlar, məzarına gələn ziyarətçiləri görürmü?

Ruhların Bərzəx həyatı necədir?

Belə suallara cavab tapmaq çətin olsa da, bəzi məqamları yada salaq.

Ölən insanın cəsədi torpaqda çürüsə də Ruh daimi qalır və qiyamətədək "ruhlar aləmi"-Bərzəxdə məskunlaşır.

Bütün qeybləri bilən yalnız Allah (c.c.)-dır! Ona salam olsun! Amin!

Bərzəxdəki ruhların bəziləri özlərini şad və fərəhli, digərləri də əzab və qorxu içərisində hiss edərlər. Bütün bunları müqəddəs Quran kitabı ilə Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərin hədislərindən anlamaq mümkündür.

"Mömin insanların ruhları Bərzəxdə sərbəst olaraq, bu dünyadakı mənəvi dualarının savabını qazanır. Kafir insanların ruhları isə əzab içərisində saxlanaraq mənəvi dualardan məhrumdurlar."

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərin Ruhu, Allah (c.c.) yanında "Rəfikül-Əla" adlı ən uca mərtəbədədir.

> *"Allah yolunda ölmüş şəhidləri diri olmaqla, onlara cənnət ruziləri verilərək bir-birlərini müjdələyib söhbət edirlər."*
>
> QURAN, "ALİ-İMRAN" SURƏSİ, AYƏ 169-170

Ruhlar qohum-əqrabalarının dünyadakı işlərindən xəbər tutub, xeyir işlərinə sevinər və pis işlərinə isə kədərlənər.

Ruhlar Bərzəxdə bir-birləri ilə söhbət edərlər.

Ruhların dünyadakı diri qalmışları ilə münasibətləri ola bilərmi ?

Ruhların bəziləri dirilərin yuxularında digərləri isə təqvalı möminlərin oyaq vaxtlarında Şüuruna qatıla bilər.

> *"Dəlillərimizdən bəzisini ona (Peyğəmbərə) göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidül-Haramdan ətrafına xeyir-bərəkət verdiyimiz Məscidül-Əqsaya aparan Allah pak və müqəddəsdir. Həqiqətən O, eşidəndir, görəndir."*
>
> QURAN, "İSRA" SURƏSİ, AYƏ 1

İslam tarixində İsra və Merac hadisəsi, hicrətdən bir il əvvəl Rəcəb ayının 27-si gecəsi baş vermişdir. Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər Kəbədə əmisi Əbi Talibin evində yatarkən mələk Cəbrail gəlib onun sinəsin yarır, ürəyini Zəmzəm suyu ilə yuyub içinə imanla hikmət doldurur.

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər Allah (c.c.)-ın əmri ilə İsra və Merac (gecə gəzintisi və göyə çıxmaq) səfərində olanda, Qüdsdəki Əqsa məscidində imam olub və digər peyğəmbərlərlə birlikdə İki rükət namaz qıldıqdan sonra həyətə çıxır. Mələk Cəbrail ona içərisində süd və şərab olan camları verdikdə peyğəmbər, süd camını alıb içir. Cəbrail gülümsəyərək, "Fitrətə uyğun olanı seçdin" deyir. Bundan sonra onlar Burak miniyi ilə göyün qatlarına qalxırlar.

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər göyün birinci qatında Adəm (ə.s.) ilə, ikinci qatında Məryəm oğlu İsa (ə.s.) və Zəkəriyyə oğlu Yəhya (ə.s.) ilə, üçüncü qatında Yusif (ə.s.) ilə, dördüncü qatında İdris (ə.s.) ilə, görüşüb söhbət edir.

> *"Biz onu (İdrisi) uca bir yerə (dördüncü göyə) yüksəltdik."*
>
> QURAN, "MƏRYƏM" SURƏSİ, AYƏ 57

Daha sonra peyğəmbər mələk Cəbrailin müşayəti ilə göyün beşinci qatında Harun (ə.s.) ilə, altıncı qatında Musa (ə.s.) ilə və nəhayət, yeddinci qatında İbrahim (ə.s.) ilə görüşərək söhbətləşmişlər.

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər mələk Cəbraillə bərabər Sidrətül-Müntəhada (Cənnətdə) gəlib dayandılar. Peyğəmbər buradan da, Rəfrəf adlı başqa bir miniklə Allah (c.c.)-ın hüzuruna qalxdı. O, Rəfrəflə gedəndə Cənnət və nemətlərini, habelə Cəhənnəmi və onun əzablarını da görür. Allahın nuru ilə görüşəndə Uca Allah ona belə demişdir ;-"Ey Məhəmməd! Bu (fərz qılınan) hər gün və gecədə beş (vaxt) namazdır. Hər namaz üçün beş əcr veriləcək. Bu da əlli namaz edər. Kim bir yaxşılıq etməyi düşünərsə edə bilməsə onun üçün bir yaxşılıq yazaram. Əgər etsə onun üçün on (yaxşılıq) yazaram..."

Merac gecəsində peyğəmbərə üç şey hədiyyə edilir ki, onlar; beş vaxt namaz, "La ilahə illəllah!" duası və "Bəqərə" surəsinin 278-281-ci ayələridir.

Bütün bunları yalnız Allah (c.c.) bilir. Ona salam olsun! Amin!

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər müsəlmanlara qəbirləri ziyarət zamanı, ölənlərin ruhlarına xüsusi salam verilməsini tövsiyyə etmişdi.

İnsanlarla ruhların yuxuda görüşüb danışması, Allah (c.c.)-ın lütfü və möcüzələrindəndir.

Adətən yuxuda ruhlarla danışarkən, onlardan bir şey alıb vermək və sorqulara cavablar, sonradan həyatdakı həqiqətləri bildirir.

> *"Ey iman gətirənlər! Səbr edin, dözün, hazır olun və Allahdan qorxun ki bəlkə nicat tapasınız ! (Quran, "Ali-İmran" surəsi, ayə 200).*
> *"Həqiqətən, göylərdə və yerdə möminlər üçün ibrətlər vardır."*
>
> QURAN, "CASİYƏ" SURƏSİ, AYƏ 3

Ruh daimi və əbədidir. O, Allah (c.c.)-ın ixtiyarındadır. Qiyamətdə ruhlar Allah (c.c.) tərəfindən yenidən ölülərə veriləcək.

Həyatda müxtəlif ölümlər baş verir. Bütün bunlar insan taleyi kimi Allah dərgahındakı Lövhi-məhfuzda yazılmışdır.

Uşaq doğularkən sağ qulağına Əzan, sol qulağına isə İqamə duaları oxuyub Allah (c.c.)-dan talehin xoşbəxtliyini arzulayarlar.

Rəşid çağına çatmamış vəfat edən uşaqlar hansı dində olursa olsun Şəhid kimi cənnətə daxil olarlar.

Bütün bunların doğrusunu Allah bilir. Ona salam olsun! Amin!

Oğlanlar on iki, qızlar isə doqquz yaşlarından sonra (rəşid çağı) Allah (c.c.)-ı dərk etməli və Onun qanunlarına (İslam təlimlərinə) əməl etməlidir. Hər iki yaşdan sonra insan əcəli ilə öldükdə Ruh candan çıxır və qiyamət gününədək Bərzəxdə qalır. Axirətdə isə torpağa çevrilmiş cəsədlərə yenidən Ruh verilməklə ölülər diriləcək. Quranda insanların ölümündən dirilmənin Allah (c.c.) üçün çox asan olması bildirilir və bu zaman insanların xüsusilə barmaqlarının uclarına diqqət edilir. (bax: H.Yəhya "Quran möcüzələri", Ankara-1999, s. 130)

> *"Bəli, biz onun barmaq uclarını da (yenidən) düzəltməyə qadirik."*
>
> QURAN, "QİYAMƏT" SURƏSİ, AYƏ 4

Məlumat üçün bildirək ki, dünyadakı bütün insanlarda olduğu kimi əkiz doğulmuş uşaqlarda da barmaq izləri müxtəlif olur.

Ana bətnində olan uşağa (dölün 120-ci günündə) Allah-təala tərəfindən Ruh, Taleh və bir mələk verilir. Həmin mələk uşağı ana bətnində və doğulandan (ağlı kəsəndən) sonra əməllərini "dəftərinə" yazar. Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər demiş ki ;- "Allah ana bətninə bir mələk vəzifələndirər..." Buna görə də lazımdır ki, yenicə evlənənlər izdivaclarında bu duanı desinlər:-"Allahım məni şeytandan, şeytanı da məndən uzaqlaşdır." (bax, Buxari, "Bədül-Halq" s. 11, Tirmizi, "Nigah" s. 6) Bundan başqa təqvalı möminlərə isə 360-a qədər də qoryucu mələklər təyin olur ki, onlar möminləri müxtəlif bəlalardan (nəzərdən, bədduadan, şərrdən, cadudan və s.) qoruyurlar. (Səyyit ət-Dürrül Mənsur, 4/615)

> *(Təqvalı möminlər üçün) onu öndən və arxadan izləyənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyarlar...”*
>
> QURAN, “RƏD“ SURƏSİ, AYƏ 11

Dünya həyatında hər bir insan üçün bir neçə nəzarətçi mələklər də var ki, onlar bəndənin doğulandan ölənədək həyatını “görüntü yaddaşında” qeydə alırlar.

> *“Elə bir kimsə yoxdur ki, onun üstündə bir gözətçi (mələk) olmasın !”*
>
> QURAN, “TARİQ“ SURƏSİ, AYƏ 4

Dirilən adamların dünyadakı əməl dəftəri mələklər tərəfindən özlərinə veriləcək. Allah (c.c.)-ın hökmü ilə mizan-tərəzi qurulacaq. Sorğu-sualdan çıxmış yaxşı əməl sahibləri Sirat (Əqəbə) körpüsündən keçəndə Allah (c.c.)-ın vəd etdiyi Cənnətlərə daxil olacaqlar.

“Biz ona iki yol göstərmədikmi ?!

Lakin o, Əqəbəni keçə bilmədi.

> *(Ya Peyğəmbər!) Sən nə bilirsən ki, Əqəbə nədir ?!”*
>
> QURAN, “BƏLƏD“ SURƏSİ, AYƏ 10-12

Cənnət mələyi Rizvan möminləri salamlayıb onlara yaşıl rəngli ipək paltarlar geydiriləcək. Kövsər suyu ilə Tubu ağacını onların ixtiyarına qoyacaq.

Dünyada yaxşı əməl qazanmayanlar isə Əqəbə yolundan keçəndə Ğaşiyə adlı mələk vasitəsilə Cəhənnəmə sürüklənəcək.

> *Yeddi qatı olan Cəhənnəm aləminin mələyi Malik, günahkarlara deyəcək: "Ə cəzanızdır, Hütəmədə, Haviyədə və başqa mərtəbələrdə məskunlaşın, Zəqqum meyvələrindən yeyərək irinli sudan için."*
>
> QURAN, "HÜMƏZƏ" SURƏSİ AYƏ 4

İslam dini insanın düşüncə və darvanışlarını yönəldən bir nizam-intizamdır. İnsan Ruh və cisimdən ibarət bir varlıqdır. Cismani ehtiyaclar ilə maraqlanmayan insan sağlamlığını itirər.Ruhi ehtiyaclarına məhəl qoymayanlar isə özlərini itirər.

Ruh ölməz, ölüm isə məqbuldur. Buna görə də kamil İnsan Allah (c.c.)-a (Yaradana) və əbədi həyata (ölüb-dirilməyə) inanmalıdır. Bizə bunları öyrədən Allah (c.c.)-ın qanunları olan İslam dinidir.

"Yəmən sultanının baxdım qəbrinə,

Bir kəfən çıxarıb o, verdi mənə.

Dedi ki, gülmə sən səxavətimə,

Dünyadan köçərkən, bu çatıb mənə."

(Şeyx Nizami Gəncəvi)

İmansız adam ölməkdən qorxduğu halda, təqvalı möminlər isə ölümü sadəcə yerdəyişmə kimi, normal bir hadisə olduğunu qəbul edirlər. (bax: İ.Abbasov "Dini-elmi-əxlaqi söhbətlər, "Naxçıvan-2008, s. 14).

> *"(Qiyaməti inkar edənlər) belə deyərlər; "Dünya həyatımızdan başqa heç bir həyat yoxdur, ölürük və dirilirik, bizi öldürən ancaq dəhrdir (zamanın gərdişidir). Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!"*
>
> QURAN, "CASİYƏ" SURƏSİ, AYƏ 24

> *Həqiqətən ölüləri dirildən, onların nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb, açıq-aydın Kitabda (Lövhi-məhvuzda) təsbit etmişik."*
>
> QURAN, "YASİN" SURƏSİ, AYƏ 12

> *"...Özüm həqiqətən, gələcəkdir. (Ey insan!) Bu sənin qorxub qaçdığın şeydir."*
>
> QURAN, "QAF" SURƏSİ, AYƏ 19

> *"Səndən əvvəl də heç bir bəşərə əbədiyyət vermədik..."*
>
> QURAN, "ƏNBİYA" SURƏSİ, AYƏ 34

> *"O gün Cənnət əhlinin qalacağı yer daha yaxşı, istirahət edəcəyi yer daha gözəl olacaqdır!"*
>
> QURAN, "FURQAN" SURƏSİ, AYƏ 24

Dünyaya hikmət gözü ilə baxanlar

Yaradanın möcüzələrini görə bilərlər.

(Harun Yəhya)

FƏSİL 7

İlahi möcüzə



Materialist təbətşünaslar kainatın və canlı aləmin təkamül nəticəsində yaranmasını göstərmiş və Allah (c.c.)-ın möcüzəvi varlığını inkar etmişlər. Maraqlıdır ki, onlar ölüm qabağı (can verərkən) müqəddəs kitablardan dua oxunması ilə Allah (c.c.)-dan günahlarının bağışlanmasını istəmişlər.

Materialist təbiətşünaslardan Darvin, Linney, Lamark, Laplas, Cins, Şmidit, Vavilov, Lıssenko, Pavlov, Lomonosov və başqaları ölüm qabağı tövbə etmış və Allah (c.c.)-a inanmışlar.

Quranda bildirildiyi kimi, qədim Misir hökmdarı (Firon Ramses) Hz.Musa (ə.s.) peyğəmbərin arxasınca düşüb onları tutmaq istərkən, Nilin sularında boğulanda Allaha iman gətirmiş.

“İsrail oğullarını dənizdən keçirdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər (Firon) batacağı anda; “İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam!” dedi.”

> *“İndimi? Halbuki əvvəlcə (Allaha) qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun!”*
>
> QURAN, “YUNİS“ SURƏSİ, AYƏ 90-91

Yer üzündə (Dünyada) Allah-təalanın möcüzələri olmuş və indi də olur. Onlardan biri də qədim dövrlərdəki “Nuhun tufanı” hadisəsidir.

Coğrafiyaçı alim R.H. Sultanovun elmi araşdırmalarından biri də, Nuhun tufanı haqqındadır (bax; R.H.Sultanov "Nuhun tufanı haqqında həqiqət", Bakı-1971).

Müəllif kitabında dəniz və okeanlardakı "Sunami" tipli nəhəng su dalğalarının hərəkəti nəticəsində qurunun bir hissəsinin su altında qalmasını göstərmişdir.

Həmin möcüzəvi hadisəni, müqəddəs Quran kitabı da təsdiqləyir.

Hadisə Ərəbistan yarımadasının cənub-şərqində Mesopotamiya çökəyində (Dəclə ilə Fərat çayları mənsəbində) baş vermişdir.

Müqəddəs kitabların yazdığına görə hadisənin baş verməsi Hz.Nuh (ə.s.) peyğəmbərin dövründəki azğın insanların pis işlərlə məşğul olmaları səbəbindən idi.

Həmin vaxt peyğəmbərə vəhy (İlahi söz) gəlir ki, "Ya Nuh, quruda böyük gəmi düzəlt. Möminləri özünlə bərabər gəmiyə götür ki, böyük tufandan qurtulasınız."

Tezliklə peyğəmbər cinlərin köməyi ilə nəhəng gəmi-qayıq düzəldir. Sükansız və yelkənsiz gəmiyə peyğəmbərin ailəsi ilə bərabər, Allah (c.c.) tərəfindən göndərilmiş heyvan, həşərat və quşlar cüt-cüt minirlər.

Allah (c.c.)-ın qüdrəti ilə göy üzü qaralır, yerdəki çuxurlardan su qaynayır, 150 gün leysan yağmuru nəticəsində gəmi su üzərinə qalxır.

> *"Onlar öz günahlarından dolayı suda boğulub Cəhənnəmə daxil edildilər və özlərinə Allahdan qurtaracaq köməkçilər də tapa bilmədilər".*
>
> QURAN, "NUH" SURƏSİ, AYƏ 25

Əvvəlcədən ərzaq, şirin su, ot-əlaf, quş yemi və başqa lazımlı şeylər yığıldığından gəmi-qayıq, şimal-şərq istiqamətində altı ay yarım suda üzür.

Bir müddətdən sonra "səyahətə çıxanlar" gəmidə darıxaraq narahat olurlar. Peyğəmbər Allah (c.c.)-a dua edərək havaya ağ göyərçin uçurur.

Tezliklə göyərçin dimdiyindəki yaşıl yarpaqla qayıdaraq gəmidəkilərə müjdə gətirir...

Allahın qüdrəti ilə nəhayətsiz sularda üzən gəmi Məhərrəm ayının onunda (Aşura günü) Cudi dağında oturur.

> *‘Ey yer! Suyunu ud! Ey göy! Saxla!–deyildi su çəkildi. İş bitdi. Gəmi Cudi dağı üzərində oturdu və :”Zalimlər məhv olsun !”-deyildi”*
>
> QURAN, “HUD“ SURƏSİ, AYƏ 44

Bundan sonra Hz.Nuh (ə.s.) peyğəmbərlə gəmidəkilər torpağa düşüb Allahın möcüzəsinə şükr etdilər.

Bəzi tədqiqatçılar Quranda adı çəkilən Cudi (yüksək yer) məkanını Ağrı dağının zirvəsi kimi qəbul edirlər. Bəziləri isə indiki Suriya ilə Türkiyə arasındakı kiçik Cudi dağına iddia edirlər.

Lakin bütün bunların doğrusunu Allah (c.c.) bilir! Ona salam olsun! Amin!

Qədim Mesopotamiya (Babilan) yazılı mənbələrində (Britaniya muzeyindəki saxlanılan “Qılqamış dastanı”nda və s.) yazılır ki, Vospurkan adlanan qədim Nəx(çi) diyarı, Hz.Nuh (ə.s.) peyğəmbərin gəmisinin dayandığı yerdir. (bax; F.Bağırov “Tarixin yaddaşı” Naxçıvan-2009, s. 2)

Son illər Naxçıvandakı Nuh (ə.s.) peyğəmbərlə bağlı coğrafi ərazi adları və xüsusilə Ordubad rayonundakı Gəmiqaya yaylasındakı yazılı daşlar (petroqliflər) alimlər tərəfindən kompleks şəkildə öyrənilmiş və məlum olmuşdur ki, indiki Naxçıvan torpaq əraziləri, müqəddəs yer kimi ibtidai insanların mədəni yaşayış məskənləri olub.

Naxçıvan adının çəkildiyi ən gədim yazılı qaynaq, Ptolomeyin (e.ə.II yüz il) əsərləridir. Qədim Yunan tarixçisi, Naxçıvanın adını “Naxsuana”kimi yazmışdır.

Orta əsr ərəb yazılı qaynaqlarda isə, şəhər “Nəşava” adı ilə göstərilir. Həmin dövrlərdə yaşamış Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Evliya Çələbi və başqa səyyah və tarixçilər isə şəhərin adını “Nəqşicahan” (Dünyanın bəzəyi) kimi yazmışlar.

Maraqlıdır ki, Naxçıvan şəhərinin adının yaranmasını “Nəxçir” sözü ilə əlaqələndirirlər ki, guya bu şəhərin təməlini Sasani şahı Bəhram Çubin (Nəxçir-“Ovçu Bəhram”) qoymuş və ləqəbini də ona vermişdir. Türk səyyahı Övliya Çələbinin fikrincə, Naxçıvan şəhərinin yaranması Firdovsinin “Şahnaməsi”ndə İrana qarşı

qoyduğu Turanın məşhur hökmdarı Əfrasiyab şahla əlaqəlidir. Bəzi tədqiqatçıların ehtimalına görə, Naxçıvan toponimi, ərazidə yaşamış qədim "Nəx" türk tayfalarının adından yaranmışdır. Məşhur tarixçi Moisey Xorenski isə şəhərin adını eramızdan əvvəl Kiçik Qafqazda yaşamış qədim türkdilli "Naxçamas" qəbiləsinin adı ilə bağlayır.

Ümumiyyətlə, şəhərin adının yaranması haqqında mülahizələr çoxdur. Tarixçi Yampolskinin fikrincə, "Nax"(çı)-sözü qədim türkdilli qəbilə adı, sonda gələn "van"-sözü isə, Midiya dilində, yer və ya məkan deməkdir. Naxcıvan, yəni, türkdilli "Nax- və ya naxçıların məkanı".

Bizim eranın I yüzilliyinin ortalarında Bizans imperatoru II İrakli Naxçıvan şəhərini dağıtmışdır. Daha sonra Mərkəzi Asiyadan gələn Monqol işğalçıları (Çingiz xan), Orta Asiyadan gələn Əmir Teymurun basqınçı qoşunları və başqaları tərəfindən dəfələrlə qarət olunmuşdur. Bütün bunlara baxmayaraq, qədim Naxçıvan, bölgədə yaranmış dövlət qurumlarının-Sacilər, Salairlər, eləcə də Eldənizlər sülaləsinin idarə etdiyi Azərbaycan Atabəylər Dövlətinin əsas şəhərlərindən biri olmuşdur.

XII yüzillikdə Naxçıvanda 200 min əhali yaşamış, ticarət inkişaf etmiş, şəhərdə dulusçuluq, zərgərlik, dülgərlik, memarlıq və başqa sahələr üzrə çoxsaylı sənətkarlar yaranmışdır. Həmin dövrlərdə məşhur memar Əcəmi Əbubəkir oğlunun yüksək sənətkarlığı ilə tikilmiş əzəmətli memarlıq abidələri dövrümüzədək qalmışdır. Yazılı qaynaqlara görə, Naxçıvan şəhərində 20 mın ev, 70 məscid və mədrəsə, 20 karvansara, 7 hamam, onlarla dəyirmanlar, buzxanalar, ticarət meydanları və sairə olmuşdur.

Naxcıvanda mədəniyyətin inkişafından söz açan Fransız səyyahları Pyer Şarden, Dübua de Monper, İngilis səyyahı Porter və başqaları Naxçıvanın qədim memarlıq abidələrindən biri olan "Mömünə Xatun" türbəsini, dünya mədəniyyətinin nadir memarlıq incilərindən hesab etmişlər. Böyük Türk səyyahı Evliya Cələbi, Naxçıvandakı hamamların su hovuzlarına hər gün səbətlərlə qızıl gül ləçəklərinin tökülməsini öz gözləri ilə görmüş şahid kimi qələmə alır...

Naxçıvan dıyarındakı Duzdağ mədənlərində okean heyvanlarının daşlaşmış qalıqları, bir daha göstərir ki, Yer üzərindəki böyük quru sahələr, əvvəllər su altında qalmışdır.

Dünyadakı hər bir şey hərəkətdədir. Yer kürəsindəki nəhəng quru sahələri hərəkət edərək parçalanıb materiklərə ayrılmışdır.

Bitki və heyvanlarla zəngin olan Hindistan yarımadası, Afrikadan qoparaq Asiyadakı Himalay dağlarına birləşmişdir. Bütün bunlar isə Allahın qüdrət əlamətləridir! Ona salam olsun! Amin!

Dinsizliyi təbliğ edən, allahsız cəmiyyət qurduğunu elan etsə də, bir neçə qaraguruhçunu Allah səviyyəsinə qaldırmağa səy göstərən Sovet qırmızı imperiyasının süqutundan (bu möcüzə də Allahın öz iradəsi sayəsində baş verdi - heç bir qüvvənin yıxa bilmədiyi bir sistem "öz-özünə" çökdü) sonra, bütün keçmiş Sovet respublikalarında olduğu kimi, Azərbaycan Respublikası da müstəqillik qazanandan sonra, vətəndaşların tarixi-mənəvi ziyarətgahlara marağı artmış və Allahın möcüzələrinə inam yaranmışdır.

Son illərdə Naxcıvan MR Ali Məclisi sədrinin sərəncamı ilə, Ordubad rayonundakı Gəmiqaya tarixi abidələri qoruq kimi mühafizə edilir.

Naxçıvanlı realist rəssam B.Kəngərlinin "Nuhun qəbri" adlı tarixi rəsm əsəri bir daha sübut edir ki, ərazidə Hz.Nuh (ə.s.)-ın məzarı olmuşdur. (bax; F.Bağırov" Nuh yurduna ziyarət," Bakı-2008).

Hazırda Naxçıvan şəhər qəbiristanlığı ərazisində keçən əsrin ortalarında vəhşiliklə sökülmüş "Nuhun qəbri" memarlıq abidəsi bərpa edilmişdir.

Naxçıvan ərazilərində Hz.Nuh (ə.s.) peyğəmbər və onun gəldiyi gəmi ilə əlaqəli coğrafi yer adları hələ də mövcuddur. Bu yerin nəsilləri peyğəmbərlə bağlı müxtəlif rəvayətlər də yaratmışlar. Onlardan biri Culfa rayonundakı Kırna kəndində, okean səviyyəsindən 2000 m. yüksəklikdə yerləşən "Gendərə" adlı yerdir.

Orada möhkəm vulkan mənşəli süxurlar üzərində 123 sayda "ayag izləri" vardır. Həmin yerə adamlar inam gətirərək "Nuh dabanı" adını vermişlər. (bax; Q,Qədirzadə "Nuh peyğəmbər, Nuh tufanı və Naxçıvan", Naxçıvan-2009)

"Nuh dabanı" ilə qarşı-qarşıya, üç böyük qaya parçası da vardır ki, ora "Üç qardaş" piri deyilir. (bax; "Şərq qapısı" qəzeti, 14 yanvar 2009-cu il).

Ora inam gətirən adamlar üç dəfə daşların ətrafına fırlanmaqla piri ziyarət edib oradakı çalı koluna öz niyyət iplərini bağlayırlar.

950 il ömür sürmüş Hz.Nuh (ə.s.) peyğəmbər, həyat yoldaşı (zövcəsi) Əmirə (Nama) və oğlu Yafəs məhz "Nuh yurdu" ərazilərində məskunlaşmışlar.

Peyğəmbərin digər oğlanları Xam və Sam isə şərqlə qərb istigamətindəki ərazilərə getmişlər.

Bütün bu mülahizələrin doğrusunu yalnız Allah (c.c.) bilir! Ona salam olsun! Amin!

> *"Həqiqətən, Biz Nuhu "Qövmünə şiddətli bir əzab gəlməsindən əvvəl onları qorxut!"- deyə öz tayfasına peyğəmbər göndərdik"*
>
> QURAN, "NUH" SURƏSİ, AYƏ 1

Allah insanı dünya həyatında

varlı və kasıbçılıqla sınayar.

(Harun Yəhya)

FƏSİL 3

Dünya həyatı



Allah (c.c.) Dünya həyatını, insanlardan hansılarının daha gözəl davranışlarında olacağını, kimlərin sədaqət göstərib, özünə bağlı qalacağını sınamaq üçün yaratmışdır. Başqa sözlə, dünya, Allah (c.c.)-dan qorxub çəkinənlərlə Ona nankorluq edənləri ayırmaq üçün hazırlanmış bir imtahan yeridir. Bu imtahanda gözəlliklə çirkinlik, yaxşılıqla yamanlıq, cahilliklə aqillik bir araya gətirilmiş və imtahan forması yaradılmlşdır.

İnsanlar, imanlarının ortaya çıxması üçün müxtəlif şəkillərdə sınanırlar. Bunun da nəticəsində Allah (c.c.)-ı haqqıyla tanıyıb, təqdir olunan inkarçılardan ayrılaraq qurtuluşa çatacaqlar.

“Əlif, Lam, Mim!

> *İnsanlar (möminlər) yalnız: “İman gətirdik!”-demələrinə onlardan əl çəkib imtahan olunmayacaqlarını sanırlar? (Xeyir, iman gətirmək şəhadəti dildə demək deyil. Biz onları malları, övladları və canları ilə sınayacağıq ki, yalançı və həqiqi mömin olduqları bilinsin). Biz onlardan əvvəlkiləri (keçmiş ümmətləri) də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da, yalançıları da çox gözəl tanıyar!”*
>
> QURAN, “ƏNKƏBUT“ SURƏSİ, AYƏ 1-3

Bu imtahanın sirrini anlaya bilmək üçün, əvvəlcə bütün kainata hakim olan Rəbbimizi çox yaxşı tanıya bilmək lazımdır. Rəbbimiz göyləri, yeri və onların

arasındakıları yoxdan var edən, hər bir varlığın Ona möhtac olduğu, heç bir şeyə ehtiyacı olmayan və bütün əksiliklərdən uzaq olan Allah (c.c.)-dır. O, insanı yoxdan var etmiş və çoxlu nemətlər bəxş etmişdir.

Heç bir insan eşitməyi, görməyi, hərəkət etməyi, sinir və əzələ sistemlərini nizamlı işlədə bilməyi, tənəffüs sistemi vasitəsilə sərbəst nəfəs almağı və bunun kimi həyat üçün şərt olan saysız bədən funksiyalarını özbaşına əldə etməmişdir.

Rəbbimiz bütün bu fərqli sistemləri insan hələ idrakdan məhrumkən onun bədənində yerləşdirmişdir.

Allah (c.c.)-ın insandan istədiyi isə, yalnız Rəbbimizin Ucalığını qavrayaraq Onun Özünə - qulluq etməkdir. Lakin insanların bir çoxu Rəbbimizə şükür etməyə, Ona boyun əyməyə, Ona itaət göstərməyə biganəlik edər, Onun qoyduğu sərhədləri gərəyi kimi güdməzlər.

Buna görə də insanların məqsədləri onları, yalnız Dünya həyatını yaşamağa istiqamətləndirər. Onlar ölümü unudar, qiyamətdən sonrakı həyatları üçün hazırlıq görməzlər. Lakin mənəviyyatın ən vacib məsələsi, imkanlar böyüdükcə, əlverişli şərait yarandıqca, var-dövlət bol olduqca özlərinə yaxşı həyat qurmaq, dünyadakı hər anı dəqiq anlamaq, onları Dünya həyatı mənfəətləri istiqamətində ən yaxşı şəkildə qiymətləndirməkdir.

Bu cür insanların Dünya həyatına olan bağlılıqlarını Allah (c.c.) Quran kitabında göstərmişdir;-

> *"Həqiqətən, Bunlar (müşriklər) tez keçib gedəni (dünya həyatını) sevər, ağır günə (qiyamətə) arxa çevirərlər."*
>
> QURAN, "İNSAN" SURƏSİ, AYƏ 27

Allah-təalanı unutmuş olan inkarçılar həyatları boyu bu istiqamətdə bir səy içindədirlər. Amma ayədən göründüyü kimi, dünyanın əhəmiyyətli bir sirri vardır: Dünya həyatı keçəridir.

Bu dünyaya bağlananların unutduqları, düşünməyə yanaşmadıqları, xatırlananda ondan qaçdıqları ayrı bir mövzudur. Onlar nə qədər qaçmağa çalışsalar da, heç də

dəyişməyən bir gerçəklə yaxalanacaqlar. İnsanların sonsuz (əbədi) həyatlarını yaşayacaqları yer isə axirətdir.

Dünya həyatı keçicidir. İnsan dünyaya keçici bir müddət üçün gəlmişdir. Burada həm imtahandan keçiriləcək həm də öyrədiləcək. Daha sonra isə axirətdə əbədi yurduna keçəcək.

> *"Ey qövmüm! Bu dünya həyatı keçici bir şeydir (fanidir), axirət isə əbədi yurddur!" (Quran, "Mömin" surəsi, ayə39) "Kim (dünyada) azğınlıq etmişsə, Dünyanı (axirətdən) üstün tutmuşsa, şübhəsiz ki, onun məskəni Cəhənnəmdir!"*
>
> QURAN, "NAZİAT" SURƏSİ, AYƏ 37-39

Bəşərin sonuncu peyğəmbəri Hz.Məhəmməd (s.ə.s.) hədislərindən birində demişdir: "Bu dünya - evi olmayanın evi, malı olmayanın malıdır. Dünya malını yalnız cahil insan toplayar."

Daha sonra isə Allahın Rəsulu belə söyləmişdir: "Dünya həyatı ürəyə şirindir ona görə ki, gözə yaşıl görünür. Bilin ki, Allah sizləri dünyadan köçənlərdən sonra yaratmışdır. Dünyanı dünya əhlinə tapşırın, çünki bu dünyadan hədsiz qədər bəhrələnən adamlar, özləri də bilmədən ölümlərinə yaxınlaşırlar."

"Dünyanın sirrini bilən zamandan,

Məğrurluq etmədim mən heç bir zaman.

Kimsənin malına kölgə salmadım,

Mal üçün bir kəsə mən, qul olmadım"

(M. Əhvədi "Cami-cəm")

Bəzi insanlar Dünyanı Allah (c.c.)-ın yaratdığı keçici bir yurd olduğunu inkar edirlər. Daha doğrusu, bu keçici yurdda Allah (c.c.)-ın yaratdığı nemətlərə Rəbbimizdən üz çevirərək ehtiraslara uyub və onlara sahib çıxmaq istərlər.

Dünya həyatının ehtirasları üçün yaşayan insanlar, axirət həyatı ilə qarşılaşdıqda etdikləri işin səhv olduğunu anlayacaqlar. Dünya həyatının yalnız bir gün və ya bir

qədər az olduğunu görəcəklər.

> *"Onlar;-"Bir gün, bir gündən də az, hər halda, sayanlardan (əməlləri yazan mələklərdən) soruş!"-deyə cavab verəcəklər."*
>
> QURAN, "MUMİNİN" SURƏSİ, AYƏ 113

Dünya həyatı nemətlərlə, gözəlliklərlə, zənginliklərlə, rənglərlə bəzənmişdir. İnsanın sahib olduğu qüsursuz bədən, milyonlarla növ bitki və heyvan, nəhəng ulduzların və planetlərin hakim olduğu kainat, bir mükəmməllik və tarazlıqla öz varlıqlarını davam etdirməkdədirlər. Dünyadakı gözəlliklə qüsursuz nemətlər, Allah (c.c.)-ın qüsursuz əsərinin nümunəsidir.

> *"Həqiqətən, (nemətləri ilə fəxr etdiyimiz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib bir-birinə qatışar. Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu) yığmağa qadir olduqlarını zənn etdikləri vaxt, gecə, yaxud gündüz əmrimiz (bəlamız) gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi, (yolunub) bişmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!"*
>
> QURAN, "YUNİS" SURƏSİ, AYƏ 24

Yadda saxlamaq lazımdır ki, dünyada çox yaşamaq o qədər də əhəmiyyətli deyil. Bu cür arzular etməyin özü belə, insanın acizlik əlamətidir. İnsan həyatını təqva (günahlardan uzaq) ilə keçirməsi əhəmiyyətlidir. Cənnətin açarı məhz təqvada gizlidir. Çünki normal həyatımızda ibadət və dualarımızla və ya balaca-böyük yaxşılıqlarla savab qazanırıq. Əsas odur ki, bu qazandıqlarımızı günahlarımızla silməyək. Buna görə də əsas təqvalı olmaq (şeytanın vəsvəsinə uymamaq) əhəmiyyətlidir.

"Sizi zəif bir şeydən (bir qətrə sudan) yaradan, gücsüzlükdən (körpəlikdən) sonra qüvvətli (cavan) edən, qüvvətli olduqdan sonra (yenidən) taqətsiz (və qoca) edən Allahdır. O. İstədiyini yaradır. O, (hər şeyi) biləndir, (hər şeyə) qadirdir!"

İnsanın ahıl yaşlarında fiziki və ruhi baxımdan zəifləməsi, şübhəsiz üzərində düşünüləsi hadisədir. Dünyada var olan hər şey kimi, insan bədəni də pozulur. Çünki Allah (c.c.) Dünya həyatını keçici bir yurd kimi hazırlamışdır. O, insanı axirəti xatırladacaq və ona hazırlıq etməsini təmin edəcək hər cür acizliklə birlikdə yaratmışdır. (bax, Harun Yəhya, "Dünya həyatının gerçəyi", İstanbul-2007)

Ahıl adamlar bir anlığa dayanıb özlərinə sual verməlidirlər: "- Bir daha geri qayıtmayacaq illərdə mən nə etmişəm?". Amma məsəl var deyərlər: -"Sən saydığını say, gör Fələk nə sayır". Həmin insanın ömrünü mənasız keçirməyin səbəbi, Allah (c.c.)-ın canlıları bir məqsədli yaradılmasını qavraya bilməməsindəndir.

> *"(Ya Rəsulum!) Allah tərəfindən qarşısı alınmaz gün (qiyamət günü) gəlməmişdən əvvəl üzünü düzgün dinə (İslama) çevir. O gün insanlar bölük-bölük (iki dəstə) olarlar."*
>
> QURAN, RUM" SURƏSİ, AYƏ 43

Allah (c.c.) insanları (canlıları) Dünya həyatında sınamaqdadır.

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (Quran, "Zariyat" surəsi, ayə 56). Buna görə də İnsan həyatı boyu Qurana uyğun hərəkət etməli və Allah (c.c.)-ı məmun edəcək saleh əməllərlə məşğul olmalıdır.

Bəşər tarixində on dörd əsr bundan əvvəl Hz.Məhəmməd (s.ə.s.) peyğəmbərə Allah (c.c.)-ın "Quran" kitabı göndərilmişdir.

> *"Halbuki bu (Quran) aləmlərə ancaq bir öyüd nəsihətdir!"*
>
> QURAN, "QƏLƏM" SURƏSİ, AYƏ 52

Bizim gördüyümüz kainat (ulduzlar) 15 milyard il əvvəl "Böyük partlayış"la (ing. Big Bang) əmələ gəlmişdir. Bütün bu qəribə işləri Allah etmişdir.

> *"O, göyləri və yeri (yoxdan) var edəndir"*
>
> QURAN, "ƏNAM" SURƏSİ, AYƏ 101

Bu dünya yoxdan yaradılaraq maddə, enerji və zaman müasir metofizikada sübuta çatdırılmışdır.

1929-cu ildə rus alimi Aleksandr Fredman müşahidə apararaq kainatın genişlənməsini bildirmişdir.

Amerika alimi Edvin Hubbol isə teleskopla müşahidə edərək görmüşdür ki, ulduzlar getdikcə bir-birindən uzaqlaşır.

> *"Biz göyü qüdrətimizlə yaratdıq və biz onu genişləndirməkdəyik"*
>
> QURAN, "ZARİYAT" SURƏSİ, AYƏ 47

Kainat "Böyük partlayış"-dan sonra hər vaxt genişlənməkdədir. Belə "sürətli" genişlənmənin sonunda şübhəsiz kainat dağılacaqdır. Bunu əyani şəkildə göstərmək üçün, hava şarının üzərinə "ulduzları" çəkərək onu üfürüb şişirdirik. Nəhayətdə "ulduzlar" bir-birindən uzaqlaşır çünki şar böyüyərək partlayır.

Kainatın (aləmlərin) sonu haqqında Quran kitabında da müfəssəl məlumatlar verilmişdir.

> *"Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq..."*
>
> QURAN, "ƏNBİYA" SURƏSİ, AYƏ 104

XIX əsrdə alimlər enerjisi tükənən ulduzlar və onların əmələ gətirdikləri qıfa bənzər "qara deşik"-ləri kəşf etmişlər.

Həmin deşiklər enerjilərini itirən ulduzlardır ki, büzülərək getdikcə fırlanıb kiçilirlər.

Bu barədə Quranın "Vaqiə" (56) surəsindəki 75 və 76-cı ayələrində, "Tariq" (86) surəsinin 1-3 ayələrində və "Mursələt" (77) surəsinin 8-ci ayəsində də bildirilir.

Kainatdakı ulduzların daxili enerjiləri tükənərək qıfa bənzər büzülməklə dünyanın sonundan xəbər verir.

Dünya həyatına aludə olanlar qiyamətin yaxınlaşmasından qorxar, təqvalı möminlər isə təskinlik taparaq ürəkləri rahat olar.

> *"Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar !"*
>
> QURAN, "RƏD" SURƏSİ, AYƏ 28

İnsan bu dünyada yaşarkən Allah-təala tərəfindən ona bağışlanılan ömür-taleyinin hökmlərinə zidd çıxmamalı. Belə ki, kamil insan Allah (c.c.)-ı, peyğəmbərləri, müqəddəs kitabları tanımalı və Yaradanın bəxş etdiklərinə şükür etməlidir.

İnsan bilməlidir ki dünyadakı var-dövlət də övlad da şan-şöhrət də toxluqla-aclıq da və sağlıqla-xəstəlik də Dünya həyatı üçündür. Bütün bunlar isə qiyamətdə lazımsız kimi insana fayda verməyəcək. İnsana yalnız dünya həyatındakı əməlləri kömək olacaq.

Qiyamətin başlanmasından əvvəl Yer üzündə yaşayan insanlar Allah (c.c.)-ın dinini unudacaqlar. İnsanlar azğınlaşacaq, cəmiyyətlərdə ədəb-ərkan və mərhəmət götürüləcək. Alimlərin kəşfləri unudulacaq, cəmiyyətdə mədəni yaşayış tərzi pozulacaq, kişilər saçın uzadıb və qadın xasiyyətli olacaqlar. Qadınlar sacların kəsdirib kişi paltarları geyəcək və s.

Cəmiyyətdə (ailədə) kişi olan yerdə qadınlar danışacaq, uşaqlar valideynlərini saymayacaq.

Savadsızlıq artacaq, hakimlər məzlumları incidəcək. Adamlar arasında yalançılıq, əyyaşlıq, sələmçilik və rüşvətxorluq artacaq. İnsanlarda süstlük, biganəlik və laqeydlik güclənəcək.

Bundan sonra Allah (c.c.)-ın əmri ilə əvvəllər qeybə çəkilmiş Hz. Mehdi (r.ə.) ilə Hz. İsa (ə.s.) peyğəmbər Dünyaya gələcəkdir. Onlar cəmiyyətdə İslam dininin təbliğatçıları kimi azğınları dinə gətirərək müsəlmanlar çoxalacaqdır. Hz. Mehdi (r.ə.) və Hz. İsa (ə.s.) Şeytana (Dəccala) qalib gələcək. Qızıl dövr başlayacaqdır və 40 il sürəcəkdir.

Dünyada elmi-texniki tərəqqi inkişaf edəcək, İslam təlimləri texniki vasitələrlə təbliğ olacaq. Bütün bunlarla yanaşı, Şeytan da fəallaşaraq təqvasız möminləri dindən

uzaqlaşdırmaq istəyəcəkdir.

Bir müddətdən sonra Allah (c.c.)-ın əmri ilə mələk İsrafil çoxşahəli Suru ilə tükürpədici səslə, canlıları öldürəcək. Surun səsindən Yer silkələnərək, dəniz və qurudakı yeraltı neft, qaz və icməli su ehtivatları tükənəcək və göydəki ulduzlar büzüşərək parçalanacaqdır.

Aradan 40 il keçəcəkdir.

Allah (c.c.)-ın əmri ilə mələk İsrafil Surunu ikinci dəfə üfürəcək. Bu zaman Yerdəki dağlar silkələnib dağılacaq, Yer sanki şumlanmış zəmiyə bənzəyəcək.

Dəniz və okeanlardakı sular buxarlanıb quruyacaq, Günəşin şöləsi sönəcəkdir.

> *"Məhz o gün qiyamət qopacaqdır! Və (göy) süst düşüb parçalanacaqdır!"*
>
> QURAN, "ƏL-HAQQƏ" SURƏSİ, AYƏ 15-16

Allah (c.c.)-ın əmri ilə bütün mələklər ölümə məhkum olacaq, yalnız tək olan Allah (c.c.) qalacaqdır.

Aradan 40 il keçəndən sonra, Allah-təala bütün mələklərlə bərabər, ölmüş insanları dirildəcək.

Yer üzündə 40 gün (yer zamanı ilə) leysan yağışları yağaraq okean, dəniz və göllərin boşalmış sahələri su ilə dolacaqdır. Ölmüş insanların Ruhları torpağa çevrilmiş qalıqlarına verilib canlanacaq.

Dünyada mələk və insanlardan başqa digər canlılar olmayacaqdır.

Allahın əmri ilə dirilmiş insanlar Mizan-tərəzi qoyulmuş yerə dəstə-dəstə üz tutub gedəcəklər. (bax; "Peyğəmbərə 40 sual" Bakı-1993)

> *"(O gün) tərəzisi ağır gələn kimsə, (Cənnətdə) xoş güzəran içində olacaq! Tərəzisi yüngül gələn kimsənin isə, məskəni Haviyə (Cəhənnəm) olacaqdır!"*
>
> QURAN, "QARİƏ" SURƏSİ, AYƏ 6-9

Dünya həyatı şirin və acıdır, yolları hamar və kələ-kötürdür. Lakin bütün məxluqatdan fərqli olaraq Allah-təala insana ağıl (şüur) bəxş etmişdir. Buna görə də kamil insan Allah (c.c.)-ın dininə tabe olaraq qiyam-qiyamətdəki sorğu-sualdan çıxa bilər.

Axirət gününə inanmağın bu dünyada böyük dəyəri vardır. Axirətə inam, insanda hər şeydən əvvəl məsuliyyət yaratmalıdır.

Axirətə inam insanda böyük təsəlli yaradır. Çünki istər-istəməz bu dünyada çox şey haqq və ədalətdən kənardır.

İnsanın ən çox qorxduğu şey müvəqqəti həyat duyğsu, ən çox arzuladığı şey isə əbədi olmağıdır.

İnsanı bu qorxudan xilas edəcək və arzu etdiyi əbədiyyətə qovuşduracaq yeganə şey axirət gününə inamdır. (bax; İ. Abbasov "Dini-elmi- əxlaqi söhbətlər" Naxçıvan-2008, s. 29).

"Ömür karvanının sonudu daha,

Atımı dördnala çapa bilmirəm.

Ömrüm əriyibdi quzey qarı tək,

Ötən cavanlığı tapa bilmirəm."

(Şair H. Eyvazlı)

> *"İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin, Rəbbi yanında mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!"*
>
> QURAN, "BƏQƏRƏ" SURƏSİ, AYƏ 277

> *"Ey iman gətirənlər! Allaha və Peyğəmbərinə, Onun öz Peyğəmbərinə endirdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!..*
>
> QURAN, "NİSA" SURƏSİ, AYƏ 136

Hazırda Yer kürəsi Allahın qüdrəti ilə Ayın təsiri altındadır. Ayın gücü sona çatdıqda (iki yerə parçalandıqda) onu Günəş əvəz edəcək. Daha sonra isə "Böyük zaman vaxtı"na görə (hər 354 il 4 aydan sonradır) Yer zamanı ilə 2140-cı ildən Yerə Saturn planetinin təsiri gözlənilir. Həmin vaxt Dünya həyatı sona çataraq Qiyam-qiyamət olacaqdır.

Qeybin sirrlərini yalnız Allah (c.c.) bilir! Ona salam olsun! Amin!

> *"Sur çalınacağı gün artıq aralarında nə qohumluq olar, nə də onlar bir birindən soruşub hal-əhval tutar."*
>
> QURAN, "MUMİNİN" SURƏSİ, AYƏ 101

> *"(Ya Peyğəmbər! Dəhşətli aləmi) bürüyəcək Qiyamətin xəbəri sənə gəlib çatdımı? (O gün) bir çox üzlər zəlil görkəm alacaq."*
>
> QURAN, "ĞAŞİYƏ" SURƏSİ, AYƏ 1-2

> *"Elə bir məmləkət yoxdur ki, qiyamət günündən əvvəl Biz onun əhalisini məhv etməyək və ya onu şiddətli əzaba düçar etməyək. Bu, kitabda (Lövhi-məhfuzda) yazılmışdır!"*
>
> QURAN, "İSRA" SURƏSİ, AYƏ 58

"Bu taleyin oyununda cütlənmiş zərik,

Yüz il qoşa atılsaq da qoşa düşmərik .

Bir zərrənin işığına milyonlar şərik ,

Dünya sənin, dünya mənim, dünya heç kimin."

(Məmməd Araz)

Allah (c.c.)-a iman gətirən hər bir insan, Onun Quranı ilə insanlara bildirdiyi gerçəkliklərə ürəkdən inanmalıdır. İnsanın səhər yuxudan durduğu andan etibarən,

axşamadək hər dəqiqə ağlından keçən Dünya həyatının gerçəklikləri, ona daha cox üstün bir əxlaq mükəmməlliyi qazandırır.

İnsan özünü Allah tərəfindən yaranmasını, hər şeyin Onun iradəsində olduğunu dərk etməli və Dünya həyatının çox qıssa olub sürətlə keçdiyini xatırlamalıdır.

Möminlərin, bütün müsəlmanların sanki bir-birlərinin parçası və ən yaxın dostları olduğunu düşünmələri əhəmiyyətlidir.

> *"Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!"*
>
> QURAN, "SƏFF" SURƏSİ, AYƏ 4

Bütün bunları bilmək, inanmaq və tez-tez düşünmək, habelə Allah (c.c.)-ı zikr etmək mömin müsəlmanların məsuliyyəti ilə əxlaqına əhəmiyyətli vasitədir.

> *"Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!"*
>
> QURAN, "ƏRAF" SURƏSİ, AYƏ 205

> *"O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!"*
>
> QURAN, "RƏD" SURƏSİ, AYƏ 28

Bu aydın və elmi həqiqətləri oxuyan hər bir insan

Allahı fikirləşib, Ondan qorxub və Ona sığınar.

(Harun Yəhya)

FƏSİL 9

Cənnət və Cəhənnəm



Həzrəti Əli (r.ə.) demişdir:-“Allah-təala insanın Ruhuna dörd növ xasiyyət vermişdir ki, kamil insan şəhvət və qəzəbini şüuruna tabe edərsə o, bütün mələklərdən üstün olar...”

Qiyam-qiyamətdən sonra Allah (c.c.)-ın əmri ilə ölmüş insanlara Ruh verilərək diriləcəklər. Onlar dünyadakı əməllərinə cavab vermək üçün Mizan-tərəziyə tərəf gedəcəklər. İnsanların əməlləri oradakı mələk Mikayıl tərəfindən dəqiqliklə çəkiləcək və sorğu-sual qəbr evindəki kimi yalnız ərəbcə aparılacaqdır (İnsan öldükdən sonra onun Ruhu Ərəb dilini Ana dili kimi biləcək. Bu da Allahın bir möcüzəsidir).

> *“(Ya Məhəmməd!) Biz (Quranı) sənin dilində (ərəbcə) asan etdik ki, onunla ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərə (Cənnətlə) müjdə verəsən və inadkar bir camaatı (Cəhənnəmlə) qorxudasan.”*
>
> QURAN “MƏRYƏM“ SURƏSİ, AYƏ 97

“Sirat körpüsü” məhşər yerindən etibarən Cəhənnəmin üzərindən keçərək Cənnətə qədər uzanan bir körpüdür. Bu körpü, qiyamət günü Cəhənnəmin üzərində qurulacaq. Mömin, günahkar, kafir hamı bu körpüyə gələcəkdir. Cənnətə gedə bilmək üçün bundan başqa yol yoxdur. Siratın iki tərəfinə qoyulmuş qarmaqlar oradan keçən yaxşı əməlləri az olan kəsləri Allahın əmriylə çəkib Cəhənnəmə

salacaqlar. Yaxşı əməlləri ağır gələnlər, pislikləri səbəbiylə cırmaqlanılıb yara almış olsalar belə Siratdan keçəcəklər. Bəzi möminlər illərlə sürünərək keçəcəklər.

Peyğəmbərlərdən başqa o gün kimsə danışa bilməz. Siratdan keçiş əsnasında, Peyğəmbərimiz sirat üzərində “Qurtar, ey Rəbbim, qurtar" deyə möminlər üçün dua edəcək. (Müslim, İman, 84/329).

Möminlərin Sirat üzərindən tez keçib keçməmələri, onların haramlara yönəlib yönəlməmələrinə bağlıdır. Ürəyinə haram etmə düşüncəsi gəlib də ondan dərhal üz çevirib uzaqlaşan kəslər Siratdan tez keçəcək.

Sırat üzərində hər bir möminin tək özünün faydalanacağı bir nuru vardır. Bu nurdan başqası faydalana bilməyəcək. Kimsə, başqa bir kimsənin nuru içərisində gedə bilməyəcək. Nurunun nisbətində hər bir mömini Sirat geniş və ya dar olacaq. Siratın genişliyi keçənlərin nurları nisbətində kimisinə incə və darıxdırıcı, kimisinə enli, rahat və xoş görünəcək. Dünya əməlləri çəkidə ağır olan insanlar isə Siratdan (tük körpüdən) keçə bilməyib Cəhənnəmin Əqəbəsinə düşəcəklər.

Rəvayətlərə görə, Hz.Salehin Dəvəsi, Hz.Süleymanın Şanapipiyi və Qarışqası, Əshabi Kəhfin İti kimi bəzi heyvanlar həm ruhu, həm cəsədiylə cənnətə girəcəklər. Hər halda onların da yolu sırat körpüsündən keçəcək (Alusi, Ruhul-Bəyan: 5/226; Kurtubi: 1/372).

> *“Biz ona iki yol (xeyirlə şər) göstərmədikmi?! Lakin o, Əqəbəni keçə bilmədi. (Ya Peyğəmbər!) Sən nə bilirsən ki, Əqəbə nədir?!*
>
> QURAN, “BƏLƏD“ SURƏSİ, AYƏ 10-12

Əməlisaleh möminlər Behiştin yaşıl rəngli ipək paltarlarını geyinərək və mələk Rizvanın köməyi ilə Cənnətin səkkiz qatında məskənləşəcəklər. Cənnət əhli sevinərək, Tuba ağacının kölgəsində oturub və Kövsər bulağının şirin suyundan içib dincələcəklər. Onlar Allah (c.c.)-a şükr edib əbədiliyə qovuşacaq .

Cənnət, mömin insanların əbədi yurdudur. Allah (c.c.)-a və axirətə iman gətirənlər üçün Cənnət yaradılmışdır. Cənnətin Quranda tərifl ənən məkanları vardır ki, onlar aşağıdakılardır;

Cənnət Təbəqələri: İbn Abbas (r.ə.)-dan gələn bir rəvayətdə, Cənnətin yeddi təbəqəsi olduğu xəbər verilməkdədir. Bunlar, Firdovs, Ədn, Nəim, Darul-Xüld, Məva, Darussalam və İlliyyundur. Bu təbəqələrdən hər birində, möminlərin etdikləri yaxşı işlər qarşılığında girəcəkləri və ya yüksələcəkləri dərəcə və mərtəbələri vardır. Bunlar:

Nəim cənnəti: "Məni Cənnətin-Nəimin varislərindən et... " (Quran, “Şuəra” surəsi, ayə 85, “Maidə” surəsi, ayə 65; “Tövbə” surəsi, ayə 21; “Yunis” surəsi, ayə 9).

> *Ədn cənnəti: "Şübhəsiz ki, iman edənlər və gözəl əməl işləyənlər yoxmu, işdə onlar məxluqatın ən xeyirlisidirlər. Onların mükafatı Rəbləri qatında Ədn Cənnətləridir ki onların altlarından çaylar axar, orada onlar əbədi qalıcıdırlar, Allah onlardan razı olmuşdur, onlar da ondan razı olmuşlar. Bu Rəbbindən qorxanlar üçündür. "*
>
> QURAN, “BƏYYİNƏ“ SURƏSİ, AYƏ 8, “TÖVBƏ“ SURƏSİ, AYƏ 72; “RƏD“ SURƏSİ, AYƏ 23; “NƏHL“ SURƏSİ, AYƏ 31

Firdovs cənnəti: "Şübhəsiz, iman edib gözəl əməl işləyənlər üçün sığınacaq olaraq Firdovs Cənnətləri vardır " (Quran, “Kəhf” surəsi, ayə 107, “Mömün” surəsi, ayə 11).

Məva cənnəti: "İman edib gözəl əməl işləyənlərə gəlincə, onlar üçün Məva Cənnətləri vardır." (Quran, “Səcdə” surəsi, ayə 19, “Nəcm” surəsi, ayə 15).

Salam cənnəti: "Halbuki Allah Darüssalama çağırır və O, dilədiyi kəsləri dümdüz bir yola hidayət buyurar." (Quran, “Yunis” surəsi, ayə 25, “Ənam” surəsi, ayə 127).

Xüld cənnəti: "O Rəb ki, fəzlindən bizi dayanılacaq yurda (Cənnətə) qoydu." (Quran, “Fətir” surəsi, ayə 35).

Hər nə qədər İbn Abbas Cənnətin təbəqələrini yeddi ilə məhdudlaşdırmışsa da, ayələrdən aydın olduğuna görə, Cənnətin bir çox təbəqəsi vardır. Burada İbn Abbasın xəbər verdiyi və ayələrdə adları keçən Cənnət təbəqələri, Cənnətin ən yüksək təbəqələridir. Çünki bu təbəqələrdə də bir çox təbəqə vardır. Necə ki Allah Təalanın “Nəim Cənnətləri” və ya “Firdovs Cənnətləri” şəklindəki çoxluq ifadə edən ayələri buna sübutdur. Ayrıca Ümmü Hərisə Hədisində bu gerçək Hz. Peyğəmbərin dilindən ifadə olunmuşdur. Ümmü Hərisə Bədirdə şəhid olan uşağı haqqında Hz. Peyğəmbərdən məlumat almaq üçün gəlmiş və ona Rəsulullah bir çox Cənnət

olduğunu ifadə edərək, uşağının da "Firdovsi Ala-da" olduğunu söyləmək surətiylə təsəlli etmişdir.

Hədis və alimlərin şərhlərindən Cənnətin bir çox təbəqəsi olduğu aydın olmaqdadır. Bu təbəqələrdən bəzilərinin daha uca və nemətlərinin daha gözəl və ya daha üstün olması səbəbiylə adları bizə bildirilmişdir. Firdovs Cənnəti mərtəbə tərəfindən ən yüksək olan Cənnət təbəqəsidir.

Bundan başqa Quranda adı çəkilən yer (məqam) də vardır ki, orada xeyir əməl sahiblərinin yazılı dəftəri saxlanılır. Həmin dəftər qiyamət günü Mizan-tərəzi sorğusunda olanların sağ əllərinə veriləcək.

“Xeyr! Şübhəsiz ki, yaxşı əməl və itaət sahibi olan möminlərin əməl dəftəri (Cənnətin ən yüksək mərtəbəsi olan) İlliyundadır!

Sən nə bilirsən ki, İlliyun nədir?

> *O yazılı bir kitabdır.”*
>
> QURAN, “MUTƏFFİFİN“ SURƏSİ, AYƏ 18-20

Allah-təala Quranda mömin bəndələrinə vəd etdiyi Cənnətlərdə insanlar üçün lazım olan şəraiti yaratmışdır. Orada əbədi yaşayan insanlar üçün gözəl nemətlər, yemək-içmək, bol meyvəli ağaclar, ətirli gül-çəmənlər, şirin sulu irmaqlar da vardır. Bundan başqa cənnət əhli evlərində asudə yaşayaraq Vildan (Qadın Huri-Mələk) və Qılmanların (Kişi Huri-Mələk) ətrafında olacaqlar. Onların yemək və içmələri bədənlərində nura çevriləcək. İnsanlarda şəhvət hissləri olmadığından bir biçimli yaşıdları ilə (Axirətdə hərkəs 30-35 yaşında olacaq. Çünki insanın ən mükəmməl yaş dövrü bu vaxtdır) hər bir zaman bərabər qurtuluşda olacaqlar...

Cənnətdəki insanlara Allah-təala fövqəladə uğurları bəxş edərək, isdədiklərinə nail olacaqlar. Cənnət əhlinin danışıq dili qiyamətdəki kimi ərəbcə olacaqdır.

> *O gün mömin kişilərin və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən. Bu gün sizin müjdəniz altından çaylar axan cənnətlərdir. Bu böyük qurtuluşdur!*
>
> QURAN, "HƏDİD" SURƏSİ, AYƏ 12

Allah-təala Quranda Cənnətlə bərabər Cəhənnəm haqqında da insanlara bildirmişdir. Allah (c.c.)-ı inkar edən, Quranı və digər üç müqəddəs kitabları (Tövrat, Zəbur və İncil), peyğəmbərləri tanımaq istəməyən və Şeytanın ardınca gedənlər kafirlərdir. Qiyamətdən əvvəl və sonrakı dövrlərdə onların əbədi qaldıqları məkan - Cəhənnəmdir!

> *"Ona: "Allahdan qorx!"-deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər. Beləsinə Cəhənnəm kifayətdir. Ora nə pis məskəndir!"*
>
> QURAN, "BƏQƏRƏ" SURƏSİ, AYƏ 206

ABŞ-ın Milli Aeronavtika İdarəsində (NASA) "Tam məxfi" bir məlumat saxlanılırdı.

1973-cü ilin 9 avqust tarixində "Skayleb-2" kosmik gəmisindən verilmiş məlumat ABŞ-ın bütün mütəxəssislərini heyrətə saldı. Məxfi məlumatın məzmunu belə idi: "Cəhənnəm Günəşin içərisindədir. Oradakı insanların necə yanıb-dirildiklərini görürük. Biz, gözlərimizlə cəhənnəmi görürük..." Kosmosdan Yerə verilən siqnal birdən-birə möcüzəvi surətdə kəsilmişdir.

NASA-nın əməkdaşları 16 il həmin məlumatı gizli saxlayaraq ictimaiyyətə bildirməmişlər.

Yalnız 1985-ci ildə ABŞ-ın "Bəşəri elm" adlı məcmuəsində həmin hadisə oxuculara çatdırılmışdır.

1978-ci ilin avqust ayında "Skayleb-2" kosmik gəmisindəki çəkilmiş fotolenti spektrohelioqraf qurğusunun köməyi ilə günəş şüaları tədqiq edilmiş. Aşkar olmuşdur ki, Günəşdəki güclü partlayışdan kənara 800 min kilometr uzaqlıqda helium (təsirsiz qaz) "sütunu" dağılır. Cəmisi 70 saniyə ərzində fəzadakı görüntünü

qeydə alan qurğunun ekranında Günəşdəki milyardlarla (sayı bəlli olmayan) əzabçəkən insanların bədənləri görünmüşdür.

Rəngli fotolentə çəkilmiş möcüzəvi hadisə Qurandakı Cəhənnəmi xatırladır, onu əks etdirirdi.

Həmin xəbərdən doqquz il (1994-cü ildə) sonra məcmuə, oxuculara yeni bir möcüzəvi xəbər yaymışdır. NASA-ın alimləri xüsusi teleskopun köməyi ilə açıq kosmosda insan və heyvan ruhlarının "buxarlandığını" görmüşlər.

Həmin hadisə ilə əlaqədar (adını bildirməyi istəməyən) rəsmi ekspert komisiyasının üzvlərindən biri demişdir ki;-"Biz açıq kosmosda canlıların ruhlarının mövcudluğunu bilirik. Onları 1993-cü ilin may ayından "Hobbl (Hubble) teleskopu" ilə seyr etmişik... Lakin NASA belə məxfi işləri ictimaiyyətdən gizlətmişdir."

İspan alimi Pedro Qarsiyaya görə;-"Kainatda məşhər (qiyam-qiyamət) vardır... Ölmüş adamların ruhları Dünyadakı əməllərinə görə məşhər gününü sorğu-sual, mizan-tərəzi və sairəni gözləyir."

Allah (c.c.) bizə Cəhhənəmi göstərərək axirəti yada salmamızı istəyir. Bunların hamısı Allahın iradəsi ilə baş verir. O istəməsəydi insanlar belə möcüzələri görə bilməzdilər.

> *"Sizə vəd edilən (qiyamət) mütləq vaqe olacaqdır !"*
>
> QURAN, "MURSƏLAT" SURƏSİ, AYƏ 7

Peyğəmbərimiz Merac gecesində cəhənnəmə baxdığında orda qadınların daha çox olduğunu görür.

İbnu Ömər (r.ə.) deyir: "Rəsulullah (s.ə.s.) bir bayram namazında qadınlar tərəfinə keçərək:

"Ey qadınlar camaatı! (Allah yolunda) sədəqə verin, istiğfarı çox edin. Çünki mən siz qadınların cəhənnəmdə əksəriyyəti təşkil etdiyini gördüm" buyurdu. Dinləyənlərdən cəsarətli bir qadın:

"Niyə cəhənnəmliklərin çoxunu qadınlar təşkil edir, nəyimiz var?" deyə soruşdu.

Peyğəmbər: "Ağızınızdan pis söz çıxır və ərlərinizə qarşı nankorluq edirsiniz".

Qurani Kərimdə Cəhənnəmin yeddi qapısının olduğu ifadə edilməkdədir.

"Cəhənnəmin yeddi qapısı olub, hər qapıdan onların girəcəkləri ayrılmış bir qisim vardır." (Quran, "Hicr" surəsi, ayə 44). Bu ayə iki şəkildə təfsir edilmişdir:

a- Cəhənnəmə girəcəklər çox olduğu üçün;

b- Cəzalandırma azğınlığın növ və dərəcələrinə görə olacağı üçün Cəhənnəmin yeddi qapısı və ya təbəqəsi vardır. Bu qapı və ya təbəqələr bunlardır:

Cəhənnəm: Qurani Kərimin yetmiş yeddi (77) ayəsində keçməkdədir.

> *Ləza (alovlu atəş): "Xeyir. Həqiqətən, o (Cəhənnəm) alovlu atəşdir. (Elə bir atəş ki,) başın dərisini sıyırıb çıxardır."*
>
> QURAN, "MƏARİC" SURƏSİ, AYƏ 15-16

Sair (gur atəş): "O şeytanlara (axirətdə) dəli atəş əzabı hazırladıq." (Quran, "Mülk" surəsi, ayə 5). Ayrıca on beş ayədə daha bu adla keçməkdədir. (22/4; 31/21; 34/12 və s.)

> *Saqar (qırmızı atəş): "Həm ey Rəsulum bilərsənmi, nədir o saqar (Cəhənnəm)."*
>
> QURAN, "MÜDDƏSSİR" SURƏSİ, AYƏ 27

Haviyə (uçurum): "O, qızğın bir atəşdir " (Quran, "Qariə" surəsi, ayə 9-11).

Hütəmə (ürəkləri qucaqlayan qızdırmalı qayğı): "Şübhəsiz o, Hütəməyə (atəşə) atılacaq." (Quran, "Hüməzə" surəsi, ayə 4).

Cahim (yanan qızğın atəş): "Söyənlər və ayələrimizi yalanlayanlara gəlincə, işdə onlar Cahimin yaranıdırlar." (Quran, "Maidə" surəsi, ayə 10).

Ayrıca Cəhənnəm əzabı ancaq atəş deyil. Bir çox əzab növləri vardır. Bir neçəsi belədir:

- Soyuqla əzab,
- İlan əqrəb kimi heyvanların sancması,
- Başına toppuzlarla vurmaq,

Aç buraxmaq, Zəqqum yedirərək bağırsaqları parçalamaq, Bədənləri böyüdülərək əzabın şiddətləndirilməsi, İrinli su içirmək, Cəhənnəm quyusuna atmaq, Uçurumlardan atmaq, Zülmət qaranlıqda əzab, Böyük əzab verən murdar qoxulara məruz buraxmaq, Əzabların hər gün dözərək çoxaldılması, Sonsuza qədər əzab edilməsi.

Cəhənnəmdə bir yer var ki ora Zəmhərir deyilir, yəni soyuq Cəhənnəmdir. Soyuqluğu çox şiddətlidir. Bir an dözülməz haldadır. Kafirlərə, bir soyuq bir isti, sonra soyuq sonra isti Cəhənnəmə atılaraq, əzab ediləcək.

Şeytanın aqibəti nə olacaq, şeytan da cəhənnəmə gedəcək? Əgər gedəcəksə atəş onu necə yandırar?

Şeytan 5 əmələ görə əbədi cəhənnəmdə qalacaq:

Günahını qəbul etmədiyi üçün,

Peşmanlıq hiss etmədiyi üçün,

Özünü üsyan etdirən nəfsi qınamadığı üçün,

Tövbəyə yanaşmadığı üçün,

Allahdan ümidini kəsdiyi üçün.

İnsanlarda Allahın əzabını bildikləri halda günaha düşməkdədirlər. Ancaq xüsusilə möminlər səhvini anlayıb tövbə edirlər. Ancaq şeytan qürurundan ötəri buna yanaşmamışdır. Buna görə bir möminin, işlədiyi günahı qəbul etməsi; etdiyi səhv və günahlardan ötəri peşmanlıq duyması; nəfsini hesaba çəkib onu qınaması, tez-tez tövbə etməsi və rəhməti ilahidən heç bir zaman ümid kəsməməsi lazımdır.

Halbuki Şeytan, Allaha qarşı gəlməsindən sonra peşmanlıq duymaq yerinə, Allahın qullarını azdırmaq və yoldan çıxarmaq üçün, özünə imkan verilməsini istəmişdir.

Ürəyində iman olan və bu imanla ölən hər kəsin Cəhənnəmə girsə belə axırda Cənnətə girəcəyini bildirən hədislər vardır. Cənnətə girmənin ilk şərti iman etməkdir. İmanlı bir insan günahkar olsa cəzasını çəkdikdən sonra cənnətə gedəcək.

İnsanın başına gələn hər cür çətinlik, xəstəlik və müsibətlər günahının azalmasına bir səbəbdir.

Ayələrdə əbədi cəhənnəmdə qalacağı ifadə edilənlər kafirlərdir. Ancaq saleh əməl əskiyi olanların da bunların cəzasını çəkəcəyi məlumdur.

Bəqərə surəsindəki 82-ci ayədə, iman edənlər və saleh əməl işləyənlər xaric deyərək, cəhənnəmdə əbədi qalacaq olanların iman etməyənlər olduğu açıqca ifadə edilər.

> *"Xeyr, vəziyyət heç də elə deyil. Günah işləyib də günahın özünü hər tərəfdən əhatə edib örtdüyü kəslər cəhənnəmlikdir. Orada əbədi qalacaqlar. İman edib məqbul və gözəl işlər edənlər cənnətlikdir. Həm də orada əbədi qalacaqlar."*
>
> QURAN, "BƏQƏRƏ" SURƏSİ, AYƏ 81- 82

"Allah bir zərrə ağırlığında belə zülm etməz, əgər yaxşılıq olsa onu qat-qat edər və öz qatından böyük bir savab verər." Allah Azzə və Cəllə bütün bunlardan sonra:

"Mələklər şəfaət etdi, Peyğəmbərlər şəfaət etdi, Möminlər şəfaət etdi, yalnız rəhmət edicilərin ən mərhəmətlisinin şəfaəti qaldı" deyə buyurar. Bundan sonra cəhənəmdən bir ovuc (Qulp) götürər, oradan heç xeyir nədir bilməyən bir birlik çıxarar. Bunlar kömürləşmiş bir haldadırlar. Bunları cənnətin girişində bir çaya atar. O çaya "həyat çayı" deyilir. Selin gətirdiyi yığındakı dənənin çıxması kimi oradan çıxarlar. Daşın və ya ağacın günəş istiqamətinə gələn tərəfi yüngül saralmış və yaşıl olaraq görünər. Kölgə tərəfinə gələn qismi isə ağ olar. Oradakılar:

"Ey Allahın Elçisi, sən sanki, səhrada çobanlıq etmiş kimisən dedilər". (Yəni səhra əhalisi kimi hər şeyi çox gözəl örnəkləndirərək və səhradakı bənzərləri ilə açıqlayaraq izah edirdi). Rəsulullah sözünə belə davam etdi:

İnci kimi çıxarlar. Boyunlarında möhürlər vardır. Cənnət əhalisi onları tanıyar. Bunlar Allahın azadlığa buraxdıqlarıdır, işlədikləri bir əməl olmadan, öndən göndərdikləri bir xeyir olmadan Allah onları cənnətə qoymuşdur. Sonra Cənabı Allah onlara:

"Cənnətə girin, gördüklərıniz sizindir" deyə buyurar. Onlar: "Ey Rəbbimiz, aləmlərdən kimsəyə vermədiklərini bizə verdin" deyərlər. "Sizə Mənim qatımda

bundan daha üstünü vardır” deyilər. Onlar: “Ey Rəbbimiz, bundan daha üstün nə ola bilər” deyərlər. Uca Allah: “Razılığım, artıq bundan sonra Mən əbədi olaraq sizə hirslənməm” deyə buyurar. (Müslim, “İman”, səh. 302)

İnsanın dinə, imana əsas yolu dərketmək,

idrak və bilikdən keçir.

(Harun Yəhya)

FƏSİL

Bütpərəst hökmdarların aqibəti



> *"Bu, məmləkətlərin xəbərlərindəndir ki, sənə söylədik. Onların bəzisindən əsər-əlamət qalmamış, bəzisi isə yerlə-yeksan olmuşdur. Biz onlara zülm etmədik. Onlar özləri özlərinə zülm etdilər. Allahdan qeyri ibadət etdikləri tanrılar Rəbbinin əmri gəldikdə onlara heç bir fayda vermədi, əksinə, yalnız ziyanlarını artırdı."*
>
> QURAN, "HUD" SURƏSİ, AYƏ 100-101

Bəşər tarixində bəzi adamlar (hakimlər) Allah (c.c.)-a qarşı çıxaraq özlərini hər şeyə qadir "İlahi" bildirmişlər. Onlardan biri də Nəmrud (Nimvrod) olmuşdur.

O, qədim Babilistanda uca bir qüllə tikdirərək, bənnanı yuxarıdan tullayıb öldürmüşdür (Nəmrud Hz. İbrahim (ə.s.) peyğəmbərin nəvəsi İsav tərəfindən öldürülür).

> *"...İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!"*
>
> QURAN, "ALİ-İMRAN" SURƏSİ, AYƏ 137

Büxtünəssər (Nəbuhəddnəzər, Navuxonodosor), zalim sərkərdə və sonradan hökmdar olmuş, bizim eradan əvvəl VII əsrdə Qüdsdəki Hz.Süleyman (ə.s.) peyğəmbərin məscidini dağıtmışdır (Sonradan Allah (c.c.)-ın hökmü ilə Hz. Davud (ə.s.) peyğəmbər tərəfindən öldürülür).

> *Nəhayət, onlar Allahın izni (köməyi) ilə Calutu və qoşununu məğlub etdilər. Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi və ona istədiyini öyrətdi. Əgər Allah insanların bir qismini digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır."*
>
> QURAN, "BƏQƏRƏ" SURƏSİ, AYƏ 251

Misir fironlarından "Günəş oğlu" Amruonun böyük qardaşı III Ramses, Hz. Musa (ə.s.) peyğəmbərin dinini qəbul etməyərək İsrail xalqını qul etmiş. O, Hz. Musa (ə.s.) peyğəmbərlə gedən yəhudilərin ardına düşərək onları tutmaq istərkən, Allahın möcüzəsi ilə Nil çayında boğulmuşdur.

"Onda Musaya belə vəhy etdik: "Əsanla dənizə vur!"

O, dərhal yarıldı və hər hissə böyük bir dağ kimi oldu. Obirilərini də ora yaxınlaşdırdıq. Musanı və onunla birlikdə olanların hamısını xilas etdik. Obirilərini isə suya qərq etdik... (Quran, "Şuəra" surəsi, ayə 63-65)

Bütpərəst Şəddad Ad qövmünün hökmdarı idi. Dünyanın ən zənginlərindən biri olmuşdur. Şəddad Yelisey (Əl-Yasa) (ə.s.) peyğəmbərin dinini qəbul etmir və özünü "tanrı" bilərək İrəm (cənnət) bağlarını tikdirir.

Şəddad qullarının müşayəti ilə İrəmə gəlir. Axşam düşdüyndən ertəsi günü "cənnətə" girmək istəyir. Allahın əmri ilə ora göndərilmiş mələyin tükürpədici səsi İrəm bağlarını dağıdıb məhv edir.

> *"(Onların cəzası) ancaq (tükürpədici) bir səs oldu. Dərhal məhv olub getdilər."*
>
> QURAN, "YASİN" SURƏSİ, AYƏ 29

Bütpərəst Diokletian (Diqyanus) Valeriyan Midiya hakimi Kiaksarı (625-585) arvadı tərəfindən zəhərlədərək hakimiyyətı ələ keçirir.

Hökmdar Deyok (ona Dağyunus da demişlər) təzə iqamətgahını Neynəvi şəhərindən Araz çayı sahilindəki Tərsusa köçürür (Tərsusun xərabəlikləri Naxçıvandakı

"Qızılburun" dəmir yolu stansiyasındakı "Ölən şəhər" adı ilə qalır). (bax; F.Bağırov "Nuh yurduna ziyarət", Bakı-2008, s. 50)

Bütpərəst və zalım Diqyanus özünü "tanrı" elan edərək əhaliyə zülm edir. Hökmdarın vəziri Təmlixa yoldaşları ilə şəhərdən qaçıb dağdakı mağarada gizlənir. Onlar orada Allah (c.c.)-ın möcüzəsi ilə 309 il yataraq sonra dururlar. Bu barədə Quran kitabının "Kəhf" (Mağara) surəsində müfəssəl məlumat verilmişdir.

> *"Onlar (Diqyanusun qarşısında) durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz ondan başqa heç bir tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə danışmaqla həddi aşmış olarıq!"- dedikləri zaman onların ürəklərinə qüvvət vermişdik."*
>
> QURAN, "KƏHF" SURƏSİ, AYƏ 14

Tezliklə bütpərəst Dağyunusun qulağına milçək girməklə onu öldürür.

Quranda göstərildiyi kimi azğın insanlar və tayfalar Allah (c.c.)-ın dinindən çıxaraq Şeytanın yolu ilə getmişlər. Onlardan biri də Hz. Lut (ə.s.) peyğəmbərin yaşadığı (həmin vaxt Hz. İbrahim (ə.s.) peyğəmbər də yaşayırdı) Sadom və Qamorra şəhərlərinin əhalisini göstərmək olar.

Həmin insanlar hemoseksuallıqla məşğul olaraq azğınlaşmışlar. Allah (c.c.) iki mələk vasitəsi ilə Hz. Lut (ə.s.) peyğəmbərin şəhərdən çıxmasını istəyib, sonradan hər iki şəhərə göydən yanar daşları yağdırmışdı.

> *"Biz etdikləri pozğunluğa görə bu məmləkət əhlinin başı üstünə göydən bir əzab endirəcəyik! Həqiqətən Biz dərindən düşünən bir qövm üçün o məmləkətdən açıq-aydın bir nişanə qoyduq."*
>
> QURAN, "ƏNKUBƏT" SURƏSİ, AYƏ 34-35

Quranda deyilən "nişanə" Siddim vadisindəki (Ərəbistan yarımadası) Ölü dənizin içərisindədir.

Allah (c.c.)-ın qanunlarında özünü görməməzliyə vurma, üzgörənlik etmə yoxdur. Onun əmrlərinə saymazlıq edənlər dünyada cəzasın çəkəcəklər. Roma

imperiyasındakı qədim Pompey əhalisi də Sadom və Qamorra əhalisi kimi Allah (c.c.)-ın qanunlarını pozaraq seksual pozğunçuluqla məşğul idi.

Allah (c.c.)-ın qüdrəti ilə Pompey şəhəri yaxınlığındakı Vezuvi vulkanının qəfil püskürməsi nəticəsində, şəhərlə birlikdə əhali yanıb məhv oldu. (bax; E.P.Zavaritskaya "Vulkanlar", Bakı-1949, s. 6)

Mitraizm ayininə görə, bütpərəst pompeylilər cinsi orqanlarını açıb bir-birinə göstərməklə şəhvət hisslərini artırırdılar. Şəhərdəki fahişəxanaların giriş qapılarından kişi cinsi orqanlarının rəmzi heykəlləri asılırdı.

Bu gün bir sıra Avropa və Amerika şəhərlərində homoseksuallığa qanuni don geyindirilmiş Amerikanın bəzi şirniyyat kompaniyaları həm də cinsi orqanlar formasında tort bişirib satmaqla məşğuldurlar. Bu cür tortlar mənəviyyatca pozulmuşların gecə əyləncələri üçün sifariş edilir.

Pompeyi bu şəkildə məhv edən Allah (c.c.)-ın qəzəbinin ciddi səbəbləri var idi .Vezuvidən axan odlu lava şəhəri bir anda yer üzündən sildi. Arxeoloqlar şəhər yerində qazıntı zamanı cütlər arasındakı hemoseksuallıq nişanələrini təkcə böyüklərdə deyil, eləcə uşaqlar arasında da tapmışlar.

> *"Onların cəzası ancaq dəhşətli bir səs oldu. Dərhal məhv olub getdilər."*
>
> QURAN, "YASİN" SURƏSİ, AYƏ 29

Allah-təalanın Qurandakı xəbərdarlığına baxmayaraq, Pompey xərabəlikləri yaxınlığında yerləşən Kapri adası sakinləri indi də hemoseksuallıqla məşğul olurlar. Bütün bunlar təkcə İtaliyada baş vermir. Mənəvi degenerasiya hər bir məmləkətdə yayıldığından insanlar, keçmiş xalqların həlakını xatırlayıb ibrət götürmürlər. (bax; H. Yəhya, "Xalqların həlakı", Ankara-1999, s. 89)

Qədim dövrlərdə (eramızın 542-ci ilində) Cənubi Ərəbistanın indiki Yəmən ərazilərində bütpərəst hökmdar Əbrəhənin dövründə Marib şəhəri var idi. Şəhər əhalisi bol suyu olan Adhana çayının üzərindəki Cəbəl Balaka yaxınlığında tikilmiş nəhəng bəndin suyundan əkinlərini suvarmaq üçün istifadə edirdilər.

Bəndin hündürlüyü 16 metr, eni 60 metr, uzunluğu isə 620 metr idi. Bəndin suyundan 9600 hektar əkin yerləri suvarılırdı. Suvarılan torpaqların 5300 hektarı cənubda, qalanı isə şimalda idi.

Hz. Saleh (ə.s.) peyğəmbərin dövründə Səba xalqı həmin su ilə tarlalarını becərib şad-xürrəm yaşayırdılar. Səbalılar Allah (c.c.)-a şükür etmədiklərindən möcüzəvi surətdə Arim seli ilə əkin yerləri dağıldı, yurdları viranə qaldı. Allah (c.c.)-ın qəzəbi ilə nankor səbalıların "cənnət guşəli" bağ-bağçaları səhralığa çevrildi.

> *"Səba yurdunda bir nişanə var idi. Sağdan və soldan iki bağça var idi. Rəbbinizin ruzisindən yeyin və Ona şükr edin. Gözəl bir diyar, bağışlayan bir Rəbbdir. Lakin onlar üz döndərdilər, biz də üstünə Arim selini göndərdik..."*
>
> QURAN, "SƏBA" SURƏSİ, AYƏ 15-16

İndiki İordaniyanın Rum vadisində (Petrada) Şimali Ərəbistanın Domatha ilə Heqra (indiki Hicr) şəhərləri ərazisində bütpərəst Səmud hökmdar idi. O, Allah (c.c.)-ın haqq dinindən xalqını döndərərək, Hz. Saleh (ə.s.) peyğəmbəri də öldürməyə cəhd göstərmişdir. Bütpərəstlər Peyğəmbərin yeganə dəvəsini kəsib yemiş və ailəsini də şəhərdən qovmuşlar.

Səmud qövmünün yaxşı daş yonan sənətkarları olsa da, Allah (c.c.)-ın nemətlərinə şükür etmirdilər. Buna görə də Allah (c.c.)-ın möcüzəsi ilə bütpərəst şəhər əhalisi səhranın qızmar qumları altında qalaraq həlak olmuşlar.

> *"(Saleh tayfasına dedi: Allahın) sizin Ad tayfasından sonra onun yerinə gətirdiyi, düzənlərdə qəsrlər tikdiniz, dağlarını ovub evlər düzəltdiyiniz yer üzündə yerləşdirdiyi vaxtı xatırlayın. Allahın nemətlərini yada salın, yer üzündə dolaşıb fitnə-fəsad törətməyin..!"*
>
> QURAN, "ƏRAF" SURƏSİ, AYƏ 74

Qədim dövrlərdə bütpərəst və zalım hökmdarlardan biri də eramızdan əvvəl VI əsrdə Midiya (Əhməni) dövlətinin hokmdarı III Dara olmuşdur. O, Allah (c.c.)-ın doğru

dinindən azaraq, Şeytanın atəşinə uymuş və tutduğu ərazilərin əhalisini atəşpərəst etmişdir.

Yunan (Rum) sərkərdəsi və zəmanənin "peyğəmbəri" Makedoniyalı İskəndər Zülqərneynə (e.ə.356-323) Allahdan vəhy gəlir ki at üstündə, "dünyanı" gəzib dolaşsın və İslam təqvalarını yaysın.

> *"Səndən Zülqərneyn barəsində soruşsalar. De: "Onun barəsində sizə bir hekayət söyləyəcəyəm!" Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şey (dini təlimlər) verdik. O yola çıxdı."*
>
> QURAN, "KƏHF" SURƏSİ, AYƏ 83-85

Əvvəlcə Hz. İskəndər (ə.s.) peyğəmbərin qoşunları Kiçik Asiyanı tutub, sonradan Ərəbistanla Misir ölkəsini, daha sonra isə Midiya (Əhməni) dövlətinə gəlib çıxırlar.

"Əlif, Lam, Mim! Rumlular (iranlılara) məğlub oldular. (Ərəbistanın) ən dərin bir yerində (ölü dənizin sahillərində). Lakin (bu) məğlubiyyətdən sonra qalib gələcəklər. Bir neçə ilin içində. Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər." (Quran, "Rum" surəsi, ayə 1-4).

Eramızdan əvvəl 330-cu ildə İskəndərin qoşunları Əhməni hökmdarı III Dara ilə savaşa girib, ərazidə Allahın dinini bərpa etmək istəyirlər.

Rumlularla iranlılar arasında sonuncu savaşlar Ölü dənizin sahillərində olmuş. Quranda deyilən "ən dərin bir yer" 395 m. okean səviyyəsindən aşağıdadır.

Hökmdar III Dara həmin savaşda qaçmaq istərkən xain çıxmış sərkərdəsi tərəfindən öldürülür.

> *"Daha sonra o (Zülqərneyn) başqa bir yola (cənubdan şimala) üz tutub getdi!"*
>
> QURAN, "KƏHF" SURƏSİ, AYƏ 92

Qədim Antakya (indiki Türkiyə ərazisində) şəhərində bütpərəst və zalim hökmdar Antiokus (Kral Antiochus) idi. Hz. İsa (ə.s.) peyğəmbərin dinini təbliğ etmək üçün o şəhərə Allah-təala iki nəfər elçi göndərir.

Elçilər hökmdar Antiokusa Allah (c.c.)-a və kitabına inam gətirməsini bildirirlər.

Zalım hökmdar elçilərə yüz çubuq vurduraraq zindana saldırır. Bundan xəbər tutan Hz. İsa (ə.s.) peyğəmbər həvarisi Şəmunu (Simonu) Antakyaya göndərir.

> *"O zaman onlara iki elçi göndərmişdik, amma onlar ikisini də təkzib etmişdilər. Biz də (o iki elçini) üçüncüsü ilə güvvətləndirmişdik. Onlar dedilər; "Həqiqətən, biz sizə göndərilmiş elçilərik!".*
>
> QURAN, "YASİN" SURƏSİ, AYƏ 14

Tezliklə Şəmun Antakyaya gedərək orada əhalinin hörmətini qazanır. Bunu görən hökmdar, Şəmunu sarayına dəvət edir. Sarayda Şəmunun söhbətlərindən hökmdar məmnun olur və ona bəxşişlər verir.

Tezliklə Şəmun iki nəfər elçinin hökmdar tərəfindən cəzalandığını öyrənib narahat olur. Şəmun hökmdardan onların hansı dinə itaət etmələrini öyrənmək bəhanəsi ilə, saraya gəlmələrinin razılığını alır. Məlum olur ki elçilər, Allah (c.c.)-ın əmri ilə Hz. İsa (ə.s.) peyğəmbərin dinini yayanlardır.

Hökmdar qəzəblənərək onların əzabla öldürülməsini istəyir. Bu vaxt dülgər Həbib (Həbib ən-nəccar) adlı mömin bir şəxs, atla çaparaq gəlib hökmdara deyir:- "Hökmdar, tək olan qüdrətli Allaha (c.c.) inan. Mərhəmətli Allah (c.c.)-ın möcüzəsi ilə atasız doğulmuş Məryəm oğlu İsa (ə.s.) Allahın Elçisidir! Mən də, Onun quluyam. Allah yaradandır, mərhəmətlidir, ruzi verəndir. Allah (c.c.)-ın varlığına, peyğəmbərlərinə şəhadət gətirirəm!"

> *"...Onların (cəzası) ancaq dəhşətli (tükürpədici) bir səs (Cəbrailin qışqırtısı) oldu. Dərhal məhv olub (şam kimi sönüb) getdilər."*
>
> QURAN, "YASİN" SURƏSİ, AYƏ 29

Bundan başqa dünyanın bir çox ölkələrində də bütprəstlərin aqibəti Allah (c.c.)-ın möcüzələri ilə bir anın içərisində məhv olmuşdur. Onlardan, indiki Meksika ərazilərində yaşamış xalqlardan İnkləri, Astekləri və Mayyalıları göstərmək olar. Adı çəkilən şəhərlərin bütpərəst əhalisi, qədim dövrün yüksək inkişaf etmiş

sivilizasiyasına çatsalar da, Allah (c.c.)-ın dinindən xəbər verən elçilərə məhəl qoymamışlar. Onlar elmin gücü ilə daşları yonub uca evlər tikmiş, ilk dəfə olaraq, indiki idman oyunlarından olan futbol və basketbol oyunlarını yaratmışlar...

Bütpərəst İnklər, Astek və Mayyalılar oda (atəşə) sitayiş etdikləri üçün Allah (c.c.)-ın qəzəbinə məruz qalırlar. Həmin şəhərlər güclü tufandan sonra göydən düşən mavi rəngli "top"larla (ildırımlarla) dağıdılaraq məhv olmuş. (bax;N.V.Kolobkov "Tufan və fırtına" Bakı-1952, s. 16)

Qədim Yunan yazılı məlumatlarında (Əflatun, e.ə. 427-348-ci illərdə) bildirilir ki, Atlantik okeanı sularında qərq olmuş möhtəşəm Atlantida (dünyadakı dörd okeandan biri olan Atlantik okeanının adı oradan götürülmüşdür) şəhəri əhalisi ilə birlikdə məhv olmuşdur. Atlantlar, indiki naviqasiya elminin əsasını qoysalar da, bütprəstliklə məşğul olub və okeandakı ağ balinaları özlərinə "tanrı" bilmişlər. Onlar da tək olan qüdrətli Allaha (c.c.) asi çıxmış və Onun elçilərini ağ balinaya "qurban" vermişlər.

Atlantlar düzəltdikləri üç dorlu yelkənli gəmiləri ilə Aralıq dənizindəki ölkələrə dağıdıcı basqınlar etmiş, hətta Misrədək üzüb getmişlər.

Allah (c.c.)-ın möcüzəsi ilə gecə ikən yer qabığı çatlamış və əfsanəvi Atlantida əraziləri okean sularında qərq olmuşdur. İndi yalnız əfsanəvi atlantlardan okeandakı Madera, Azor, Kanar və Yaşıl Burun adaları qalmışdır. (bax, Q.P.Qorşkov, "Zəlzələ", Bakı-1951 və J.Vern, "80.000 kilometr su altı ilə", Bakı-1948, s. 335)

> *"Bu, məmləkətlərin xəbərlərindəndir ki, sənə söylədik. Onların bəzisindən əsər-əlamət qalmış, bəzisi isə yerlə-yeksan olmuşdur. Onlar özləri-özlərinə zülm etdilər. Allahdan qeyri ibadət etdikləri tanrılar Rəbbinin əmri gəldikdə onlara heç bir fayda vermədi, əksinə, yalnız ziyanlarını artırdı."*
>
> QURAN, "HUD" SURƏSİ, AYƏ 100-101

Qədim Hindistanda Pançatanta (Brəhməniyyə) əhalisi bütpərəst idi. Allah (c.c.)-ın vəhyi ilə İskəndər Zülqərneynin qoşunları Gidasp çayı yaxınlığında bütpərəst hakim Taksilə qalib gəlir. Böyük İskəndər hakim Taksili öldürməyərək onun günahından keçir və özünə dilmanc götürür. Tezliklə brəhmənlər hindli sərkərdə Porun başçılığı

ilə rumlulara qarşı qiyama qalxırlar. İskəndər sevimli atı Bukefalın üstündə Gidasp çayını keçərək, nəhəng fillərlə gələn Porla döyüşə girir. Həmin döyüşlərdə İskəndər nizə ilə ayağından yaralansa da, Pora qalib gəlir və o ərazilərdə Allah (c.c.)-ın dinini yayır.

Böyük İskəndərin qoşunları Hindistandan çıxıb İrana qayıdarkən hindli brəhmənlər bütpərəstlik məbədlərini bərpa edib və yenidən oda sitayiş edirlər.

Bütpərəst və zalim hökmdar Dəbşəlim, brəhmənlərin məsləhəti ilə əhalini qul kimi işlədərək, üçüzlü nəhəng heykəllər, qüllələr və atəşprəstlik məbədlərini tikdirir. Tezliklə Allah (c.c.)-ın qüdrəti ilə Dəbəşəlim hökmdarın beş min sayda yaşayış məntəqəsi ilə on beş qəbiləyə məxsus olan xalqı, güclü zəlzələdən məhv oldular. (bax; Plutarx, "İsgəndr Zülqərneyn", Bakı-1993, s. 54).

Allah (c.c.)-ın İslam dinini buraxıb bütpərəstliklə məşğul olan və Allah (c.c.)-ın möcüzəsi ilə uçub-dağılan şəhərlərdən biri də, qədim Ktesifon (Mədain) idi. Qədim dünyanın inkişaf etmiş və mədəniyyət mərkəzi sayılan Mədain xalqı, Xosrov Ənuşirvan şahın (531-579 bizim era) hakimliyi dövründə Zərdüştün uydurma "Avesta" dininə inam gətirmişlər. Onlar atəşpərəst məbədlərində qız uşaqlarını kahinlərin qərarı ilə diri-diri yandırıb "qurban" verirdilər. Allah (c.c.)-ın haqq dinindən çıxdıqlarına görə Mədain şəhəri sübh vaxtı mələk Cəbrailin çığırtısı ilə uçub dağıldı.

> *"Biz neçə-neçə məmləkətləri (onların əhalisini) məhv etdik. Əzabımız onlara gecə (yatarkən), yaxud günün günorta çağı gəldi."*
>
> QURAN, "ƏRAF" SURƏSİ, AYƏ 4

Orta əsr Azərbaycan şairi Əfzələddin Xaqani (1126-1199) 1156-cı ildə Məkkəyə getmək niyyəti ilə İran, İraq və Suriyyanın şəhər və kəndlərini gəzir. Səfər zamanı o, "İki İraqın töhfəsi" və "Mədain xərabələri" adlı elegiyalarını yazmışdır.

"İbrətlə bax, ey könlüm, bu aləmə gəl bir an,

Eyvani-Mədaini ayineyi-ibrət sən.

Hər bülbülü bir bayquş, hər nəğməni bir növhə,

İzlər bu zaman içrə, buna, gəl, heyran.

Nuşirəvanın qanın hürmüz qafasında, bax.

İçmiş, belə məst olmuş torpaq dediyin ətşan.

Xaqani, bu dərgahdan sən daima ibrət al,

Ta almaq üçün ibrət gəlsin qapına xaqan.”

(Xaqani,”Mədain xərabələri”)

“Biz onlara bircə dəhşətli səs göndərdik, dərhal ağıl düzəldənin istifadə etdiyi quru ota döndülər.” (Quran, “Qəmər” surəsi, ayə 31).

Qədim atəşpərəst Azərilərin (Massagetlərin) hökmdarı qul qadın Tomiris, Xəzər (Abeskun) dənizi sahillərində möhtəşəm Səbail (Şabran) şəhərinin hakimi idi. Onlar Allah (c.c.)-ın doğru dinindən çıxaraq günəşə və ərazilərdə daimi yanan atəşə sitayiş edirdilər. Hökmdar, eramızdan əvvəl 530-cu ildə Midiya hakimi Kirə qarşı savaşa girir. Müharibədə qələbə çalan Tomiris öldürülmüş oğlunun intiqamı üçün, əsir düşmüş Kirə qan içirdərək onu öldürür. Bu münasibətlə Səbail xalqı ərazidəki məbəddə (həmin məbəd 18-ci əsrin əvvəlində hindli tacirlər tərəfindən bərpa edilmiş) atəşfəşanlıqla bayram edirlər. Həmin yer dövrümüzədək qalaraq, qədim dövrlərdə midiyalılar tərəfindən tikilmiş Suraxanı (əsl adı “Sur Anı”-dır ki, mələk İsrafilin yanar quyudan cıxacağı an (qiyamət vaxtı) quyudakı od sönəcəkdir) məbədidir.

Allah (c.c.)-ın haqq dinindən çıxan şəhərlilər, sübh vaxtı günəşin çıxmasını gözlərkən, mələk Cəbrailin tükürpədici səsi ilə məhv olub yerə batırlar.

> *Bir azdan gəlib dedi: "Sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara hökmdarlıq edən bir qadın gördüm. Ona hər şey verilmişdir. Onun çox böyük bir taxtı vardır. Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan əməllərini onlara gözəl göstərmiş, onları yoldan saptırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər. Göylərdə və yerdə pünhan olanı aşkara çıxardan, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə şeytan belə etmişdir. O böyük ərşin Rəbbi olan Allahdan başqa heç bir tanrı yoxdur!"*
>
> QURAN, "NƏML" SURƏSİ, AYƏ 22-26

Əgər Yer qabığından istiliyin çölə çıxmasına səbəb olmasaydı,

Yer üzündə yaşayış olmazdı.

(Harun Yəhya)

FƏSİL

İslamda elmlə təbiət maarifçiliyi



> *“Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu dirildir, oradan dənlər çıxardırıq, onlar da bundan yeyirlər.”*
>
> QURAN, “YASİN“ SURƏSİ, AYƏ 33

Bir gün Hz. Məhəmməd (ə.s.) peyğəmbər, sahəbələri ilə səfərdə ikən səhrada ocaq qurub od yandırmaq istəyir. O, yol yoldaşlarına çör-çöp toplamağı bildirir. Yol yoldaşları peyğəmbərə narazılıq edərək deyirlər ki; - “Bura boş bir səhradır, ətrafda çör-çöp də yoxdur.”

Hz. Peyğəmbər gülümsəyərək cavabında deyir;- “Hər kəs bacardığı qədər toplasın.”

Sahəbələr bu minvalla xeyli miqdarda yandırmaq üçün çör-çöp toplayırlar...

> *“Biz göydən yağış yağdırdıq və yerdə hər gözəl olan cütdən bir bitki yaratdıq.”*
>
> QURAN, “LOĞMAN“ SURƏSİ, AYƏ 10

Bilik can quşuna qanaddır, inan,

Ruhunu göylərə odur qaldıran.

Bilikdir ürəyə bu dünyada can,

Baş biliksiz olsa, olar bədgüman.

(M.Əhvədi, “Cami- cəm”)

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərin elm və təbiətə baxışları, 1400 il öncə yazıya alınmışdır.

Bütün bunlar onu göstərir ki İslam dini, insanları sağlamlığa, təbiət sərvətlərinin qorunmasına və dünyəvi elmlərə yiyələnməyə çağırır.

Peyğəmbərin elm və təbiətlə bağlı kəlamlarını ilk dəfə ingilis dilində toplayıb kitaba salan hindistanlı filosof A.Ə.Şöhrəverdi (1882-1935) olmuşdur.

Maraqlıdır ki rus yazıçısı L.M. Tolstoy vəfat edərkən paltarının cibindən A.Ə. Şöhrəverdinin fransızcaya tərcümə etdiyi “Məhəmmədin kəlamları” adlı kitabçası tapılmışdır.

Bəşərin sonuncu peyğəmbəri Hz. Məhəmməd (s.ə.s.) Məkkədən Mədinəyə hicrət edərkən (köçərkən) bütpərəstlər tərəfindən təqib olunmuşdur.

Hz. Peyğəmbərin gizləndiyi yol üstündəki mağaranın girəcəyində Allahın möcüzəsi ilə göyərçin, yuvasında yumurtlamış və hörümçək də tor atmışdır.

Qaçanları təqib edən atlılar mağara girəcəyindəki bunu görüb geri qayıdırlar. Beləliklə də peyğəmbər sağ-salamat Mədinəyə gedib çatır. Bütün bunlar isə həqiqət olaraq Allahın məxluqata məhəbbətindəndir.

Quranın “Yunis”lə “Səbə” surələrində (ayə 61 və 3-də), Allah-təala bildirir ki;- “...Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz...”

Bütün bu sözlərdə böyük həqiqət vardır. Dünyadakı gözə görsənməyən tək hüceyrəli mikrorqanizmlər (bakteriyalar, viruslar, göbələklər, yosunlar və s.) Yer üzündəki həyat nizamının əhəmillətli canlılarıdır.

Belə ki Yerdə həyatın olması üçün azot dövranını bakteryalar yaradır. Bitkilər kökləri ilə torpaqdan mineral qida maddələrini göbələklər vasitəsi ilə alırlar.

İnsanların qəbul etdikləri bəzi zərərli qidalardan zəhərlənmələrin qarşısını ağız boşluğunda mövcud olan bəzi antidot və ya antioksidant xassəli bakteryalar alır.

Mikroorqanizmlər üzvi maddələri parçalayaraq bitkilərin qidalanmasına şərait yaradır.

Bitkilərdəki fotosintez prosesində bakteryalar əsas köməkçi işləri (amilləri) yerinə yetirirlər.

Quranda Allah-təala heyvanlar və həşaratların bir-birləri ilə yaşayış tərzinin sistemli olmasını açıqlayır.

> *"Yerdə gəzən elə bir heyvan, iki qanadı ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın..."*
>
> QURAN "ƏNAM" SURƏSİ, AYƏ 38

Balaları yuvalarında (pətəkdə) təkcə bir ana arı bir neçə yüz erkək və on mindən də çox işçi arıdan ibarət həyat tərzini yaşayır.

Qarışqalar yuvalarında kaloniya (dəstə) ilə sosial həyat tərzini qururlar. Həşaratlar ilin isti aylarında yuvalarına yorulmadan "ərzaq" daşıyıb, qış aylarında korluq çəkmirlər.

Kiçik quşlar yırtıcı böyük quşlardan qorunmaq üçün, dəstə ilə uçub "düşməni" dəf edirlər.

> *"Şübhəsiz ki, toxumunda, çərdəyində cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxaran Allahdır..."*
>
> QURAN "ƏNAM" SURƏSİ, AYƏ 95

Ayədəki sözlərə görə, hər hansı bir canlı varlıq məhv olduqdan sonra mikroorqanizmlər tərəfindən "yeyilərək" torpağa çevrilir.

Ölmüş cəsədin tərkibindəki üzvü və qeyri üzvü maddələrin molekulları torpağa qarışaraq bitki kökləri vasitəsilə mənimsənilir və insan və heyvanların qida mənbəyinə çevrilir.

Bununla da Yer üzərindəki bakteriyalar təkrar qida istehsalı üçün doğrudan da Qurandakı sözlərlə "ölüdən diri, diridən də ölü çıxarır"lar fəaliyyət göstərirlər.

A.Ə. Şöhrəverdinin topladığı Hz.Məhəmməd (s.ə.s.) peyğəmbərin İslam maarifçiliyindəki elm və təbiət haqqındakı kəlamları, insanların sağlamlığı, təbiətə qayğı və dünyəvi elmlərin öyrənilməsinin vacibliyi bildirilir. Həmin kəlamlardan bir neçəsi aşağıda numunə kimi verilir:

- Mişvakla dişlərini təmizləyən insan, təmizləməyəndən yetmiş dəfə üstündür.
- Behiştin açarı namaz, namazın açarı isə dəstəmazdır (yuyunub təmizlənməkdir).
- Heyvanlarla davranışda mərhəmətli olun.
- Balalı heyvanlara rəhm edənin dünyadakı günahları bağışlanar.
- Ağac əkib becərmək, sədəqə, barından yedirtmək isə ehsandır.
- Allah pak və elmli olduğundan, pak və elmliləri də sevər.
- Alimlə cahilin məsuliyyəti eyni ola bilməz.
- Mömin yer şumlayıb ağac əkməli, quşlarla heyvanlar da bəhrələnməlidir.
- Ölü torpağı dirildən (şumlayıb becərən), əməyinin haqqını da torpaqdan almalıdır.
- Təcrübəsi olmayan bağbanın bağında bar olmaz.

Allah deyir ki;- "Mən gizli xəzinəyəm, istədim Yerdə tanınam, ona görə də insanı torpaqdan yaratdım".

- Torpağı sevməyən insan, Vətəni də sevməz.
- Xeyirxah olmayan alim, quru ağaca bənzər.
- Ömrünü elmə sərf edən mömin, hər iki dünyada diridir.
- Bilikli adam cahil dindardan üstündür.
- Özünü dərk edən, Allahı da dərk edər.
- Alimin qələminin mürəkkəbi, şəhidin qanından üstündür.
- Faydasız elm, lazımsız əşya kimidir.
- Addım atarkən zərif həşəratları öldürmək günahdır.
- Bitki də uşaq kimi qayğıya ehtiyaclıdır.

(A.Ə. Şöhrəverdi, "Məhəmmədin kəlamları")

> *(Ya peyğəmbər!), Məgər Allahın göydən yağış yağdırdığını, onu yer üzündəki bulaqlarla axıtdığını, sonra onunla növbənöv əkin yetişdirdiyini görmürsənmi?! Sonra o quruyar, sən onu saralmış görərsən. Sonra da (Allah) onu çör-çöpə döndərər. Həqiqətən, bunda ağıl sahibləri üçün ibrətlər vardır !"*
>
> QURAN, "ZUMƏR" SURƏSİ, AYƏ 21

"Həqiqət uzanar, ancaq qırılmaz."

(Hz. Əli (r.ə.))

FƏSİL

Nəticə



> *"..Allaha şərik qoşana, Allah, şübhəsiz ki Cənnəti haram edər. Onun girəcəyi yer Cəhənnəmdir. Zalimlərin heç bir köməkçisi yoxdur!"*
>
> QURAN,"MAİDƏ" SURƏSİ, AYƏ 72

İslamda ən böyük günah sayılan o əməldir ki, bəzən möminlər bunu dərk etmirlər. Həmin günah, ibadət zamanı Allah (c.c.)-ı qoyub, adi insanlara tapınmaqdır.

Mömin müsəlmanlar çox vaxt dua edərkən peyğəmbər, imam və səyyidlərdən imdad istərlər. Quran bu cür duaları ən böyük günah sayır.

> *"Əgər siz onları çağırsanız, onlar sizin çağırışınızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər.*
> *Özləri də qiyamət günü sizin (onları Allaha) şərik qoşduğunuzu danacaqlar..."*
>
> QURAN, "FATİR" SURƏSİ, AYƏ 14

Allahdan başqa qeyrisinə dua etmək günahdır.

> *"Rəbbiniz buyurdu: Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!..."*
>
> QURAN, "MUMİNUN" SURƏSİ, AYƏ 60

Məscidlərdə bir-birinizə dua edib salavat vermək günahdır. Salavat, yalnız Allahın adı ilə sonuncu peyğəmbərə aiddir.

> *"Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə dua etməyin!"*
>
> QURAN, "CİN" SURƏSİ, AYƏ 18

"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər! Siz də ona salavat göndərib layiqincə salamlayın!" (Quran, "Əhzab" surəsi, ayə 56).

Qurban kəsib ətini ehsan etmək, yalnız Allah (c.c.) üçün (rızasına) olmalıdır. Əks təqdirdə, qurbanlıq ət qəbul olmaz. Qurbanlıq heyvanlar cavan və sağlam olmalı, halallıqla alınmalı, niyyət edilən yerdə, üzü qibləyə tərəf kəsilməlidir. Lazımdır ki, qurbanlıq heyvan kəsən şəxs mömin olsun, qurban duası oxusun və "Allah rızası üçün qurban kəsirəm qürbətən iləllah" deməklə, işə başlasın.

"Rəbbin üçün namaz qıl və qurban kəs !" (Quran, "Kövsər" surəsi, ayə 2).

İnsanların əhdə əməl etməmələri, yalan danışmaları, göz muncuğu taxmaları və Allah (c.c.)-a qarşı qeyb işlərlə maraqlanaraq falçılara, cadugərlərə inanmaları, İslamda günah sayılan əlamətlərdir.

Möminlər bilməlidir ki, bütün falçılar Şeytanın dostlarıdır.

"Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün (ulduzlarla) bəzədik. Onları hər bir məlun, hər bir şeytandan qoruduq. Lakin kim xəlvət qulaq assa, onu odlu bir axan ulduz təqib edər." (Quran, "Hicr" surəsi, ayə 16-18).

Mömin müsəlmanlar namaz qılaraq oruc tutmalı və Allah (c.c.)-a ibadət etməlidir. Budur onların dünyadakı nicat yolu.

Allah-təalanın möminlərə vacib bildiyi gündəlik sübh, zöhr, əsr, şam və xüftən namazları vaxtında (əda) qılınmalıdır.

Möminlərə vacibdir ki, Ramazan ayında oruc tutsunlar. Hər kəs üzürlü səbəbdən həmin ayda oruc tuta bilməsə, əvəzini başqa aylarda ödəməlidir.

“Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə pis əməllərdən çəkinəsiniz.” (Quran, “Bəqərə” surəsi, ayə 183).

İslam dini beş əsas üzərində qurulmuşdur. Onlar; Allah (c.c.)-ın varlığını təsdiq etmək, Ona ibadət etməklə Hz. Məhəmməd (s.ə.s.) peyğəmbəri Allah (c.c.)-ın qulu və elçisi kimi şəhadət gətirmək və namaz qılaraq oruc tutmalı, zəkat verərək həccə gedilməlidir.

“(Ya peyğəmbər!), De: -“Mən sizdən bunun müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm...” (Quran, “Şura” surəsi, ayə 23.

Müsəlmanların əvvəlinci peyğəmbəri Hz.Adəm (ə.s.), sonuncusu isə Hz.Məhəmməd (s.ə.s.) peyğəmbər (Miladi 571-632) idi. O, Rəbbiül-Əvvəl ayının 12-də Məkkədə anadan olmuşdur. Peyğəmbərin atası Abdullah ibn Əbdülmütəllib, anası isə Aminə ibn Vəhəbdir.

Hz. Məhəmməd (s.ə.s.) doğulanda asimanda yeni bir ulduz yaranmış, atəşpərəst İran şahının sarayındakı 14 sayda bürcləri uçmuş və Zərdüşt məbədindəki yerdə çıxan od sönmüş, Səmavi vadisini sel basmış, Sova gölü qurumuş və bütpərəst hakimlər taxtından yıxılmışdır. Uşağın bir yaşında atası Abdullah, Suriyadan ticarətdən qayıdanda, Mədinə yaxınlığında Dare-Nəbiqə məntəqəsində qəflətən vəfat etmişdir.

Atadan yetim qalan Məhəmməd (s.ə.s.) üç yaşa girəndə, anadan da yetim qalır. Babası Əbdülmütəllib uşağı tərbiyələndirmək üçün “süd anası” Həliməyə verir. Məhəmməd (s.ə.s.) süd anası Həlimə xanımın tərbiyəsi ilə yüksək əxlaqa malik bir şəxs kimi böyüyür, hər yerdə doğru danışan (Məhəmməd əmin) kimi tanınır.

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərin həyatında 12 kəbinli xanımı olmuşdur ki, onlar aşağıdakılardır:

Xanım Xədicə (r.ə.); Peyğəmbərin 25 yaşı olanda, ilk xanımı Xədicə isə 40 yaşında idi. O, ilk müsəlman qadın olaraq ərinə qarşı hədsiz vəfalı olmuşdur. 25 il evlilikdən sonra Mədinədə vəfat etmişdir. Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərin xanımı (zövcəsi) Xədicədən doğulan uşaqlar: Qasım, Zeynəb, Abdullah, Ruqəyyə, Ümmü-Gülsüm və Fatimə idi. Onlardan yalnız xanım Fatimə sağ qalmışdır ki, əri Hz. Əli (r.ə.)-dən Həsənlə Hüseyn adlarında uşaqları olmuşdur.

Sevda binti Zema (r.ə.); Onun əri Həbəşistana səfər zamanı ölmüş və dul qalmışdır. 55 yaşında kimsəsiz qadın kimi Peyğəmbərə ərə gəlmişdir.

Aişə (r.ə.); Hz. Peyğəmbərin həyatında evləndiyi ilk bakirə qadın olmuşdur. O, Hz. Əbubəkrin ilk qızı kimi ərinə qarşı mehriban və qayğıkeş idi.

Hafsa binti Ömər (r.ə.); O, dul qadın kimi Peyğəmbərə ərə gəlmiş, ilk əri Bədir savaşında şəhid olmuşdur. Hafsanın atası Hz. Ömər dul qızını əvvəl Hz. Osmana, sonra isə Hz. Əbubəkirə ərə vermək istəsə də, hər ikisi imtina etmişlər.

Zeynəb binti Huzeymə (r.ə.); Peyğəmbər zövcəsi Hafsadan sonra Zeynəblə evlənmişdir. Onun ilk əri Ubeydə Bədir savaşında şəhid olmuşdur. Kimsəsiz qalan 60 yaşlı Zeynəb, Peyğəmbərə ərə gəldikdən iki il sonra vəfat etmişdir.

Ümmü Sələmə (r.ə.); İlk müsəlman kimi əri ilə birlikdə Həbəşistana, sonradan da, Mədinəyə hicrət etmişdir. İlk əri Ühud savaşında şəhid olmuş, Hz.Ömərlə Hz.Əbubəkir onu almaq istəsə də, Peyğəmbərə ərə getməsinə razılıq vermişdir. Peyğəmbər Ümmü Sələməni alıb, yetim qalmış uşaqlarına da atalıq etmişdir.

Ümmü Həbibə (Rəmlə binti Əbu Süfyan) (r.ə.); Məkkə hakimi bütpərəst Əbu Süfyanın qızıdır. O, müsəlmançılığı qəbul etmiş ilk əri ilə Həbəşistana hicrət etmiş, orada xaçpərəstliyi qəbul edən əri ölmüşdür. Hadisədən xəbər tutan Peyğəmbər, Həbəşistan kralı Necəşiyə xəbər göndərərək dul qalmış Rəmlə ilə evlənməsinə icazə istəmişdir. Həbəş kralı Necəşi Rəmlənin razılığı ilə onların nigahını elan etmişdir. Ümmü Həbibə (Rəmlə) Mədinəyə gələrək müsəlmançılığı qəbul etmiş və Peyğəmbərin sevimli arvadı olmuşdur. Bundan xəbər tutan Əbu Süfyan, qızına və müsəlmanlara qarşı qeyzlənmişdir. Hz. Peyğəmbərin bu qadınla evlənməsi gələcəkdə əməvilərin də, müsəlmançılığa meylini artıracaq.

Cüveyriyə binti Haris (r.ə.); Müsəlmanlar tərəfindən Mürəysi bölgəsində savaşdan sonra xeyli qənimətlə geri dönəndə, 700-ə qədər də əsir gətirilmişdir. Əsirlərin içərisində Bəni Mustalıq qəbilə başçısının Cüveyriyə adında qızı da var idi. Qız, yəhudi Haris ibni Dıranın övladlarından biri idi. Cüveyriyənin ilk əri Musafi ibni Saffan olmuş, Mürəysi savaşında öldürülmüşdür. Cüveyriyə Peyğəmbərdən azad olunmasını xahiş etmiş və O, qız üçün fidyə (pul) verərək, onu əsirlikdən azad etmişdir. Atası gəlib qızını aparmaq istədikdə, müsəlmançılığı qəbul edərək

Mədinədə qalmışdı. Hz. Peyğəmbərin 60 yaşında dul qadın Cüveyriyə ilə evlənməkdə məqsədi yəhudiləri də müsəlmançılığa cəlb etmək idi.

Zeynəb (Səfiyyə) binti Huyey (r.ə.); O vaxtın savaşlarında Peyğəmbərə düşən qənimət payına səfiyyə deyildiyindən, bu xanımı da "Səfiyyə" çağırmışlar. Zeynəbin valideynləri yəhudi olub, atası Nadir oğullarının başçısı, anası isə Kurəyzə oğullarının başçısının qızı idi. Zeynəbin atası ilə əri, Heydər Gəzvəsindəki savaşda müsəlmanlar tərəfindən öldürülmüş və qohumları əsir götürülmüşdür. Dul qalan Zeynəbin müsəlmanlara kini olsa da, Peyğəmbərin təklifi ilə ona ərə gedir və ədavətə son qoyulur.

Mariyə-Kıbtiyyə (r.ə.); İslama dəvət üçün Peyğəmbərin məktubları ətraf ölkələrə göndərilirdi. Misir hökmdarı Mukavkis məktubu alıb, peyğəmbərə iki kənizini hədiyyə göndərir. Mədinədə kənizlər müsəlmançılığı qəbul edirlər. Peyğəmbər Mariyə ilə Bilal isə digər kənizlə evlənirlər.

Meymunə (Bərrə) binti Haris (r); Peyğəmbərin son xanımı kimi, adını Meymunə deyərək çağırmışdı. Tarixi Hüdeybiyə müqaviləsindən bir il sonra, Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərlə müsəlmanlar Məkkəyə Həcc ziyarətinə getmişlər. Məkkədə peyğəmbərin əmisi oğlu Abbas, dul qalmış baldızı Bərrə ilə onu evləndirir. Məkkəlilər bunu görüb belə deyirlər: " - Deməli, Məhəmməd həmyerliləri ilə dostluq etmək istəyir..." Peyğəmbərin bu son evlənməsi onun altmış yaşına təsadüf etmişdir.

Bərrə (Zeynəb) binti Cahş (r.ə.); Xanım Bərrə Peyğəmbərin xalasının qızı olub, ondan 20 yaş böyük idi. Peyğəmbər xanımın adını Zeynəb qoymuşdu. Bərrənin atası Bəni Əsəd qəbiləsindən, anası isə Peyğəmbərin xalası Üməyyə binti Əbdülmütəllib idi. Bərrə də Məkkədən Mədinəyə müsəlmanlarla bərabər hicrət etmişdir. Məhəmməd (s.ə.s.) peyğəmbər xalaqızısı Zeynəbi oğulluğu Zeyd ibn Harislə evləndirmək istəyir. Onların heç biri bu işə razılıq vermirlər. Peyğəmbərin xalaqızısı Zeynəbə himayədarlıq üçün onun nigah kəbinini özünə kəsir. Xanım Zeynəb öncə Peyğəmbərin oğulluğunun keçmiş istəklisi olduğundan, onun bu istəyi müsəlmanlar arasında narazılığa səbəb olur.

Bu narazılığa son qoymaq üçün Peyğəmbərə aşağıdakı vəhy gəlmişdir;

"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs,

şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!”

“(Ya Peyğəmbər!), Xatırla ki, bir zaman Allahın nemət verdiyi və sənin özünün (köləlikdən azad etməklə) nemət verdiyin şəxsə (Zeyd ibn Harisə): “Zövcəni (Zeynəb bint Cəhşi) saxla (boşama), Allahdan qorx!”-deyir, Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayır və adamlardan (onların Peyğəmbər oğulluğunun boşadığı övrətlə evlənir, - deyəcəklərindən) qorxurdun. Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq Allahdır. Zeyd zövcəsi ilə əlaqəni kəsdikdə (Zeynəbi boşadıqda), səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik (günah) olmasın! (Bu işdən möminlərə heç bir günah gəlmədiyini bildirmək üçün belə bir övrətlə birinci səni evləndirib bütün müsəlmanlara nümunə etdik). Allahın hökmü mütləq yerinə yetər!”

“Allahın Peyğəmbərə vacib (halal) buyurduğu bir şeydə (Zeynəblə evlənməkdə) ona heç bir günah yoxdur. Daha öncə gəlib-getmiş (Davud, Süleyman və başqaları kimi) peyğəmbərlər barəsində də Allahın qayda-qanunu (sünnəsi) belədir. Allahın əmri əzəli hökmdür! (O, mütləq yerinə yetməlidir!).

“O Peyğəmbərlər ki, Allahın hökmlərini təbliğ edər, Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir.”

“Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. (Oğul odur ki, kişinin öz belindən əmələ gələ!) Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!” (Quran, “Əhzab” surəsi, ayə 36-40).

Hicrətin 61-ci ilində Məhərrəm ayının 10-cu günü (Aşura günü), İmam Hüseyn (ə.s.) 55 yaşında İraqın Kərbəla çölündə Yəzid Müaviyə oğlunun əmri ilə, xain Sinan min Ənəs tərəfindən öldürülərək şəhid olmuşdur. (bax; “İslam tarixi, “Qum-(hicri) 1376).

“(Allah) onları doğru yola müvəffəq edəcək, onların əhvalını düzəldəcəkdir. Və onları özlərinə tanış olduğu Cənnətə daxil edəcəkdir.” (Quran, “Məhəmməd” surəsi, ayə 5-6).

Müsəlman təvqvimində Məhərrəm ayı ilin başlanğıc (əvvəlinci) ayı sayılır, onun onuncu günü Aşuradır. Həmin gündə Allah (c.c.), Quranın Fəcr surəsində and verərək, o günün fəzilətlərini bildirmiş. Maraqlıdır ki, İslam tarixində həmin gündə on sayda möcüzə baş vermişdir ki onlar aşağıdakılardır:

Hz. Musa (ə.s.) Aşura günündə (Məhərrəmin 10-da) əlindəki əsa ilə Nil çayının sularını yarmış və Firon əskərləri ilə birlikdə suda boğulmuşdur.

Hz. Nuh (ə.s.) "Nuh Tufanı" zamanı nəhayətsiz sularda gəmisi ilə üzərək məhz Aşura günü Cudi dağında dayanmışdır.

Hz. Yunis (ə.s.) günahının bağışlanmasına görə oxuduğu tövbə duası Allah (c.c.) tərəfindən Aşura günü qəbul olunmuş və o, balığın qarnından qurtulmuşdur.

Hz. Adəm (ə.s.) Cənnətdən qovulduqdan sonra Yerdə tövbə duası Aşura günü qəbul olunmuşdur.

Hz. Yusif (ə.s.) qardaşları tərəfindən atılmış quyudan Aşura günündə çıxmışdır.

Hz. İsa (ə.s.) Aşura günü doğulmuş və həmin gün də qeybə çəkilmişdir.

Hz. Davud (ə.s.)-un Aşura günü tövbə duası qəbul olunmuşdur.

Hz. İbrahim (ə.s.) ilə oğlu Hz. İsmayıl (ə.s.) Aşura günü anadan olmuş və həmin gün "Zəmzəm" bulağı yaranmışdır.

Hz.Yaqub (ə.s.)-un oğlu Hz.Yusif (ə.s.)-in dərdindən tutulmuş gözləri Aşura günündə açılmışdır.

Hz.Əyyub (ə.s.) Aşura günündə möcüzəvi suda çimməklə illərlə əzab çəkdiyi dəri xəstəliyindən sağalmışdır.

> *"And olsun dan yerinə, and olsun on gecəyə..."*
>
> QURAN, "FƏCR" SURƏSİ, AYƏ 1-2

İslam tarixində Allah-təala tərəfindən 124 min peyğəmbər göndərmişdir ki, müqəddəs Quranda adları çəkilənlər aşağıdakılardır:

Adəm (ə.s.), İdris (ə.s.), Nuh (ə.s.), Hud (ə.s.), Saleh (ə.s.), İbrahim (ə.s.), Lut (ə.s.), İsmayıl (ə.s.), İshaq (ə.s.), Yaqub (ə.s.), Yusif (ə.s.), Əyyub (ə.s.), Şuəyb (ə.s.), Musa (ə.s.), Harun (ə.s.), Davud (ə.s.), Süleyman (ə.s.), İlyas (ə.s.), Əlyasa (ə.s.), Zülkifl (ə.s.), Zəkəriyyə (ə.s.), Zülqərneyn (ə.s.), Yunis (ə.s.), Yəhya (ə.s.), İsa (ə.s.) və Məhəmməd (s.ə.s.) peyğəmbər.

> *(Ya Məhəmməd !) Xatırla ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" - demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən idi. Öz Rəbbinin əmrindən çıxdı. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və nəslini dostmu tutursunuz? Bu zalimlər üçün necə də pis dəyiş –düyüşdür !"*
>
> QURAN, "KƏHF" SURƏSİ, AYƏ 50

Ayədən məlumdur ki İblis, cin nəslindən olub, qiyamətədək Allah (c.c.)-dan möhlət almışdır.

Dünyada Allah (c.c.)-ın hökmlərini unudanlar qiyamətdə İblisin ardınca Cəhənnəmə gedəcəklər. Ora çox pis yerdir. Yalnız möminlər İblisi özlərindən Bismillah deməklə uzaqlaşdıra bilərlər.

"Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərrindən. O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. (O Şeytan ki,) cinlərdən də olur, insanlardan da." (Quran, "Nas" surəsi, ayə 4-6).

Dünya həyatında Şeytanın "açıq qapıları" vardır ki, onlar, cəhalət, qəzəb, həzz almaq, yəqinlik, acgözlük, hərislik, xəsislik, təkəbbür, aludəçilik, xudbinlik, ehtiras və Yaradana ümüdsizlikdir.

Hər kim bu "qapılardan" keçərsə şübhəsiz Şeytanın dostudur.

Dünyada Şeytana qarşı alınmaz qalalar da vardır ki, onlar, ixlas, Allah (c.c.)-a ibadət, möminlərin birliyi, camaat namazı, Yaradana güvənmək, xoş əməllər, sirrləri məxfi saxlamaq, Quranı düzgün oxumaq və sairə.

Allahın Quran kitabı oxunan evə Şeytan yaxın düşə bilməz. (Hz. Əli (r.ə.).)

İblis (Şeytan) və onun şərr əməlləri nəyə görədir ?

Belə suallara cavabı yalnız Quran ayələri ilə vermək olar.

"(Allah) gördüyü işlər barəsində sorğu-sual olunmaz; onlar (bəndələr) isə (tutduqları əməllərinə görə) sorğu-sual ediləcəklər." (Quran, "Ənbiya" surəsi, ayə 23).

Niyə Allah İblisi və ondakı şərr əməlləri yaratmışdır? Məgər pis işlər özlüyündə elə şərr əməllər deyilmidir ?

Bu sualın cavabı çox sadədir. Bilmək lazımdır ki, şərrin (Şeytanın) yaradılışı şərr deyil, pis işləri eləmək şərrdir. Çünki Allah (c.c.) hər bir şeyi yaradanda şərr üçün yaratmamışdır.

Məsələn, İblis tüstüsüz oddan yaradılmışdır ki, od (atəş) özü şərr iş deyil. Lakin oda toxunan şərrə (bəlaya) düşə bilər. Kamil insan odu mühafizə edə bilsə ondan faydalana bilər.

Daha sonra göydən yağan yağmur rəhmətdir ki, ondan torpaq cana gəlir. Bitkilər islanmış torpaqda göyərir, yağmurdan sonra isə hava təmizlənir. Lakin yağış yağdığı yerlər (örtüklər) islanır, sellər gəlir, yollar və əkinlər dağılır. Bütün bundan sonra isə adamlar yağmura (şərr) bəd dua edirlər. Bilmək lazımdır ki, bütün yaxşı və pis işləri Allah (c.c.) insanların əməllərinə görə verir.

İnsana Alla-təala əql (şüur) vermişdir ki, nəfsi ilə cihad edib ona qalib gəlsin.

Bu dünya həyatı axirətin tarlası sayılır ki, insanlar əməllərinə görə Cənnət və Cəhənnəmin meyvələrindən dada bilsinlər. Təqvalı əməli saleh insanlar şübhəsiz ki Behişt əhli olacaq, bəd əməl təqvasızlar isə Şeytanın dostları kimi Haviyəyə atılacaqlar. Ora necə də pis yerdir.

Bildiyimiz kimi təbitdəki yer altından çıxarılan daş kömürlə qiymətli daş-qaş olan almazın hər ikisinin kimyəvi quruluşu eynidir, hər ikisinin əsas elementi karbondur. Lakin almaz, qara daş kömürdən gözəl və cazibədardır. Elə buna görə də bütün insanların zatı eynidir.

Dərisinin rəngindən və cinsindən fərqli olmayaraq insan elə insandır. Lakin Dünya həyatında əməllərinə görə biri daş kömür kimi qara hisli, digəri isə almaz kimi bərq vuran təmiz və saf insandır.

İnsan bilməlidir ki Dünya həyatında səbəblə nəticə vardır.

İnsan Şeytana uyaraq özünü zərərə salıb, “buna səbəb yaradan və onu edən kimdir?” sualında, Şeytanı pis varlıq kimi özündə görüb məsuliyətə düşür. Qiyamətdə isə əməli pis insanla bərabər Şeytan da, Cəhənnəmə düşüb əzabı çoxalacaqdır.

Şübhəsiz ki, Şeytan insanları azdırmaqla özü ilə bərabər azdırdıqlarını bəlaya salıb günahlarını artıracaq.

Allah-təala Şeytana belə pis əməlləri verməyə də bilərdi. Lakin onda Şeytanın vəzifəsini, insan nəfsinə görə boynuna götürmüş olardı.

Şeytan ona verilmiş Allah (c.c.)-ın fürsəti ilə qiyam-qiyamətədək çox böyük zərərə uğrayanlardandır.

O, qiyam-qiyamətdə əməli bəd insanlarla (tərəzisi yüngül gələnlərlə) bərabər cəzasını da çəkəcəkdır.

“(Ya Rəsulum!) Xatırla ki İbrahim;-“Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!”-dedikdə (Allah): “-Məgər inanmırsan?” -buyurmuşdu. (İbrahim:) “Bəli, inanıram, lakin ürəyimin sakit olması üçün (soruşuram)”- deyə, cavab vermişdi.” (Quran, “Bəqərə” surəsi, ayə 260).

Quranda qiyam-qiyamətin yaxınlaşması da bildirilir ;

“O saat (qiyamət) yaxınlaşdı və ay parçalandı.” (Quran, “Qəmər” surəsi, ayə 1).

On dörd yüz il öncə Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər qiyamətin olacağını müsəlmanlara bildirmişdir.

“Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; Yer öz yükünü çıxardıb atacağı zaman; İnsan: “Buna nə olub? “-deyəcəyi zaman; -Məhz o gün (yer) öz hekayətini söyləyəcəkdir. Çünki ona sənin Rəbbin vəhy etmişdir !” (Quran, “Zəlzələ” surəsi, ayə 1-5).

Qiyamətdən əvvəl Dünyada Quranın şəkli, İslam dininin isə adı qalacaqdır.

Dünyadakı haram şeylər halal sayılacaq. İnsanlarda yaxşılıqlar pisliklə əvəz olacaq. Məscidlərdə təqvalı möminlərin sayı azalacaq. Oradakı oxunan dualar, yalnız riyakar (ikiüzlü) ruhanilər tərəfindən hakimlərə ediləcəkdir. Baxıcı və falçılar çoxalaraq insanları aldadacaqlar.

Quranda deyildiyi kimi, göydə Ay parçalanacaq, Günəş tam tutulacaqdır. Göydə quyruqlu ulduzların sayı artacaq. Müqəddəs Kəbədə nahaq qanlar axıdılacaq.

Məkkədəki müqəddəs Zəmzəm bulağının suyu tükənərək, orada saxtakarlar tərəfindən "zəmzəm suyu" satılacaq və sairə.

Hicri tarixi ilə 1400-cü (miladi 1980-cı) ildən Dünyaya Hz. Mehdi (r.ə.) gələcəkdir. Tezliklə qeyri müsəlman ölkələrdə çaxnaşma (qorxu) yaranacaq. İstanbul şəhəri yaxınlığında iri gəmi partlayacaq. ABŞ-da nəhəng (uca) binalar uçurularaq, arada günahsız insanlar öləcəkdir.

Hz. Mehdi (r.ə.)-nin insanlara göstərdiyi sonsuz qayğı, mərhəmət və məhəbbətindən İslam dininə meyil güclənəcək, müsəlman hakımlərinin səyləri sayəsində də inkişaf etmiş ölkələrdə İslam dini geniş yayılacaqdır.

Nəhayət Hz. İsa (ə.s.) peyğəmbər dünyaya qeybdən gələcək (təxminən miladi tarixi ilə 2015-2020-ci ildə).

"O vaxt Allah buyurdu: "Ya İsa, həqiqətən Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldıraram, səni kafirlərdən pak edərəm. Sənə iman gətirənləri qiyamət gününə qədər kafirlərə qalib edərəm. Sonra isə Mənim hüzuruma qayıdacaqsınız. O zaman ixtilaf etdiyiniz məsələlər barəsində aranızda Mən hökm verəcəyəm !" (Quran, "Ali-İmran" surəsi, ayə 55).

Hz. İsa (ə.s.) peyğəmbər Hz. Mehdi (r.ə.) ilə Dəccalı (Şeytanı) Qüdsdə (Şam yaxınlığında) tutacaq və öldürəcəkdir. Beləliklə Dünyada 40 il sürəcək "Qızıl Dövr" başlamış olacaqdır.

Daha sonra Hz. İsa (ə.s.) peyğəmbər ailə quracaq və bir müddət dünyada yaşadıqdan sonra vəfat edəcəkdir. "Qızıl Dövr" bitdikdən sonra insanlar yenidən dindən çıxacaq və küfrə girəcəklər. Kəbə dağılacaq və insanlar kafirliyin ən uc nöqtəsində gəzəcəklər (Allah (c.c.) Axirət baş verməsi üçün dünyanın taleyini belə yazmışdır, çünki dünyada hərşey səbəb-nəticə üstünə qurulubdur). Allah (c.c.) Qurani Kərimi digər səmavi kitablar kimi qeybə çəkəcək və hicri 1500-dən sonra dünyada müsəlman yaşamayacaqdır. Sadəcə kafirlər qalacaqlar, çünki Qiyaməti heç bir müsəlman görməyəcəkdir. Hicri tarixlə 1545-də (təqribi olaraq) Qiyamət qopacaqdır (Harun Yənha).

Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər Dünya həyatı haqqında belə demişdir: -"Bu Dünyada möminlər özlərini "cəhənnəmdə", kafirlər isə "cənnətdə" görərlər. Dünya

axirət əhlinə, axirət isə dünya əhlinə haramdır.”

İslam dinində dünyadakı xalqlara qarşı qırğınlar qəti şəkildə pislənilir. Allah-təala insanları bir-birindən ayırmayaraq, İnsanı Yer üzünün “əşrəfi” sayır və xalqlar arasında bir-birlərinə məhəbbətin olmasını istəmişdir.

Şübhəsiz Allahı eşıtməyənlər Şeytanın yolu ilə gedən canilərdir.

İslam dinində xalqlara qarşı terrorçuluq və amansız qəddarlığa yol verilmir.

İslam dinində cinayətkarlıq günah bilinir.

İslam dini yer üzərindəki insanları bərabərliyə, birliyə, rahatlığa, ədalətə və sülhə çağırır.

İslam dini insanlar arasında sülhün və təhlükəsizliyin mənbəyidir!

“Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!” (Quran, “Bəqərə” surəsi, ayə 208).

Quran əxlaqına görə, müsəlmanlar bütün insanlarla ədalətli və mehriban olmalı, zəif və günahsızları qorumalıdırlar.

“Allah fitnə-fəsad sevməz !” (Quran, “Bəqərə” surəsi, ayə 205).

“Allahın verdiyi ruzidən yeyin-için, amma yer üzündə öz həddinizi aşaraq fəsad törətməyin!” (Quran, “Bəqərə” surəsi, ayə 60).

Allah-təala Quranda bütün müsəlmanlara bir-birinə qarşı mehriban olmağı, əxlaqlı davranmağı və ədalətli olmağı əmr etmişdir.

“...Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən Allah fitnə-fəsad törədənləri sevməz !” (Quran, “Qəssas” surəsi, ayə 77).

Müsəlmanlar hər hansı bir millətə qarşı qəzəb və kinli olmayıb, ədaləti, tolerantlığı (dini və dili ayrılara dözümlü olmağı) həmişə uca tuturlar.

Bundan başqa, İslamda fərdlərin fikir (söz) azadlıqları da müdafiə edilir.

“Dində məcburiyyət yoxdur, şübhəsiz, doğruluq azğınlıqdan fərqlənir.” (Quran, “Bəqərə” surəsi, ayə 256).

Din bayrağı altında xaçpərəst səlibçilər XI əsrin axırlarında Fələstin ərazilərinə hərbi yürüş edərək Qüdsdə 40 mindən çox günahsız insanı öldürmüşlər. Onlar azğınlaşaraq dördüncü yürüşlərində Bizansın Konstantinopol (İstanbul) şəhərini tutmuş, kilsə və məscidləri dağıdaraq qiymətli əşyalarını aparmışlar.

Xaçpərəstlərin müqəddəs bildikləri “İncil” (Bibliya) kitablarında belə yazılmışdır:- “Düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin.” (Mattanın İncili, 5 (44) və ya “Bir üzünə sillə vurana digər üzünü də çevir.” (Lukanın İncili, 6 (29). (bax; H. Yəhya, “İslam terroru lənətləyir. “İstanbul - 2006, s.20).

İyirminci əsrdə iki dəfə dünya savaşları olmuşdur.

Bədnəzərdən qorunma, dua və gözmuncuğu. İnsanlar bəzən şər işlərdən qorunmaq üçün müxtəlif əşya və üsullardan istifadə edirlər ki, bunlar günahdır. Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər demişdir ki;

“Dua və ya gözmuncuğu asan, Allaha şərik qoşmuş olur.”

“Allahdan başqa özlərinə dost qəbul edənlər özünə yuva qurmuş hörümçəyə bənzəyirlər. Evlərin ən zəifi isə, şübhəsiz ki, hörümçək yuvasıdır...” (Quran, “Ənkəbut” surəsi, ayə 41).

Yaxşı olar ki, müxtəlif şər işlərdən qorunmaq üçün möminlər, Qurandakı İxlas, Fələq, Nas surələrini və Bəqərə surəsindəki “Ayətəl-Kürsi” duasını tez-tez oxusunlar.

Qəlbdə şirk, əsasən riyakarlıq, şöhrətpərəstlik kimi hallardır ki, bu da günah sayılır.

“De: “Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümüd bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın !”

Xəfif (gizli) şirk. Hz. Məhəmməd (s.ə.s.) peyğəmbər söyləmişdir ki; -“Ümmətimdəki gizli şirk qarışqanın əs-Səfa dağında qoyduğu izdən daha görünməzdir.”

Xəfif və ya gizli şirk, insanın dostuna “Allah və sənin köməyinlə”, “Allah və sən (filankəs) olmasaydı” kimi ifadələrin deyilməsidir.

FƏSİL 9

İnsanları günaha çəkən əməllər



Sehrbazlıq, insanlara təsir edən günah əməllərdəndir. Sehrbazlar İslamdan çıxaraq dünyada kafir kimi tanınırlar, qiyamətdə isə sorğu-sualsız cəhənnəmlikdirlər.

“(Yəhudilər) Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına uydular. Süleyman kafir olmadı, lakin şeytanlar (bildikləri) sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular...”(Quran, “Bəqərə” surəsi, ayə 102).

Kahinlik və falçılıq. Kahinlər və falabaxanlar guya ki, qeybdən xəbər verməklə insanları aldadırlar. Onların hər ikisi dünyada kafir olaraq, inananlar isə kiçik günahkarlardır.

“Ey iman gətirənlər! (Sərxoş edən) içki də, qumar da, bütlər də, fal oxları da, Şeytan əməllərindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!” (Quran, “Maidə” surəsi, ayə 90).

“(Ya Məhəmməd!) De: “Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!...” (Quran, “Nəml” surəsi, ayə 65).

Fala baxanlara uyub onlardan nə isə soruşan möminin, qırx günlük ibadətləri heçə gedər. (bax, Müslim, “Namaz” 35-ci fəsil, 4, 175).

Münəccimlik göydəki ulduz və bürclərin özbaşına təsirli olmasına inanmaq böyük günah işidir.

Münəccimliklə məşğul olub qeybdən “xəbər verənlər”, böyük günah qazanaraq İslamdan çıxanlardır.

“Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün (ulduzlarla) bəzədik. Onları hər bir məlun hər bir şeytandan qoruduq. Lakin kim xəlvət qulaq assa, onu odlu bir axan ulduz təqib edər “ (Quran, “Hicr” surəsi, ayə 16-18).

“...Ya Əli” sözünə aludəçilik. İctimi nəqliyyat vasitələrində, ziyarətgah və məscidlərdə “Allah, Məhəmməd, ya Əli “sözləri yazılmış “dualara” tez-tez rast gəlirik. İnsan dünyadan hər an gedə biləcəyini düşünərək Allahı, peyğəmbəri və imamları xaytırlayır. “Ya Əli!“ deməklə, imam Əli (r.ə.)-ni Allah (c.c.) və peyğəmbərdən uca tutur və bununla günaha batırıq. Yaxşı olardı ki, “Ya Allah, Ya Məhəmməd, Ya Əli!” nidasının yerində, yalnız “Ya Allah!” deyilsin. Çünki Allah təkdir və şəriki də yoxdur. Allaha şərik qoşmaq günahdır!

“Hər gün Aşura, hər yer Kərbəla” sözlərinə məscidlərdə tez-tez rast gəlmək mümkündür. “Aşura”nın İslam tarixində öz siyasi yeri vardır. Belə ki, Hz. Əli (r.ə.) ilə Hz. Fatimənin son beşiyi olan İmam Hüseyn (ə.s.) Məhərrəm ayının 10-da Hicri 61-ci (Miladi 680) ildə Kərbəla çölündə Yəzidin əsgəri Sinan Min Ənəs tərəfindən şəhid edilmişdir. Həmin tarixi günü şiə müsəlmanları matəm günü kimi qeyd edirlər. Əməvilər isə əksinə, həmin günü qələbə kimi bayram edirlər. Buna görə də əgər imam Hüseynə sevgi-məhəbbətimizi bildirmək üçün ildə bir dəfə “şaxsey-vaxsey” deyib riyakarlıq etməkdənsə, Allah (c.c.)-a pənah aparmaq gərəkğdir. İslam dini və şəriətin vacib əməllərini yerinə yetirmək, müasir dünyəvi elmlərə yiyələnmək, bu cür batil işlərə uymamaq gərəkdir. Allah-təala özü-özünə bu cür zülm edənlərə zülm edər.

Maraqlıdır ki, İmam Hüseynə 40 gün yas saxlayıb, məscidlərdə növhələr oxutdururuq. Qəribədir ki, Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərə, məsciddə şəhid edilmiş İmam Əli (r.ə.)-yə və “Allahın aslanı” ləqəbini qazanmış şəhid Hz. Həmzəyə bəs onda niyə yas saxlamırıq?

Aşura günü müsəlmanlar başlarına döyüb, bədənlərinə qılıncla, zəncirlə, qəmə ilə xəsarət yetirib, həşir-qiyamət qoparmaqdansa, yaxşı olardı ki, imkanlılar kasıblara əl tutsun, elmi-dini-əxlaqi mövzuda yazılmış kitabların nəşr olunub yayılmasına

himayədarlıq edilsin, xəstələrə könüllü qan verilsin, ağac əkib yaşıllıqlar salınsın və daha çox faydalı işlər görülsün.

“Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini də görəcəkdir. Kim zərrə qədər pis iş görmüşdürsə onun zərərini də çəkəcəkdir.”(Quran, “Əl-Zilzal” surəsi, ayə 7-8).

FƏSİL

“Şəhidlər şahı” – Seyid Əli İmadəddin Nəsimi



İnsanlıq tarixi, bir baxımdan insanın insana tətbiq etdiyi şiddətin tarixidir. Digər baxımdan isə düşüncə və inanclarını canları bahasına müdafiə edən və ölümündən sonra əks-sədanı səsləndirən tarixdir. Dövrünün şair və filosofu olan şəhidlər şahı Nəsimi hər iki dünyanın mübtədasıdır.

Cahil dindarlar belə bir şəxsiyyəti kafir kimi hallandırmışlar. Onun yazdığı türkcə, farsca və ərəbcə “Divan”ı nəsillərə yadigar qalmışdır.

Nəsimi 1370-ci ildə Şamaxıda doğulduğu, uşaq ikən Quranı öyrəndiyi, türk, fars və ərəb dillərində oxuyub-yazmağı da öyrənmişdir. O, gənclik illərindəNaxçıvana gəlib Şeyx Fəzlullah Nəimidən Hürufilik təlimini də almışdır. Əmir Teymur, Nəmini öldürdükdən sonra Nəsimi baş götürüb İran, Türkiyə, Suriya və İraq ərazilərini gəzməyə gedir.

Nəsimi yüksək əxlaqlı mömin və ailə başçısı olaraq, insalara İslam təlimlərini təbliğ edərək, yazdığı dini-fəlsəfi şeirlərini yayırdı. Dövrün istismarçı siyasətini bəyənməyən şair, İslam bayrağı altında xalqları cəhalətdə saxlayan dindarları ifşa edirdi.

O, Allah (c.c.)-ın Quranını uca tutaraq, Peyğəmbərin elmi biliklərə dair hədislərinin təbliğatçısı idi. Nəsimi Allahın sözlərini xitab edərək, insanları bərabərliyə, elm və əxlaqa yiyələnməyə səsləyirdi. O, mənsəb sahiblərini halalıqla çörək qazanıb ailə saxlamağa, məzlumların hüquqlarını qoruyaraq Allahdan qorxmağı təbliğ edirdi.

Nəsimi fəlsəfəsinin əsasını insanın Ali məxluqat olması təşkil edir. Belə ki, Allah insanı torpaqdan yaradanda dünyadakı varlıqları da, onun özündə cəmləşdirmişdir. İnsan bədənində Cənnət və Cəhənnəm, dörd ünsür olan su, hava, atəş və torpaq eləcə də mələklərlə ruh da vardır. Nəsimiyə görə insanlar Yaradanın bu möcüzəvi nemətlərinə şükr edərək, cahillikdən aqilliyə ucalıb Ali məqama çata bilər. Ali məqam insanın Şüurudur ki, səbr, əxlaq və özünü dərk etməklə Allahın sirrlərindən xəbər tutsun. Nəsiminin hürufilik fəlsəfəsini anlamayanlar, onu kafir bilib danlayırdılar. Bütün bu "kafirlik" isə hakim dairələri qıcıqlandıraraq qəzəbə səbəb yaradırdı.

Nəhayət ki, 1417-ci ildə Nəsimi Hələbdə olarkən şagirdlərindən biri "ən-əl-həq" ("Haq mənəm") sözünü dediyinə görə, Əmir Yeşbəğ tərəfindən şairin dərisi soyularaq edam olunur.

Nəsiminin diri-diri dərisi soyulanda, qazi (müfti) ondan soruşur ki, -"Rəngin niyə saraldı?"

Nəsimi cavabında son dəfə deyir;-"Bəbəxt, mən sonsuzluğun üfüqündə doğan Günəşəm. Günəş qüruba qalxanda saralıb-solar!"

Müfti hirslənərək deyir:-"Kafirin qanı da murdardır. Kimin əlinə dəyərsə kəsilib atılmalıdır."

Təsadüfən qan qazinin barmağına sıçrayır. Camaat onun barmağının kəsilməsini tələb etdikdə Müfti gülərək deyir:-" Kəsilməsi lazım deyil, barmağımı su ilə yuyaram."

Azərbaycanın böyük şair və filosofu Şəhidlər şahı Nəsimi Şirvani, ömrünün 47-ci baharında şəhidlik zirvəsinə qalxmışdır.

Allah ruhuna rəhmət eləsin! Amin!

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,

Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

Ərşlə fərşu kafü nun məndə bulundu cümlə çün,

Kəs sözunüvü əbsəm ol, şərhu bəyanə sığmazam.

Kövnü məkandır ayətim, zati dürür bidayətim,

Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam.

Kimsə gümanə zənn ilə olmadı həqq ilə biliş,

Həqqi bilən bilir ki mən, zənnü gümanə sığmazam.

Surətə baxu mə'nini surət içində tanı kim,

Cism ilə can mənəm, vəli cism ilə canə sığmazam.

Həm sədəfəm, həm inciyəm, həşru sirat ədinciyəm,

Bunca qumaşu rəxt ilə mən bu dükanə sığmazam.

Gənci-nihan mənəm mən uş, eyni-əyan mənəm, mən uş,

Gövhəri-kan mənəm mən uş, bəhrəvu kanə sığmazam.

Gərçi mühiti-əzəməm, adım adəmdir, adəməm,

Dar ilə künfəkan mənəm, mən bu məkanə sığmazam.

Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,

Gör bu lətifeyi ki mən, dəhru zəmanə sığmazam.

Əncum ilə fələk mənəm, vəhy ilə həm mələk mənəm,

Çək dilinivu əbsəm ol mən bu lisanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncu şeş mənəm,

Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

Zat iləyəm sifat ilə, qədr iləyəm bərat ilə,

Gülşəkərəm nəbat ilə, bəstə dəhanə sığmazam.

Nar mənəm, şəcər mənəm, ərşə çıxan həcər mənəm,

Gör bu odun zəbanəsin, mən bu zəbanə sığmazam.

Şəms mənəm, qəmər mənəm, şəhd mənəm, şəkər mənəm,

Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,

Bundan uludur ayətim, ayətü şanə sığmazam.

“Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbətdə, böyük günah etmiş olur.” (Quran, “Nisa” surəsi, ayə 48).

FƏSİL

İnsan, irq, qan qrupu və dillərin yaranması



Dünyadakı irqlərin hamısı, bir ata (Adəm) və anadan (Həvva) yaranmışdır. Həzrəti Adəm (ə.s.) peyğəmbərin genetik quruluşunda dəri rənginin xüsusiyyətləri müxtəlifdir. Belə ki, Allah-təala ilk insanı yaradanda Yerdəki müxtəlif torpaqla sulardan istifadə etmişdir. O, palçıqdan düzəltdiyi insan "heykəlinə" Ruhundan bəxş edərək canlandırmışdı. Allah yaratdığı yeni məxluqata Ədim (yer qabığı) adını verir. Ədim (Adəm) asqıraraq "Əlhəmdülillah" (həmd olsun Allaha) deyib və Allah (c.c.)-ın qarşısında əyilir. Allah-təala Adəmə, "Yərhəmükəllah" (Allahın rəhmindəsən) deyir. Daha sonra Adəmi yuxuya verən Allah (c.c.), onun sol qabırğasından birin çıxarıb və yerdə qalmış palçıqla ikinci "heykəli" düzəldir. Allah (c.c.) onu da Ruhu ilə canlandırıb, adını Həyy (oyaq) qoyur.

Həzrəti Məhəmməd (s.ə.s.) demişdir ki;- "Qadınlar əyri qabırğadan yaradıldığından, düzəltmək istədikdə sına bilər."

Yer üzərində ilk insanlar indiki Antaliya ərazilərində yaşamışlar. Adəmlə Həvvadan törənən ilk uşaqlar əkiz qardaş- bacı olan Qabillə İqlimə idi. Daha sonra isə Həvva yenə də əkiz qardaş- bacı doğaraq adlarını Habil və Lövzə qoyurlar. Uşaqlar böyüyərək həddi buluğa çatırlar. Uşaqlar təsərrüfatla çalışıb, Qabil əkinçiliklə Habil isə heyvandarlıqla məşğul olurlar. Qardaşlar Allah (c.c.)-a qurban payı kimi iki yaşar ağ rəngli qoç ilə, buğda bəlimini "qurbangaha" qoyurlar. Göy guruldayır şimşək çaxır, Habilin "qurbanı qəbul olur". Qardaşına həsəd aparan Qabil, Habili başından daşla vurub öldürür. (bax, Ə.Əhmədov "Allahın hüccətləri", Bakı-1999).

Bu işdən xəbər tutan ata-anası kədərlənib və Qabili lənətləyirlər. Qardaşının ölümünə kədərlənən bacıları İqlimə ilə Lövzə də çox çəkmir ki, dünyadan köçürlər. Həvva (ə.s.) uşaqlarının ölümünə 40 gün ağlayaraq gözləri tutulur. Qabil isə qorxaraq qaçıb dağlardakı mağarada gizlənir.

Bir neçə illərdən sonra Allah (c.c.)-ın vəhyi ilə Həzrəti Adəm (ə.s.) kor qalmış arvadına mehrini salmaqla, Həvva (ə.s.) bir oğlan uşağı doğur. Atası sevinərək oğlunun adını Şiys (bəxşiş) qoyur. Bundan sonra Həvva (ə.s.) ikinci bir oğlan uşağı da doğur ki, adını Yafəs (nəzir) qoyurlar. Şiyslə Yafəs böyüyüb həddi-buluğa çatanda Allahın əmri ilə Cənnətdən Bərəkə, Nəzələ və Munzilə adlarında hurilər gəlib qardaşlara mehrlərini salırlar. Allah (c.c.)-ın əmri və Həzrətii Adəm (ə.s.) peyğəmbərin xeyir- duası ilə Yafəs Nəzələ ilə, Şiys isə Munzilə ilə nigahlanırlar. Mağarada tənha yaşayan Qabil də, Bərəkə ilə atasının xeyir- duası olmadan bir-birlərinə mehrlərini salırlar. Şiysin bir oğlu, qardaşı Yafəsin isə bir qız uşaqları olur. Mağarada yaşayan Qabilin də huridən əkiz bacı- qardaş uşaqları olur ki, sonra onlar (bacı-qardaş) bir-birlərindən genetik nəsil törədəcəklər.

“O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı palçıqdan yaratdı. Sonra onun nəslini bir özəkdən- bir qətrə zəif sudan əmələ gətirdi.” (Quran, “Səcdə” surəsi, ayə 7-8).

Doqquz il, doqquz ay, doqquz gündən sonra hurilərin üçü də, Allahın əmri ilə “ailələri”-ilə vidalaşıb və Cənnətə qaydırlar.

Uşaqlar böyüyüb həddi- buluğa çatanda Allahın əmri və babası Hz. Adəm (ə.s.) peyğəmbər, xeyir- duası ilə əmioğlu ilə əmiqızını nigahlayır. Həzrəti Şiys (ə.s.) peyğəmbər dünyada 300 il ömür sürmüş, insanlar da artıb coxalmışdır.

Zaman keçdikcə genetik irsiyyət dəyişmələr insan nəsillərində özünü biruza vermişdir. İlk dəfə 1865-ci ildə Çex iahiyyatçı və bioloqu Q.Mendel noxud bitkisi üzərində təcrübə apararaq irsiyyəti kəşf etmişdir. Mendelin əlamət (gen) adlandırdığı nəhəng molekul ixtisarla DNT (dezoksiribonuklein turşusu) adlanır. İrsiyyətin qanda olan hüceyrələrin birləşməsindən yeni doğulmuş uşaqlar ataya, anaya və hətta baba ilə nənəyə də oxşaya bilər.

Həzrətii Adəm (ə.s.) və Həzrətii Həvva (ə.s.)-da eyni qan qrupu olduğu halda, günümüzdəki 4 qrup qan necə yaranmışdır?

Bütün bunlara elmi şəkildə cavab tapmaq üçün, insanlardakı bir gen cütü (yəni iki gen) olduğuna əsaslanırıq. Həmin genlər eyni valideynlərdən doğulmuş insanlarda qruplaşmalara ayrılmışlar.

Qan qrupunu təyin edən genlər, A, B və O genləridir. Hər bir insanda bu genlər bir-biri ilə və ya əks formada birləşə bilərlər. Məsələn, AA, AO, BB, BO, AB və OO geni, yəni onlar A və B genləri müxtəlifdir.

Qan qrupu A olan adamdakı qan qrupunu təyin edən genlər, AA və ya AO şəklindədir. Hz. Adəmdə AO və Hz. Həvvada, BO genlərinin olması, aşağadakı kimi ortaya çıxır. Göründüyü kimi, Hz. Adəmdə A, Hz.Həvvada isə B qan qrupu heterozigot genetik quruluşda olması halı, indiki zamanda 4 qan qrupunun yaranmasına səbəb olmuşdur.

Həzrəti Adəm (ə.s.) və Həzrəti Həvva (ə.s.) qanlarında A, B və O genlərinin olmasi, günümüzdəki müxtəlif qan qruplarının ortaya çıxmasına əsas verir. (bax; A.Şirin "Gerçəyə doğru ardıcıllıq" ,İstambul-2000, s.22).

Allah –təala Hz. Adəm (ə.s.) peyğəmbərə, yaratdığı varlıqların adlarını və müxtəlif dillərdə danışmağı öyrətmişdir. O da bütün bunları övladlarına öyrədir. Peyğəmbərin vəfatından sonra uşağları yer üzündə müxtəlif yerlərə gedib yaşamışlar. İnsanlar müxtəlif yerlərdə məskunlaşaraq qəbilələrə bölünmüş və müxtəlif dillərdə danışmışlar. Beləliklə də digər dillər unudulmağa başlayır.

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır." (Quran, "Hucurat" surəsi, ayə 13).

Haliyyədə dünyada eyni mənşəli danışıq dilləri mövcuddur. Onlar, Hind-Avropa, Sami-Hami, Fin-uqor, Altay, Qafqaz və sairədir. Dillərin eyni kökdən yaranmasi müəyyən olmuşdur. Onlar, Hind-Avropa dillərinə slavyan, iran, hind, german, kelt və s. Türk dilləri ailəsi oğuz, bulqar, qıpçaq, karluq qrupları və s.-dir. Oğuz dilləri oğuz-səlcuq, oğuz-türkmən, oğuz-bulqar yarımqruplarına ayrlmış. Azərbaycan dili türk dillərinin oğuz qrupunun oğuz-səlcuq yarımqrupuna daxildir.

Hazırda dünyada danışılan müxtəlif dillər Hz. Adəmdən qalaraq Allah (c.c.)-ın hikmətindəndir. Allah-təala Quranı Ərəb dilində verdiyi üçün qiyamətdə insanların

sorğu-sualı Ərəb dilində aparılacaqdır. İnsan öldükdən sonra o Ərəb dilini öz Ana dili kimi biləcəkdir. Bu haqda Peyğəmbərimizin hədisləri vardır.

“Üç Səbəbə görə Ərəbi sevin: Çünki mən Ərəbəm, Quran Ərəbcə nazil olmuşdur, Cənnət əhlinin danışdıqları dil Ərəbcədir.” (İbni Abbas).

Hz. Adəm yer üzünə endirilmədən qabaq Cənnətdə olduğu vaxt Ərəbcə danışırdı. Bundan başqa digər peyğəmbərlərdən bəziləri də bu dildə danışırdı. Məsələn: Hz. Nuh (s.ə.s), Hz. Hud (s.ə.s), Hz. İsmayıl (s.ə.s), Hz. Saleh (s.ə.s), Hz. Şuayb (s.ə.s) Ərəbcə danışırlardı.

Hz. Aişədən gələn bir hədisdə belə deyilir “Cənnət əhalisi Məhəmməd Əleyhissalamın dili ilə danışacaq”.

“Göylərin və yerin yaradılması, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elmililər) üçün nişanələr vardır! (Quran, “Rum” surəsi, ayə 22).

FƏSİL 3

Həzrəti Mehdi (r.ə.)-nin Dünyaya gəlişi



Axır zaman, dünyanın son dövürlərini ifadə edən bir sözdür. İslam əqidəsinə görə, qiyamətdən əvvəlki bu son dövürdə insanlıq əvvəl böyük bir pozulma ilə qarşı qarşıya qalacaq. Haqsızlığın, zülmün, aclığın və yoxsulluğun, əxlaqi çöküntünün, döyüşlərin və qarşıdurmaların, qarışıqlıq və anarxiyanın artdığı bu qaranlıq dövr, insanların din əxlaqına yönəlmələriylə sona çatacaq. Yoxsulluğun yerini bolluq, haqsızlığın və zülmün yerini ədalət və anlayış, anarxiya və qarışıqlığın yerini sülh və etibar alacaq; dünya tarixdə heç olmadığı qədər gözəllik və bərəkət içində olacaq. Allah, dünyanın işıqlığa və bərəkətə çatması üçün, Hz. İsanın yenidən dünyaya gəlişini və "Mehdi" sifətini daşıyan müqəddəs bir şəxsi vasitə edəcək. Bütün bunlar, bizə Peyğəmbər Əfəndimiz (s.ə.s.) tərəfindən müjdələnilən, Quranda da işarə edilən çox qiymətli müjdələrdir.

Həzrəti Mehdi (r.ə.) Dünyada (Yer üzündə) Hicri tarixi ilə 1400-cü (Miladi 1980) ildən İslam dininin təlim və təbliği ilə məşğul olacaq. O, insanlar arasında Allah (c.c.)-ın Quran kitabı və Peyğəmbərin Hədislərini anladıb açıqlayacaqdır. Onun gəlişindən əvvəl müsəlman dövlətlərində din pozulacaq və Allahın adları zikr olunmayacaq. Məscidlər şikəst, ahıl və kimsəsizlərin toplantı yerinə çevriləcək.

Həzrəti İsa (ə.s.) və Həzrəti Mehdi (r.ə.), görünüş və əxlaqdan bir-birlərinə çox bənzəyəcəklər.

Həzrəti Mehdi (r.ə.) Allah (c.c.) tərəfindən Cənnətlə müjdələnmişdir. Belə ki o, imanı, təmkini, gözəl rəftarı ilə insanlar tərəfindən tezliklə tanınacaq.

Həzrəti Mehdi (r.ə.) insanlara Allahın və Dünyanın gerçəkliyini sübut edəcək. O, möminlərə öz sevgi və mərhəməti ilə bir insan kimi görünəcəkdir. O, münafiq möminləri üzlərindən tanıyacaqdır.

Həzrəti Mehdi (r.ə.)–nin Tükiyənin İstanbul şəhərinə gəlişi, insanların sevincinə səbəb olacaq. O, Türkiyədə nəşr olunan, üzərində Həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbərin möhürü vurulmuş din və əxlaq təlimləri olan kitabları sevinclə (mərhəmətlə) təbliğ edəcəkdir.

Həzrəti Mehdi (r.ə.) əvvəlcə Türkiyədə daha sonra isə bayrağının üzərində yaşıl rəng olan dövlətlərdə İslam təbliğatını gücləndirəcəkdir.

Həzrəti Mehdi (r.ə.)-nin doğumu Türkiyə Cumhuriyyətində, evdə olacaqdır. Tezliklə Osmanlı türkləri elm, mədəniyyət və mənəviyyatdə qonşu dövlətləri ötüb keçəcəklər. O, yüksək ixtisaslara yiyələnəcək, Qurana görə Yəhudi massonlarını ifşa etdiyinə görə iki dəfə əl-ayaqları zəncirlənəcək. O, zəncirdən qurtulsa da ev dustağı kimi Allahın hökmlərini icra edəcək.

Həzrəti Mehdi (r.ə.) massonlar tərəfindən müşahidə olunacaq və sıxıntıya salınacaqdır. Bütün bunlara baxmayaraq o, təzyiq və hücumlardan qorxmayıb mənəvi təbliğatını gücləndirəcəkdir.

Həzrəti Mehdi (r.ə.) tez bir zamanda Dünya dövlətlərinə mənəvi zərbə endirəcək. O, dünyadakı cahil müsəlmanları maarifləndirəcək.

Həzrəti Mehdi (r.ə.) möminlər arasındakı münafiqləri “təmiz və bərəkətli buğdaya qarışmış alaq otu toxumları”ndan təmizləyəcək. O, möminlər arasında olub, adının iki peyğəmbər adlarıyla qoşa çağrılmasında məşhurlaşacaq.

İnsanlar Onu hər bir yerdə görsələr də, onun axır zaman əleyhissalam olduğunu güman etməyəcəklər.

Həzrəti Mehdi (r.ə.)-ni insanlar tərəfindən tanıya bilməmələrinin hikməti də, Allahın onu kafirlərdən qorunması əlamətlərindəndir. O, insanlar tərəfindən tanınandan əvvəl, qoşa çəkilən adı və əxlaqı ilə şöhrət tapıb möminləri sevindirəcəkdir.

Həzrəti Mehdi (r.ə.) televiziya kanallarının mənəvi-əxlaqi söhbətlərində, özünü heç vaxt axır zaman Həzrəti kimi bildirməyib və insanların gözlərindəki qəflət pərdəsini

açacaqdır. Buna görə də, o axır zamanın dövründə yaşayan nöminlərin sevinci coxalacaqdır.

Həzrəti Mehdi (r.ə.) tezliklə internet, televiziya və radio vasitəsi ilə dünyada tanınacaq.

Hədislərdə deyilən,-"göydən bir əl uzanacaqdır ki, bu axır zamanındır onu tut görüş" sözlərinə görə internet sayıtlarında "görsənən əl" Həzrəti Mehdi (r.ə.)-nin olacaqdır.

Həzrəti Mehdi (r.ə.) söhbətlərində hər hansı bir mövzunu dəlillərlə subut edib və kimsə ona qarşı çıxa bilməyəcəkdir.

Həzrəti Mehdi (r.ə.)-nin fiziki əlamətləri

Həzrəti Mehdi (r.ə.)-nin saçları gözəl olub baxanların diqqətin çəkəcəkdir. O, görkəmdə Hz. Xızır (ə.s.) və Hz. Zülqərneyn (ə.s.) peyğəmbərlərə bənzəyir. Onun geyindiyi paltarlar təmiz və parlaqdır. Onun sağ ayağındakı yara izinin yanında xal vardır. Onun kürək nahiyyəsində (çiynində) də yarpaq şəkilli Allahın "möhürü" olan xal vardır. O, imamların sonuncusu kimi, Həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbərin qızı xanım Fatimənin və Həzrəti Əli (ə.s.)-ın soy kökündəndir və Seyiddir.

Onun baxışları düz və qıyıq gözlüdür. Onun üzü gözəl və nurlu, burnu düz, saçı qara, alnı geniş, qaşı qövslü, dişəri parlaq, saqqalı sıx və yanağında da xal vardır. Həzrəti Mehdi (r.ə.) rəngi ərəblərə bənzəyərək, orta boylu, əndamı düz, geniş kürəkli və heybətli yerişi vardır.

Hz. Məhəmməd (s.ə.s.)in hədislərində Mehdi (r.ə.)in çıxış aləmətləri

1. Hz. Mehdinin Çıxış Əlamətlərinin bir-bir meydana gəlməsi.

2. İran- İraq Döyüşünün Olması.

3. Fırat ilə Dəclə Arasındakı Böyük Döyüş.

4. Fıratın Suyunun Kəsilməsi.

5. Ramazan ayında Ay və Günəş tutulmaları.

6. Əfqanıstanın İşğalı.

7. Şərq tərəfindən bir alovun görünməsi.

8. Kometanın keçməsi.

9. Kəbə basqını və Kəbədə qan axıdılması.

10. Günəşdən bir əlamətin meydana çıxması.

11. Günəş tutulması.

12. Tozlu dumanlı bir fitnə görülməsi.

13. Sistemlərin dəyişməsi.

14. Şam və Misir məliklərinin öldürülməsi:.

15. Köhnə İordaniya Kralı Abdullahın öldürülməsi.

16. Bir ordunun itməsi.

17. İraqlıların pulunun qalmaması.

18. Bağdadın yanaraq tələf olması.

19. İraq və Şama ambarqo tətbiq olunması.

20. İraqın yenidən qurulması.

21. İraq xalqının Şama qaçması.

22. Şamda fitnələr olması.

23. Şam, İraq və Ərəb Yarımadasında qarışıqlıq olması:.

24. İraqın üçə bölünməsi.

25. Döyüş və qarşıdurmaların məhəllə aralarına qədər girməsi.

26. Böyük hadisələrin və heyrət verici şeylərin meydana gəlməsi.

27. Hz. Mehdinin çıxışından ümid kəsilməsi.

28. Fitnələrin çoxalması.

29. Böyük qırğınlar meydana gəlməsi.

30. Dünyanın hər yerini qarışıqlıq və qarışıqlıqların örtməsi.

31. Anarxiya və bütün dünyada qiyamların olması.

32. Qadın, uşaq və günahsız insanların qətl dilməsi.

33. Misirlilərin əsir alınması.

34. Şəhərlərin yox olması.

35. Xarab olmuş yerlərin abadlığı.

36. Hər yerə çatan bir fitnə.

37. Haramların halal sayılması.

38. Allahın açıqca inkar edilməsi.

39. Materialist fəlsəfənin yayılması.

40. Din əxlaqından uzaqlaşdıran fitnələrin olması.

41. Məscidlərin yıxılması.

42. Saxta Peyğəmbərlərin Çoxalması.

43. Dinin bəzi insanlar tərəfindən şəxsi çıxarlar üçün isitfadə edilməsi.

44. Saleh möminlərin çox az olması.

45. Müsəlmanlara basqının artması.

46. Siyasət adamlarında dejenerasiya.

47. Gözəl və pis əxlaq anlayışlarının yer dəyişdirməsi.

48. Müsəlmanların bir-birləri ilə döyüşmələri.

49. Ticarət və yolların kəsilməsi.

50. Zəlzələlərin çoxalması.

51. Quraqlığın olması.

52. Qasırğaların artması.

53. Şiddətli yağışların yağması.

54. İldırımların çoxalması.

55. Yer çökmələrinin olması.

56. Evlərin məzar olması.

57. Epidemiya xəstəliklərinin artması.

58. İnsanların bir-birindən qaçması.

59. “Yaxşılığı əmr edib, pislikdən məhrum etmə” ibadətinin tərk edilməsi.

60. Aclıq və kasıblığın artması.

61. Zəkatın tərk edilməsi.

62. Cinayətlərin çoxalması.

63. İntihar hadisələrinin artması.

64. Əxlaqsızlığın olması.

65. Zinanın artması.

66. İqtisadiyyatda pozulma və ictimai ədalətsizliklər olması.

67. İctimai pozulmaların olması.

68. Ömürlərin uzanması.

69. Çöllərin yaşıllaşdırılması.

70. Adamın qamçısının ucuyla və öz səsiylə danışması.

FƏSİL

Qiyamətin əlamətləri



1979-cu ildən başlayaraq 2009-cu il tarixədək Dünyada bir çox inandırıcı “möcüzəvi hadisələr” baş vermişdir. Onları ardıcıllıqla sadalayaq;

Əfqanıstanın Sovet İttifaqı ilə ABŞ-ın xüsusi təyinatlı hərbi qüvvələri tərəfindən işğalı, Yaxın Şərqdə İran-İraq məhəlli döyüşləri, SSRİ-də Sovetlər birliyinin dağılması ilə dünya kommunizm quruluşunun yıxılması, kosmosda Halley kometasının Yerin yaxınlığından keçib getməsi, dünyada İnternet rabitəsinin yaradılması, dəhşətli Katrina fırtınası, Darvinizm materialistlərinin süqutu və sairə.

İlk görünüşdəki sadalanan hadisələr, əslində yaxınlaşmaqda olan Qiyam-qiyamətin əlamətlərindən yalnız bir neçəsidir. Həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbər demişdir ki;-“Qiyamətin yaxınlaşacağı zamanda insanları heyrətə salacaq çox böyük hadisələrin olacağı görüləcək.”

Son 30 ildə Dünyada gözlənilməz hadisələr baş vermişdir ki, texnologiyanın sürətli inkişafı ilə fövqəladə təbiət hadisələri də reallaşan ünsürlərdir.

Həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbər Həzrəti Mehdi (r.ə.)-nin zuhuri ilə əlaqədar reallıqlar haqqında belə demişdir;- “Onun zamanında böyük hadisələr baş verəcək.”

Bundan başqa digər din alimlərinin kitablarında Qiyamətin olacağından öncə Hz. Mehdi (r.ə.)-nin gəlişi ilə, tarixi əlamətdar hadisələri olacağı vurğulanmışdır;- “Talikana (Əfqanıstana) təəssüf oldu. Şübhəsiz Allah-təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allah (c.c.)-ı haqqıyla bilən insanlar vardır. Onlar

axır-zaman Hz. Mehdi (ə.s.)-nin köməkçiləridir. (bax, Burhan, "Əlaməti-Mehdiyy-Axır-zaman", səh. 59).

Bu hədisdən göründüyü kimi Əfqanıstanda müxtəlif səbəblərlərdən istehsalı dayandırılmış neft –qaz yataqları, dəmir filizi və daş kömür mədənləri vardır.

Ərəb-Yəhudi sülhü reallaşacaq; -"Sizinlə insanlar (yunanlar) arasında 4 dəfə sülh yaranacaqdır ki, dördüncü dəfə yunanlardan olan bir adam vasitəsilə olub və 7 il davam edəcəkdir..." (bax. Çataki, "Qiyamət əlamətləri", səh. 299).

Kəbədə qanlar axıdılacaq;- "Onun cıxacağı il, möminlər həccə gedəndə başçısız gedəcəklər. Hacılar Kəbə Evini dolandıqdan sonra Mina dağında onlara hücum edilərək, nahaq qanlar tökülәcək və Aqəbə məscidi qana bulaşacaqdır." (bax. Çataki, "Qiyamət əlamətləri", səh. 168).

Maraqlıdır ki, hədisdə deyilmiş qırğın, Hicri 1400-cü il, Məhərrəm ayının 1-də (Miladi 1979-cu il 21noyabr) baş vermişdir.

Yaxın Şərqdə İran-İraq məhəlli savaşları başlayacaq; "Şəvval ayında qiyam, Zilqədədə hərbi çəkişmələr və Zilhiccədə isə məhəlli savaşlar başlayacaq." (bax. Berzenci. "Qiyamət əlamətləri", səh. 166).

Hədisə görə, İranın sonuncu şahı Məhəmməd Rza Pəhləviyə qarşı ilk qiyam 5 Şəvval 1398-ci ildə (Miladi 8 sentyabr 1976) olmuşdur. Hicri 1400 Zilhiccə (1980 Oktyabr) ayında isə İranla İraq dövlətləri arasında savaş başlamışdır.

1981-ci ildə Ramazan ayında Günəş və 1982-ci ildə isə Ayın tutlması hadisələri baş vermişdir; "Ramazan ayında iki dəfə tutulma olacaq." (bax. Əl-Kavlul, "Müxtəsər-əlaməti-Mehdiyyil-müntəzar", səh. 47).

Hədisə görə Hicri 1401-ci (Miladi 1981) ildə Ramazan ayının 15-də Ay və 29-da isə Günəş tutulmuşdur.

Misir məliyi öldürüləcək;- "Ondan əvvəl Şam və Misir məlikləri öldürüləcək." (bax. Əl-Kavlul, "Müxtəsər fiəlamət Mehdiyyil muntazar", səh. 49).

Hədisə görə 1981-ci ildə Misir prezidenti Ənvər Sədat rəsmi keçid zamanı müxaliflərinin sui-qəsdi ilə öldürülmüşdür.

Kometa (ulduz) doğuldu;- “Həzrəti Mehdi(ə.s.)-nin gəlişindən əvvəl, (hər tərəfi) işıqlandıran quyruqlu bir ulduz doğulacaq.” (bax. Çataki, “Qiyamətəlamətləri”, səh. 200) və “O ulduzun doğulması, Günəş və Ay tutulmasından sonra olacaq.” (bax. Burhan, “Əlaməti-Mehdiyy-Axır-zaman”, səh. 32).

Hədisə görə Hicri 1406-cı (Miladi 1986) ildə parlaq “Halley” kometası Yerin yaxınlığından keçmişdir.

Bunlardan başqa 1986-cı il 26 aprel tarixində Ukraynadakı Çernobıl Atom Elektrik Stansiyasi partladıldı. Nəticədə ətrafda olan Avropa ölkələri qorxunc nüvə radiasiyası təsirində qaldi.

1990-cı ildə ABŞ-ın siyasəti nəticəsində, Sovetlər birliyinin başçısı N.Qorbaçovun əli ilə SSRİ hökuməti dağıldı. Həmin il dünyada ilk dəfə olaraq İnternet kosmik rabitəsi yaradıldı.

İnternet vasitəsi ilə bir cox məlumatlarla yanaşı Quran əxlaqı mövzusundakı məlumatları, çoxsaylı insanlar tərəfindən asan yolla öyənilməyə başlandı.

1991-ci ildən İraq-Küveyt şavaşı nəticəsində Küveytlə Bəsrə körfəzlərindəki neft mədənləri yandırıldı. Elə həmin ildə Banqladeşdə sel sularından 120.000-dən artıq bütpərəst öldü və milyonlala adam isə evsiz qaldı.

1993-cü ildə qərbi Avropadakı Bosniya ilə Kosovadakı (müsəlmanlarla xaçpərəstlər) qırğında yüz minlərlə günahsız müsəlmanlar öldürüldü və yüz minlərlə vətəndaş isə evsiz qaldı.

1997-ci ildə “Hala-Bopp” kometası, saatda 160 km. sürətlə Yerin yaxınlığından keçmişdir.

1999-cu ildə mərkəzi Gölcük (Türkiyə) olan 7,4 bal gücündə, 45 saniyə ərzində olan zəlzələ baş vermiş və 17 min 800 dən çox insan uçqun altında qalaraq məhv olmuşlar. Həmin ildə Günəş tutuldu.

2001-ci ildə Tozlu-tüstülü bir Fitnə olacaq;- “Tozlu tüstü, qaranlıq bir Fitnə görüləcək, bunu digərləri izləyəcək..” (bax. Burhan, “Əlaməti-Mehdiyy-Axir-zaman”, səh. 26).

2001-ci il 11 sentyabr tarixdə ABŞ -ın Nyu York və Vaşinqton şəhərlərində Dünya ticarət Mərkəzi ilə Pentaqona edilən terror hücumu nəticəsində 3 min adam

ölmüşdür. Hədisdə, Həzrəti Mehdi (ə.s.)-nin Dünyaya gəlişi ilə əlaqədar olaraq, tozlu və tüstü, qaranlıq bir fitnənin olacağından danışılır. Həmin ildə Hindistanda 7,9 bal gücündə zəlzələ olmuş və 30 mindən artıq insan torpaq altında qalmışdır. Bununla bərabər dünyanın bir çox bütpərəst ölkələrində quraqlıq olmuşdur.

2003-cü ildə ABŞ-ın birləşmiş müttəfiq hərbi qüvvələri İraq ərazilərinə soxularaq, müsəlmanlarla savaşa başladı. Tezliklə Bağdad, Kərbəla, Kərkük və digər şəhərlər dağıdılaraq əhalisi öldürüldü. İraq İslam Dövlətinin prezidenti Səddam Hüseyin tutularaq həbsxanada asıldı.

Bağdad alovlar altında yanaraq yox edildi; "Axır zamanda Bağdad alovlar altında qaldı..." (bax, "Risalətül Hurucül Hz.Mehdi", Dəri 3, səh. 177).

Qəribədir ki, 6 ildir ABŞ-ın birləşmiş müttəfiq qoşunları tərəfindən İraq dövlətinə qarşı təcavüz edilmiş və Səddam Hüseyin də asılmış, lakin yenə də müttəfiq qoşunlar müqəddəs əraziləri tərk etmək fikrində deyil. İmam Hüseyin (ə.s.)-nin Bağdad yaxınlığındakı ziyarətgahlara müsəlmanların gedişi müşkül olmuşdur. Buna görə də şiə məzhəbində olan müsəlmanlar çətinliklə qarşılaşmışdır. Allah (c.c.) hər şeyi görür və bilir. Yəqin ki, möminlərin duası ilə Kərbəlanın da yolları möminlərin üzünə açılar. İnşaAllah! Ona salam olsun! Amin!

2003-cü ildə İraqda kürdlərdən ibarət seçmə ordu yerə batırıldı;- "...Özünə bir ordu göndəriləcək. Onlar yerin səhra-çölündə ikən yerə batırılacaq." (Müslim, "Gələcəyin tarixi-4", səh. 31).

İraq qoşunlarının 15 min fədailərinin "yerə bataraq" itməsi nəticəsində 10 mindən artıq ABŞ-ın müttəfiq qoşunu əsgərlərinin də qorxudan ruhi xəstəliyə tutulması ilə nəticələnmişdir.

Həmin ildə Səudiyyə Ərəbistanında güclü yağışlar nəticəsində Məkkədə sel suları bir çox adamları boğub öldürmüş. Bundan başqa 27 avqust tarixində Mars planeti təxminən 60 min ildən sonra Yerin yaxınlığından keçmişdir.

2004-cü ildə Yaxın Şərqdə (Ərəbistanla Pakistanda) ərazinin bir hissəsi yerə batmışdır;- "On əlamət görünmədən qiyamət qopmayacaq... Biri şərqdə, biri qərbdə, bir başqası da Ərəb yarım adasında meydana gələcək (ərazinin) yerə batma hadisəsi..." (bax, Müslim, "Fiten", səh. 39).

Həmin ilin 26 dekabr tarixində Cənubi Asiyada Hind okeanında baş vermiş su altı zəlzələ (Sunami dalğası) nəticəsində 400 min insan su alyında qalaraq məhv olmuşdur. Qiyamət əlamətlərini bildirən su altı zəlzələsinin fəlakəti Cənubi Asiya ölkələrindən İndoneziya, Şiri Lanka, Hindistan, Malayziya, Tailand, Banqladeş, Mayama, Maldiv adaları və Seyşel adaları ilə bərabər uzaq Afrikadakı Somali sahillərinə də təsir etmiş və sahildəki şəhərlər əhalisi ilə birlikdə su basmadan məhv olmuşlar.

2005-ci ildə Katolik Kilsəsinin Papası II Jean Paul ömrünün 84 yaşında Dünya həyatı ilə vidalaşdı.

Həmin ildə Pakistanda baş verən zəlzələdən 40 min müsəlman torpaq altında qalmışdır.

Həmin ildə ABŞ-ın Meksika körfəzində "Katrina" qasırğası qlmuşdur ki, New Orleans şəhərinin yarıdan çox hissəsi körfəz suları altında qalmışdır.

Həmin ildə Afrikadan köçəri quşlarla dünya ölkələrinə yayılmış "quş qripi" xəstəliyindən minlərlə adam infeksiyaya məruz qalmışdır. Müasir səhiyyə elmi həmin qorxulu (ölümlə nəticələnən) insanlar tərəfindən yoluxa bilən xəstəliyə qarşı müalicə üsulu tapmamışdır. Maraqlıdır ki, 1959-cu ildən Afrikadan yayılmış yolxucu qrip xəstəliyiənə qarşı bu günədək müalicə üsulları tapılmamışdır.

2007-ci ildə Adnan Oktarın "Yaradılış Atlası"əsəri Fransanı sarsıltdı;

Həmin ildə Avropa Şurasında "Yaradılış Atlası" əsəri elmdə Darvinizmə qarşı çaxnaşma saldı; Fransanın Strasborq şəhərində 4 oktyabr 2007-ci il tarixdə məktəb-təlim müəssisələrində materializmin dərsliklərdən çıxarılmasına hesabat təsdiq olundu. Avropa Şurasında qərar qəbul olundu ki, tədris müəssisələrində dünyanın yaradılmasındakı təkamül nəzəriyyəsi və materialist təlimləri metodikası, "Yaradılışın gerçəyi" ilə əvəz olunmalıdır.

Fransa Respublikasının başçısı Nikolas Sarkozi, "cəmiyyətdəki məktəblərdə ilahiyyat dərslərinə yenidən başlanması lazım olduğunu" bildirmişdir.

2007-ci ildə Bölücü Terror Təşkilatının (P.K.K.) Adnan Oktar tərəfindən 90-cı illərdən meydana gətirdiyi Marksist-Leninçi kommunistlər tərəfindən dəstəklənməsi haqqındakı xəbərlərini, bütün Dünya dövlətlərini heyrətləndirmişdir. Həmin ilin

payızında bu mövzu haqqında kütləvi təbliğat vasitələri tərəfindən dəfələrlə müsbət fikirlər bildirildi. Kommunist partiyasının ideoloji quruluşu cəmiyyətdə zorakılıqla ateist (dinsiz, kafir) təbliğatı ilə insanları kor-koranə inkişaf etdirmişdir. Bunun da nəticəsində dünya sosialist sistemindəki ateist zəncirinin qırılması ilə nəticələndi.

“Əgər Rəbbin, istəsəydi bütün insanları tək bir ümmət edərdi. Onlar hələ də ixtilafdadırlar.” (Quran, “Hud” surəsi, ayə 118).

2008-ci ildə Dünyanın ən böyük dininin İslam olduğu açıqlandı;

31 mart 2008-ci il tarixdə Reuters Xəbər Agentliyi tərəfindən məlumat yayılmışdır ki, dünya üzrə müsəlmanların sayı, xaçpərəstlərin sayından iki dəfə artmışdır. Vatikanın “Losservatore Romanoda” qəzetinin yazdığı məlumatda;- “Katoliklər zirvədən düşmüş və Müsəlmanlar bizi keçmişdir...” sözləri ilə İslamın Dünya səviyyəsindəki zəfərini bildirmişdir.

“Onlar Allahın nurunu (İslam dinini) öz ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır.” (Quran, “Səf” surəsi, ayə 8).

Həmin ildə Dünyanın dörd tərəfindən Darvinizmin yıxılması xəbərləri gəldi;

Dünyanın 34 ölkəsi tərəfindən təkamül nəzəriyyəsi puç və əfsanə kimi yanlış olduğu təsdiqlənmişdir.

İngiltərənin keçmiş Baş naziri Tony Blair də, Frasanın başçısı Nicholas Sarkozi kimi, “Yaradılış Atlası”nın bütün dünya dövlətlərinə yayılmasını bildirmişdir. ABŞ-ın Yale Universitetində dərs deyən ingilis Tony Blair tələbələrinə “Yaradılış Atlası”ndan bilgilər verərək belə demişdir;- “Səmimiyyətlə inanıram ki, inanc və qloballaşma XXI əsrin təyin edici ünsürləridir “ (“Milliyyət” qəzeti, 21 sentyabr 2008-ci il).

2008-ci ildə Adnan Oktarın Birlik Mesajları həyata keçməyə başladı və Qafqaz İttifaqında əhəmiyyətli inkişaf yarandı;

Hörmətli Adnan Oktarın şərəf başçısı olduğu Elm Araşdırma Vəqfi tərəfindən 29 may 2008-ci il tarixdəki,- “İki dövlət bir millət kimi Azərbaycan-Türkiyə Birliyi” sözündən sonra Azərbaycanda 4 iyul 2008-ci il tarixdən İslam dinini inkişafı gücləndirilmişdir.

Azərbaycan Respublikası daxilində Adnan Oktarın (Harun Yəhya) islami bilgilərlə zəngin olan əsərləri nəşr olaraq kütləvi surətdə yayılaraq təbliğ olunur.

2008-ci ildə İran İslam Respublika başçısı Mahmud Əhmədnecatın Türkiyəyə dostluq səfəri;

İranın prezidenti Mahmud Əhmədnecat İstanbuldakı səfərindən qonşu Türkiyə vətəndaşları məmun olmuş və iki müsəlman dövlətləri arasındakı dostluq telləri möhkəmlənmişdir. Bu isə bölgədəki müsəlmanların birlikdə olmalarına nümunədir.

2008-ci ilın oktyabr ayının əvvəlində Dünya cəmiyyətini tənəzzülə salan İqtisadi Böhran başladı;

Başda ABŞ olmaqla dünya iqtisadiyyatında tarixi böhran başladı. Mütəxəssislərin fikrincə başlanmış böhran, hələ 1929-30-cu illərdəki iqtisadi böhrandan qat-qat gücü olmuşdur. Bankların 80 ildən sonra müflisləşməsi, dünya bazarlarını alt-üst etdi. Nyu Yorkda büdcə açığını bağlamaq üşün şosse yolları, körpü və tunellər satışa çıxarıldı. Dünya birjaları birdən- birə çökməklə bir həftə ərzində maliyyə bazarlarında 4 trilyon dollar itkiyə səbəb oldu. ABŞ-ın ayrı-ayrı ştatları yüksək səviyyədə olan İslandiya və Avropa ölkələrində iqtisadi durğunluq əmələ gəldi...

2008-ci ildə Türkiyə dövlətinə qarşı olan Ergenokon (PKK) Şəbəkəsi çökdürüldü;

İslam dininin elmi təbliğatçısı Adnan Oktar, “Harun Yəhya” təxəllüsü ilə 1997-ci ildə yazdığı “Terrorun pərdə arxası” adlı kitabında , “Ergenokon” terror təşkilatını açıqlayaraq, “Darvinist ateist”lərini ifşa etmişdir.

Türkiyə dövləti vətəndaşlarının inancını, birlik və nizamını silah yolu ilə pozmağa çalışan həmin şəbəkə (dəstə), Türklərin mənəvi dəyərləri və onları müdafiə edənlərə qarşı çıxırdı. Həmin təşkilat, Türkiyə dövlətinin yüksək mənsəb sahibləri tərəfindən dəstəklənərək dinc insanlara qarşı şər işlərini genişləndirməkdə idi. Tezliklə Türkiyə dövlətinin vətənpərvər və qəhrəman əsgərləri tərəfindən, Allah(c.c.)-ın köməyi ilə Dəccalın başçılıq etdiyi Ergenokon dəstəsi çökdürüldü.

“...Allahın əmri təqdir edilmiş bir talehdir!” (Quran, “Əhzab” surəsi, ayə 38).

Dünya tarixindəki hadisələr, Uca Allah (c.c.)-ın təyin etdiyi qüsursuz qədərə (talehə) görə insanlar, inkişaf etməkdə və yaşanmaqdadır. Buna görə də Dünyadakı bütün

işləri qiymətləndirmək lazımdır.

Bu səbəblə dünyadakı inkişaflar, Axır zamanı müjdələyən Həzrəti Mehdi (ə.s.)-nin gəlişinin əlamətlərindəndir.

“(Ya Peyğəmbər!) Allahın köməyivə zəfər gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman; Rəbbini həmd-səna ilə təqdis et (“Sübhanəkə Allahümmə və bihəmdikə” sözlərini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən O, tövbələri qəbul edəndir!” (Quran, “Nəsr” surəsi, ayə 1-3).

Amerika Birləşmiş Ştatları tarixində ilk dəfə olaraq Müsəlman zəncisi başçı seçildi;

ABŞ-da 2008-ci ilin 4 noyabr tarixində Müsəlman olan Barak Hüseyin Obama, Prezident seçilmişdir.

Həmin tarixi nəticənin əhəmiyyətli cəhəti də, Dünya həyatında İslamiyyətə sahib çıxan Həzrəti Mehdi (r.ə.)-nin mövzusunun yenidən xatırlanmasıdır. Maraqlıdır ki, Prezident seçkilərindən əvvəl “Fordes” jurnalında əhəmiyyətli bir xəbər yazılmışdır. Xəbərdəki “İşıq Okeanı” adlanan kitabda yazılmış Həzrəti Əli (ə.s.)-ın söylədiyi hədisindən sitat gətirilmişdir ki;-“Qiyamətdən dərhal öncə, uzun boylu qara dərili adam qərbdə hakimiyyəti ələ alacaqdır. Dünyanın ən böyük əsgərlərinə əmredəcək. Üçüncü İmamdan (Hz. Hüseyn (ə.s.)) işarələr daşıyacaq. Şiə müsəlmanları onun bizdən olduğuna şübhə etməsinlər.” (bax; http://www.forbes.com/opinions/2008/10/26/obama-iran-ahmadinejad-oped-cx-at-1026taheri.html).

Bütün bunların ən doğrusunu yalnız, Uca Allah (c.c.) bilir. Ona Həmd və salam olsun! Amin!

“Allahın doğru yola saldığı kimsəni də, heç kəs yoldan çıxarda bilməz. Məgər Allah yenilməz qüvvət sahibi, intiqam sahibi deyilmi?!” (Quran, “Zümər” surəsi, ayə 37).

“Şübhəsiz ki, Allah göylərin və yerin qeybini bilir. Allah sizin nə etdiklərinizi görəndir!” (Quran, “Hucurat” surəsi, ayə 18).

FƏSİL 9

Ədəbiyyat

"İslam tarixi", Qum, hicri 1376.

"Maraqlı faktlar", Bakı-1970.

"Mədən-maarif" jurnalı, yanvar 2006.

"Şərq qapısı" qəzeti, 14 yanvar 2009.

"Qurani-Kərim" (azərbaycanca), Bakı-2006.

A. Axundzadə "Müqəddəs peyğəmbərlər tarixi", Bakı-1993.

A. Ə. Şöhrəverdi "Hz. Məhəmmədin kəlamları" (ingiliscə), London-1905.

A. Şirin "Gerçəyə doğru ardıcıllıq", İstanbul-2000.

E. P. Zavaritskaya "Vulkanlar", Bakı-1949.

Ə. Əhmədov "Allahın hüccətləri." Bakı-1999.

F. Bağırov "Nuh yurduna ziyarət, "Bakı-2008.

F. Bağırov "Tarixin yaddaşı", Naxçıvan-2009.

H. Yəhya "Dünya həyatının həqiqətləri", İstambul-2007.

H. Yəhya "Xalqların həlakı", Ankara-1999.

H. Yəhya "İslam terroru lənətləyir", İstambul-2006.

H. Yəhya "Quran möcüzələri", Ankara-1999.

X. Şirvani "Seçilmiş əsərləri", Bakı-1987.

İ. Abbasov "Dini-elmi-əxlaqi söhbətlər", Naxçıvan-2008.

Q. Qədirzadə "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan", Naxçıvan-2009.

Q. P. Qorşkov "Zəlzələ", Bakı-1951.

M. Əhvədi "Cami-cəm", Bakı-1970.

Plutarx "İskəndər Zülqərneyn", Bakı-1993.

R. H. Sultanov "Nuhun tufanı haqqında həqiqət", Bakı-1971.

R. İbadulla oğlu "Quran əlifbası və İslamın təlimi", Bakı-2001.

V. V. Kolobkov “Tufan və fırtına”, Baki-1952.